AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

SOLMAZ SADIQOVA

# SOSİAL-SİYASİ İNFORMASİYA RESURSLARI

## Dərs vəsaiti

*Bakı Dövlət Universiteti rektorunun 22.11.2016-cı il tarixli R-101 №-li əmri ilə dərs vəsaiti kimi təsdiq olunmuşdur*

Bakı – Mütərcim – 2016

- 19278 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

78.5 (5 Aze)
S 16

**Elmi redaktor:** *Nadir İsmayılov*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Rəyçilər:** *Knyaz Aslan*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*(Bakı Dövlət Universiteti)*

*Xuraman Ağayeva*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent əvəzi*
*(Bakı Dövlət Universiteti)*

*Şəfəq İslamova*
*tarix üzrə fəlsəfə doktoru,*
*(AMEA İqtisadiyyat İnstitutunun*
*kitabxana müdiri)*

**Sadıqova Solmaz Azay qızı. Sosial-siyasi informasiya resursları:** Dərs vəsaiti. – Bakı: Mütərcim, 2016 – 126 s.

*Kitabda sosial-siyasi informasiya anlayışı, sosial-siyasi informasiya resursunun yaranması və inkişafı, bu sahənin informasiya tələbatçıları, Azərbaycanın görkəmli siyasi və dövlət xadimlərinin əsərlərinin nəşri və biblioqrafiyası, sosial-siyasi elmlər üzrə biblioqrafik vəsaitlər sistemi və s. haqqında məlumat verilmişdir. Dərs vəsaitindən, tələbələr, müəllimlər, magistrantlar doktorantlar və sahə mütəxəssisləri istifadə edə bilərlər.*

S $\frac{1504000000}{026}$ 278-16

© Sadıqova S.A., 2016

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

# G İ R İ Ş

Müasir cəmiyyətdə gedən qlobal proseslər ictimai həyatın bütün sahələrinə təsir göstərir. Bu prosesi fərqləndirən əsas cəhət cəmiyyətin yaşaması üçün informasiyanın fundamental faktora çevrilməsidir.

Azərbaycan Respublikasının yenidən öz müstəqilliyini əldə etməsi ölkədə kitabxana işinin və biblioqrafik fəaliyyətin təşkilində, inkişafında yeni dövrün başlanmasına səbəb olur. İctimai quruluşun dəyişməsi, milli ənənələrimizə qayıdış sənədinformasiya sisteminə də öz təsirini göstərir, sənəd fondunda keyfiyyətli dəyişikliyin aparılmasını, fondun yeni, milli və dünya mənəvi dəyərlərini obyektiv, real faktlarla işıqlandıran sənədlərlə zənginləşdirilməsini zəruriləşdirir. Azərbaycan Respublikasının müstəqillik əldə etməsi, açıq bazar iqtisadiyyatı yoluna keçməsi cəmiyyət üzvlərinin şüurunda da böyük dəyişikliyə və bununla onların informasiya tələbatlarında yeni istiqamətlərin yaranmasına və formalaşmasına səbəb olur. Təbiidir ki, bütün bunlar biblioqrafik fəaliyyətin də qarşısında yeni, daha mürəkkəb vəzifələr qoyur. Birinci ümumi vəzifə sənəd informasiyasının təşkilinə və həyata keçirilməsinə tamamilə yeni mövqedən yanaşmaq, xalqımızın beynəlxalq standartlara cavab verəcək səviyyədə informasiyalaşdırılmasına təsir göstərə bilən mütərəqqi yolları müəyyənləşdirmək, yeni informasiya texnologiyalarından hərtərəfli istifadə etməyə nail olmaq lazım gəlir.

Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda informasiyalaşdırma anlayışına belə tərif verilir: "İnformasiyalaşdırma informasiya ehtiyatlarının formalaşdırılması, təqdim edilməsi, istifadə olunması əsasında dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının təşkilati, hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların və vətəndaşların informasiya tələbatlarının və bu sahədəki hüquqlarının təmin edilməsində optimal şəraitin

yaradılması üçün təşkilati, sosial və elmi-texniki prosesdir".

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilir: "Sənəd – informasiyanın mətn, səsyazma və təsvir formasında qeydə alınan, müəyyən zaman və məkan daxilində informasiyanın verilməsi və ya qorunması məqsədini daşıyan obyektdir".

Resurs müxtəlif vəsaitlərin ehtiyatı, mənbəyi deməkdir. Müasir cəmiyyətdə maddi, xammal, enerji, əmək və maliyyə resursları ilə yanaşı, informasiya resursları da mövcuddur. İnformasiya resurslarından başqa, istənilən resurs işləndikcə yox olur. Məsələn, yanacaq yanıb qurtarır, maliyyə vəsaiti xərclənir və s. İnformasiya resursu isə "bitib tükənmir", ondan çoxlu sayda istifadə etmək mümkündür. Belə informasiya resurslarından biri də sosial-siyasi informasiya resurslarıdır.

Bakı Dövlət Universiteti, Kitabxanaçılıq-informasiya fakültəsində biblioqrafik fənlərin tədrisində "Sosial-siyasi informasiya resursları" fənninin xüsusi yeri vardır. Bu fənnin tədrisi ali təhsilli kitabxanaçı-biblioqraf kadrların hazırlanmasında mühüm yer tutur.

Sosial-siyasi informasiya resursları sosial-siyasi elmlərin inkişafı ilə əlaqədardır. Sosial siyasi elmlər dedikdə-fəlsəfə, tarix, dövlət və hüqüq, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, pedaqogika, psixologiya, dilçilik, iqtisadiyyat, və s. kimi elm sahələri nəzərdə tutulur. Sosial-siyasi elmlər hazırda müstəqillik şəraitində yeni istiqamətdə öyrənilir. Dəqiq və texniki elmlərdən fərqli olaraq cəmiyyətin yeniləşməsi, inkişafı ilə əlaqədar olaraq sosial-siyasi resurslar da dəyişir.

Ona görə də adlarını qeyd etdiyimiz sosial-siyasi elmlər yerli şəraitə uyğun olaraq öyrənilir, tədris olunur. Sosial-siyasi informasiya resurslarının əsas fərqli cəhətlərindən biri odur ki, cəmiyyətdə olan yeniləşmə sosial-siyasi resursun məzmununa da təsir göstərir. Ona görə də sosial-siyasi elmlər üzrə ədəbiyyatın məzmunu dəyişdikdə sosial-siyasi biblioqrafiyanın yeni əsaslar üzrə yaradılması da lazım gəlir.



Ümumi biblioqrafiyanın ayrı-ayrı sahələrində olduğu kimi sosial-siyasi biblioqrafiyanın həmçinin yaranması tarixi vardır. Sosial-siyasi biblioqrafiyanın yaranması ilk növbədə sosial-siyasi ədəbiyyatın nəşri ilə əlaqədardır. Çünki biblioqrafiya hər bir elm sahəsində mövcud olan ədəbiyyat əsasında yaranır. Ədəbiyyat olmadan biblioqrafiya ola bilməz. Ona görə də sosial-siyasi ədəbiyatın biblioqrafiyası kompleks şəkildə sosial-siyasi elmlər üzrə ədəbiyyat nəşrinin öyrənilməsinə köməklik göstərir.

Sosial-siyasi informasiya resursları fənnini tələbələrə tədris etməklə Azərbaycanda gedən çox mühüm sosial-siyasi, iqtisadi dəyişikliklərlə, müstəqilliyimizə yenidən qayıtmağımızla bağlı vəzifələri həyata keçirmək, əsaslı elmi və ümumpeşə biliklərinin məqsədyönlü əməli tətbiqi bacarığına yiyələnməklə öyrədilməsi sayəsində geniş profilli mütəxəssislərin hazırlanması təmin edilir. Tələbələrə müasir təşkilati məsələlərin, ən mühüm biblioqrafik fəaliyyət və biblioqrafiyaşünaslıq sahələrinin məzmun və vəzifələrinin, biblioqrafik elmin və təcrübənin təkmilləşdirilməsi istiqamətlərinin izah olunması da vacib hesab edilir.

Tələbələr bu fənni öyrənməklə sosial-siyasi informasiya resursları biblioqrafiyalaşdırma obyekti kimi, sosial-siyasi məzmunlu resurslarda sənəd kütləsi və axını, sosial-siyasi informasiya resursları üzrə tələbatçılar, sosial-siyasi informasiya resurslarının yaranması və inkişafı, sosial-siyasi informasiya resursları üzrə ilkin mənbələr haqqında bibliklərə yiyələnirlər. Onlar bu fənn vasitəsilə Azərbaycanın görkəmli siyasi və dövlət xadimlərinin əsərlərinə dair informasiya resursları, fəlsəfəyə dair informasiya resurslarının ümumi xarakterli biblioqrafik mənbələrdə əks olunması, tarix elminə həsr olunmuş mövzu xarakterli biblioqrafik informasiya resursları, iqtisadiyyat üzrə ümumi xarakterli biblioqrafik informasiya resursları, dövlət və hüquqa dair informasiya resursları, pedaqogika üzrə informasiya resursları, dilçilik üzrə informasiya resursları, dövlət biblioqrafiya orqanlarında sosial-siyasi informasiya resurslarının əks olunması və s. biliklər əldə edirlər.Bu fənnin tədrisində biblioqrafik fəaliyyətin tərkib hissələrindən olan

sosial-siyasi informasiya resurslarının tərtibi metodikası və kitabxanada sosial-siyasi elmlər üzrə biblioqrafik xidmətin təşkili prosesləri haqqında biliklərə də yiyələnirlər.

Kitabxanaçılıq-informasiya təhsilində xüsusi yeri olan sosial-siyasi informasiya resursları fənninin tədrisində bu sahəyə dair bir sıra fundamental biblioqrafik göstəricilərin ayrıca mövzu kimi keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Məsələn, "Azərbaycan kitabı" göstəricisində sosial-siyasi informasiya resursunun əks olunması, "Heydər Əliyev: Biblioqrafik məlumat kitabı" ən mühüm informasiya resursudur, "Heydər Əliyev və Azərbaycan elmi" adlı informasiya resursu haqqında, "Azərbaycan biblioqrafiyasının biblioqrafiyası" göstəricisində sosial-siyasi informasiya resurslarının əks olunması və s. Müasir dövrdə cəmiyyətin informasiyalaşdırılması biblioqrafik məlumatın dolğunluğunu, ardıcıllığını və operativliyini daha da artırmağı tələb edir. Buna görə də ənənəvi nəşrlərlə yanaşı, avtomatlaşdırılmış sistemlərin yaradılması, elektron nəşrlərin hazırlanması da dövrün zəruri şərtlərindədir. Fənnin tədrisində bu mövzu ilə əlaqədar sosial-siyasi resurslarının informasiya təminatında müasir texnologiyaların tətbiqinə aid ayrıca mövzu salınmışdır.

"Biblioqrafiyaşünaslıq" kursunun əsas nəzəri müddəaları və "Sosial-siyasi ədəbiyyatın biblioqrafiyası" fənninin əsasında yaradılmış "Sosial-siyasi informasiya resursları fənni – mühazirə və seminar məşğələləri formasında tədris olunur və imtahanla nəticələnir.

Sahəvi biblioqrafik kursun tədrisi ali təhsilli kitabxanaçı-biblioqraf kadrların müxtəlif kitabxanalarda oxuculara müasir milli tələblər və beynəlxalq standartlar səviyyəsində biblioqrafik xidmət göstərməyi bacaran peşəkar biblioqraf kimi hazırlanmalarını təmin edir.

Kitabxanaçılıq-informasiya fakültəsində sahəvi biblioqrafiya fənni kimi tədris edilməsinə baxmayaraq "Sosial-siyasi informasiya resursları" ixtisası üzrə dərslik və dərs vəsaiti olmamışdır.



# I FƏSİL

## 1.1. SOSİAL-SİYASI İNFORMASİYA RESURSLARI BİBLİOQRAFİYALAŞDIRMA OBYEKTİ KİMİ

Sosial-siyasi ədəbiyyat sosial siyasi elmlərin inkişafı ilə əlaqədardır. Sosial siyasi elmlər dedikdə – fəlsəfə, tarix, dövlət və hüquq, pedaqogika, dilçilik, iqtisadiyyat və s. kimi elm sahələri nəzərdə tutulur. Sosial-siyasi elmlər SSRİ dövründə elmi-tədqiqat müəssisələri, idarə və təşkilatları əsasında öyrənilib tədris olunurdusa, hal-hazırda müstəqillik şəraitində yeni istiqamətdə öyrənilir. Sosial-siyasi elmlər dəqiq və texniki elmlərdən fərqli olaraq cəmiyyətin yeniləşməsi, inkişafı ilə əlaqədar olaraq dəyişir. Adlarını qeyd etdiyimiz sosial-siyasi elmlər yerli şəraitə uyğun olaraq öyrənilir, tədris olunur. Sosial-siyasi ədəbiyyatın əsas fərqli cəhətlərindən biri odur ki, cəmiyyətdə olan yeniləşmə sosial-siyasi ədəbiyyatın məzmununa da təsir göstərir. Ona görə də sosial-siyasi elmlər üzrə ədəbiyyatın məzmunu dəyişdikdə sosial-siyasi biblioqrafiyanın yeni əsasları üzrə yaradılması da lazım gəlir. Sosial-siyasi ədəbiyyatın yaradılması qeyd etdiyimiz kimi, sosial-siyasi elmlərin inkişafı ilə əlaqədardır.

Bu səbəbdən də sosial-siyasi ədəbiyyatın nəşrinin bir sıra ümumi məsələləri var. Onlardan birincisi sosial-siyasi elmlərin inkişafı ilə əlaqədar fəaliyyət göstərən elmi müəssisələri öyrənir. Elmi müəssisələr dedikdə başqa respublikalarda olduğu kimi ölkəmizdə yaranmış bir sıra elmi-tədqiqat müəssisələri nəzərdə tutulur. Məsələn, Azərbaycan Respublikası EA-nın tabeliyində fəaliyyət göstərən Fəlsəfə və Hüquq İnstitutunu, Elmi-Tədqiqat Tarix İnstitutunu, Elmi-Tədqiqat Arxeologiya və Etnoqrafiya İnstitutunu, İqtisadiyyat İnstitutunu və s. göstərmək olar.

Bu institutlarla yanaşı sosial-siyasi ədəbiyyatın yaradılmasında müxtəlif universitetlərin fəlsəfə, iqtisadiyyat, politolo-

giya və s. kafedraları ilə əlaqədar tarix fakültəsi, hüquq fakültəsi də yaxından iştirak edir. Bu kimi elmi müəssisələr çap olunmuş sosial-siyasi xarakterli elmi ədəbiyyatın, tədris ədəbiyyatının, metodiki ədəbiyyatın yaradılmasında iştirak edir.

Sosial-siyasi ədəbiyyatın biblioqrafiyasında bu kimi elmi müəssisələrin çap məhsulları əsas götürülür. Sosial-siyasi ədəbiyyatın nəşrinin ümumi məsələlərindən biri də sosial-siyasi ədəbiyyatı çap edən nəşriyyatın fəaliyyətini öyrənir. Sosial-siyasi ədəbiyyat müxtəlif nəşriyyatlar tərəfindən çap olunur. Məsələn, Elm nəşriyyatı, Maarif nəşriyyatı, Gənclik nəşriyyatı, Azərbaycan nəşriyyatı və s. nəşriyyatlar tərəfindən çap olunur. Bu nəşriyyatlar fəaliyyətinə və profilinə uyğun olaraq ədəbiyyatı çap edir. Məsələn, "Elm" nəşriyyatı akademiyanın, elmi müəssisələrin çapa hazırladığı elmi ədəbiyyatı çap edir. "Maarif" nəşriyyatı isə sosial-siyasi elmlərin ayrı-ayrı sahələri üzrə dərslikləri çap edir. Göründüyü kimi nəşriyyatlar ixtisaslaşmış nəşriyyat kimi ədəbiyyatın nəşrini müxtəlif istiqamətdə həyata keçirir. Sosial-siyasi ədəbiyyatı çap edən nəşriyyatların sahəvi biblioqrafiyanın inkişafında xüsusi yeri var. Bu da biblioqrafiyanın oxucular üçün əhəmiyyətini artırır.

Sosial-siyasi ədəbiyyat növlərə və tiplərə bölünür. Növlər dedikdə, sosial-siyasi xarakterli ədəbiyyatın formal əlamətlərə görə müəyyənləşməsidir. Məsələn, kitab, kitabça, atlas, dövri mətbuat və s. kimi növdə nəşr olunmasına görə fərqlənir. Sosial-siyasi ədəbiyyatın növləri dedikdə, ilk növbədə çap məhsullarının həcminə görə bir-birindən fərqləndirilməsi başa düşülür. Sosial-siyasi ədəbiyyatın tiplərə bölünməsi onun məqsəd və oxucu istiqamətindən asılıdır. Məqsəd və oxucu istiqaməti ədəbiyyatın nə məqsədlə və kimlər üçün çap olunduğunu müəyyənləşdirməyə kömək edir. Deməli, ədəbiyyatın tiplərə bölünməsi onun məzmununun öyrənilməsi ilə əlaqədardır. Bu cəhətdən sosial-siyasi ədəbiyyatın aşağıdakı tipləri var:

1. Əsərlər külliyyatları nəşri. Əsərlər külliyatı dedikdə görkəmli siyasət və dövlət xadimlərinin əsərlərinin külliyyat



halında nəşri nəzərdə tutulur. Bu cəhətdən görkəmli siyasi və dövlət xadimi, ümummilli lider Heydər Əliyevin 46 cildliyi diqqəti cəlb edir. Əsərlər külliyyatının nəşrinin bir sıra xüsusiyyətləri vardır. Əsərlər külliyyatı tərtib edilərkən həmin görkəmli xadimin bütün əsərləri, məruzələri, çıxışları, nitqləri, bütün arxivi əsas götürülür. Əsərlər və digər sənədlər nəşr tarixinə görə sistemləşdirilir və həyata keçirilir. Əsərlərin sistemləşdirilməsində siyasi dövlət xadimlərinin fəaliyyəti əsas götürülməklə bütün əsərlər məntiqi ardıcıllıqla qruplaşdırılır.

Külliyyatın nəşri haqqında oxuculara müxtəlif məlumatları vermək üçün I cildə geniş giriş yazılır. Giriş hissəsində əsərlər külliyyatının daxili quruluşu, əsərlərin müəyyən dövrlər üzrə çap olunması və b. məlumatlar qeyd edilir.

2. Sosial-siyasi ədəbiyyatın nəşr tipindən biri də elmi ədəbiyyatın nəşridir. Elmi ədəbiyyat – elmi-tədqiqat institutlarının həyata keçirdiyi elmi-tədqiqat işlərinin nəticələri hesab olunur. Ona görə də elmi ədəbiyyat öz-özlüyündə 2 yerə bölünür: 1) Ümumiləşdirici xarakter daşıyan elmi-tədqiqat əsərləri. Məsələn, 13 cildlik "Ümumdünya tarixi", 12 cildlik "Böyük Vətən müharibəsi tarixi", 3 cildlik "Azərbaycan tarixi" və s. nəşrləri göstərmək olar. Ümumiləşdirici xarakter daşıyan tədqiqat əsərləri elmi müəssisələrin kollektiv müəllifləri tərəfindən çap olunur. Ümumiləşdirici xarakter daşıyan tədqiqat əsərlərinə misal olaraq müxtəlif elmlərin geniş dövrlə əlaqədar olaraq tarixini, inkişafını göstərmək olar. 2) Ümumiləşdirici xarakter daşıyan tədqiqat əsərləri ayrı-ayrı elmi monoqrafiyaların çapa hazırlanmasında ilkin məlumatları özündə əks etdirən əsas mənbələr hesab olunur. Elmi-tədqiqat əsərlərinin nəşrindən danışarkən qeyd etməliyik ki, sosial-siyasi xarakterli monoqrafiyaların nəşri də alimlərin elmi fəaliyyətində əsas yer tutur. Məsələn, Azərbaycan tarixinin öyrənilməsinin elmi problemlərindən biri kimi görkəmli tarixçimiz Z.Bünyadovun "Atabəylər dövləti" adlı monoqrafiyası meydana çıxır. Atabəylər dövləti mövzusu Azərbaycan tarixində özünəməxsus yer tutur. Əsas məsələ odur ki, ayrı-ayrı monoqra-

fiyaların çap olunmasına ümumiləşdirici xarakter daşıyan tədqiqat əsərləri köməklik göstərir.

3. Sosial-siyasi ədəbiyyatın mühüm nəşr tiplərindən biri də tədris ədəbiyyatının nəşridir. Tədris ədəbiyyatına dərsliklər, dərs vəsaitləri, proqramlar və metodik ədəbiyyat daxildir. Dərsliklərin çapı sosial-siyasi elmlərin dəyişməsi, yeniləşməsi və s. ilə əlaqədardır. Ona görə də dərsliklər hazırlanarkən ilk olaraq dərsliklərin proqramları hazırlanır. Hər bir dərslik onun proqramı əsasında tədris edilir. Əsas fərqli cəhət odur ki, onlar təkrarən çap olunub yayılır. Tədris ədəbiyyatı sosial-siyasi elmlər üzrə ədəbiyyatın öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən də, hər bir dərsliyin proqramında mövzu ilə əlaqədar ədəbiyyatın biblioqrafik siyahısı verilir. Ədəbiyyat dərsliklərin ayrı-ayrı bölmələrinin, paraqraflarının öyrənilməsində oxuculara istiqamət verir. Bu cəhətdən metodik ədəbiyyatların oxucular üçün də əhəmiyyəti çoxdur. Metodik ədəbiyyat ən çox qiyabiçi tələbələr üçün nəzərdə tutulur. Metodik ədəbiyyat yoxlama işlərinin, tapşırıqların yazılmasında oxuculara istiqamət verir. Ona görə də sosial-siyasi xarakterli ədəbiyyat üçün oxucu sorğularının ödənilməsində tədris ədəbiyyatından geniş istifadə edilir.

4. Sosial-siyasi ədəbiyyatın mühüm nəşr tiplərindən biri də istehsalat ədəbiyyatı nəşridir. İstehsalat ədəbiyyatı istehsalatda çalışan oxucular üçün nəzərdə tutulmuşdur. Hüquqşünasın məlumat kitabı, kitabxanaçının məlumat kitabı və s.

5. Sosial-siyasi ədəbiyyatın nəşr tiplərindən biri də elmi-kütləvi ədəbiyyatların nəşridir. Elmi-kütləvi ədəbiyyat sosial-siyasi elmlərin ayrı-ayrı sahələri üzrə olan yenilikləri, yeni kəşfləri haqqında müasir oxuculara geniş məlumat vermək məqsədilə çap olunur. Elmi-kütləvi ədəbiyyat çox sadə və kütləvi şəkildə çap olunur, çünki onun oxucu istiqaməti elmi-kütləvi xarakter daşıyır.

6. Sosial-siyasi ədəbiyyatın nəşr tiplərindən biri də məlumat nəşrləridir. Məlumat nəşrlərinə ensiklopediyalar, lüğətlər, təqvimlər, məlumat kitabı və s. daxildir. Sosial-siyasi xarakterli



məlumat nəşrlər sistemində ensiklopediyaların xüsusi yeri var. Ensiklopediyalar oxucu sorğularının ödənilməsində mühüm əhəmiyyətə malikdir. Ensiklopediyalar ayrı-ayrı elmlərin tarixinə dair, görkəmli alimlərin fəaliyyətinə dair, onların əsərlərinin nəşr tarixinə dair, müxtəlif məsələlər üzrə müxtəlif sorğuların ödənilməsində əsas məlumat nəşri hesab olunur. Ona görə də ensiklopediyada məqalələrin mövzusuna dair ədəbiyyatın biblioqrafik siyahısı verilir. Ensiklopediyalar kitabxananın soraq biblioqrafiya xidmətində mühüm vasitə kimi əhəmiyyət kəsb edir. Bütün ensiklopediyalar tərtib edilərkən biblioqrafik prinsiplərə əsaslanır. Yəni ensiklopediyada bütün mövzular yuxarıdakı qaydada verilir. Ona görə də ensiklopediyadan istifadə edərkən, hər hansı məlumatı axtararkən onun tərtibi üsulları, daxili quruluşu əsas götürülür.

7. Sosial-siyasi ədəbiyyatın nəşr tipologiyasında rəsmi dövlət sənədlərinin nəşri xüsusi yer tutur. Rəsmi dövlət sənədlərinə Nazirlər Kabinetinin, Milli Məclisin, respublika prezidentinin qərarları, əmrləri, fərmanları, sərəncamları daxildir. Müxtəlif oxucu qrupları ardıcıl olaraq rəsmi dövlət sənədlərini öyrənirlər. Rəsmi dövlət sənədlərini özündə əks etdirən biblioqrafik xarakterli mənbələr daim oxucu sorğularının öyrənilməsinə kömək edir. Onu da qeyd edək ki, rəsmi dövlət sənədləri müxtəlif məcmuələrdə, bülletenlərdə çap olunur.

## 1.2. SOSİAL-SİYASİ İNFORMASİYA RESURSLARI ÜZRƏ TƏLƏBATÇILAR

Sosial-siyasi resurslarla əlaqədar olaraq əsas məsələlərdən biri oxucu tipologiyasının öyrənilməsidir. Oxucu tipologiyası sosial-siyasi xarakterli resursun öyrənilməsi ilə bağlıdır. Çünki sosial-siyasi ədəbiyyat müxtəlif oxucu qrupları tərəfindən öyrənilir. Sosial-siyasi ədəbiyyatın bir sıra əhəmiyyətli cəhətləri vardır. Onun əhəmiyyətli cəhətlərindən ən başlıcası odur ki, sosial-siyasi ədəbiyyat cəmiyyəti öyrənməsinə, respublikanın inkişafı ilə əlaqədar olaraq müstəqillik şəraitində onun daxili və xarici siyasətinin öyrənilməsində mühüm vasitədir. Sosial-siyasi ədəbiyyat oxucuların siyasi cəhətdən inkişafına, onlarda informasiya, məlumatların zənginliyinə müsbət təsir göstərir. Sosial-siyasi ədəbiyyatı müxtəlif oxucu qrupları mütaliə edir. Ona görə də sosial-siyasi ədəbiyyatı mütaliə edən tələbatçılar müxtəlif məqsədlə sosial-siyasi ədəbiyyatı öyrənməli olur.

Bu cəhətdən də sosial-siyasi ədəbiyyatın tələbatçıları müxtəlif qruplara və tiplərə bölünür. Sosial-siyasi ədəbiyyat oxucuları ədəbiyyatla əlaqədar olaraq aşağıdakı qruplara bölünür.

I. Sosial-siyasi ədəbiyyatın ***kollektiv tələbatçıları*** – kollektiv tələbat dedikdə ayrı-ayrı elmi müəssisələr, təşkilatlar, həmkarlar təşkilatları, gənclər təşkilatları və s. nəzərdə tutulur. Elmi müəssisələrin və təşkilatların oxucuları sosial-siyasi ədəbiyyatı öyrənərkən onları elmi-tədqiqat işlərinə, ictimai işlərə köməklik məqsədilə öyrənirlər. Kollektiv tələbatçılar sosial-siyasi ədəbiyyata müraciət edərkən ilk növbədə sosial-siyasi elmlərin müasir inkişaf yollarını, ayrı-ayrı təşkilatların fəaliyyətini, təşkilatlar arasındakı siyasi, iqtisadi əlaqələri öyrənirlər. Bu kimi müxtəlif məqsədlərlə sosial-siyasi ədəbiyyat oxucularının mütaliəsində sosial-siyasi ədəbiyyat xüsusi yer tutur. Kollektiv tələbatçıların sorğuları müxtəlif xarakter daşıyır. Məsələn, elmi müəssisələr dedikdə – sosial-siyasi elm üzrə fəaliyyət



göstərən elmi-tədqiqat institutları nəzərdə tutulur. Çünki elmi-tədqiqat institutları sosial-siyasi elmlərin ayrı-ayrı sahələri üzrə apardıqları elmi tədqiqatların daha yüksək səmərəliliyini təşkil edib həyata keçirməli olurlar.

II. ***Fərdi tələbatçılar*** – kollektiv tələbatçılardan fərli olaraq fərdi tələbatçıların sosial-siyasi ədəbiyyata olan marağı onların məşğul olduqları müxtəlif sahələrlə əlaqədardır. Məsələn, elmi işçilər, müəllimlər, rəhbər işçilər, mühazirəçilər, təbliğatçılar fərdi qaydada maraq göstərirlər. Fərdi tələbatçıların sosial-sosial ədəbiyyata olan marağı onların elmi işlərə siyasi tərbiyə işlərinə köməklik göstərir. Beləliklə də fərdi tələbatçılar fərdi qaydada sosial-siyasi ədəbiyyatı öyrənirlər. Fərdi tələbatçılar sosial-siyasi ədəbiyyatın məzmununa yeni cəmiyyətin, quruluşun qayda-qanunlarını öyrənmək məqsədilə ən çox yeni ədəbiyyatı öyrənirlər. Bunu respublikamızın timsalında göstərmək olar.

Sosial-siyasi ədəbiyyatın tələbatçıları yuxarıda göstərdiyimiz qruplarla yanaşı müxtəlif tiplərə bölünür. Sosial-siyasi ədəbiyyatın oxucularının məqsəd və oxucu istiqaməti ilə əlaqədar olaraq ədəbiyyatı öyrənmək məqsədilə tipologiya üzrə müəyyənləşdirilir ki, bu da aşağıdakılardır.

1. Sosial-siyasi ədəbiyyatın ***peşəkar hazırlıqlı oxucuları.*** Peşəkar hazırlıqlı oxucular dedikdə sosial-siyasi elmlər üzrə məşğul olan elmi işçilər, aspirantlar həmçinin ali məktəblərdə sosial-siyasi elmləri tədris edən müəllimlər, doktorantlar nəzərdə tutulr. Bu kimi oxucular sosial-siyasi elmlərin daimi oxucuları hesab olunur. buna görə də sosial-siyasi ədəbiyyatın daimi oxucuları olan aimlər sosial-siyasi elmlər üzrə elmi ədəbiyyatı, tədris ədəbiyyatı mütaliə edr, sosial-siyasi ədəbiyyatın peşəkar hazırlıqlı oxucularının mütaliə dairəsi daha genişdir. Onların mütaliəsində sosial-siyasi ədəbiyyat mühüm yer tutur.

2. ***Praktiki oxucular*** dedikdə müxtəlif ictimai təşkilatların ayrı-ayrı sahələri üzrə məşğul olan təbliğatçılar, mühazirəçilər nəzərdə tutulur. Praktiki oxucular peşəkar hazırlıqlı oxuculardan fərqli olaraq sosial-siyasi ədəbiyyatı praktiki cəhətdən

öyrənirlər. Praktiki oxucular peşəkar hazırlıqlı oxuculardan fərqli olaraq sosial-siyasi ədəbiyyatı təcrübi cəhətdən öyrənməklə müxtəlif sahələrdən özlərinin təcrübi cəhətdən bacardıqlarını nümayiş etdirirlər. Orta məktəblərdə tarix, hüquq fənnlərini tədris edən müəllimlər.

3. ***Siyasi tərbiyə işlərilə məşğul olan oxucular*** dedikdə hüquqşünaslar, mətbuat işçiləri, hərbi hissələrin siyasi rəhbərləri və s. nəzərdə tutulur. Buradan göründüyü kimi sosial-siyasi ədəbiyyatın öyrənilməsi müxtəlif tələbatçıların sorğuları ilə əlaqədardır. Tələbatçılar sosial-siyasi elmlər üzrə ədəbiyyatın nəşr tiplərilə əlaqədar olaraq onların sorğularının sosial-siyasi ədəbiyyatla əlaqələndirilməsi həm ədəbiyyatın, həm də oxucuların tipologiyaya bölünməsində əsas götürülür.



## 1.3. SOSİAL-SİYASİ İNFORMASİYA RESURSLARININ YARANMASI VƏ İNKİŞAFI

Ümumi biblioqrafiyanın ayrı-ayrı sahələrində olduğu kimi sosial-siyasi biblioqrafiyanın da yaranması tarixi vardır. Sosial-siyasi biblioqrafiyanın yaranması ilk növbədə sosial-siyasi ədəbiyyatın nəşri ilə əlaqədardır. Çünki biblioqrafiya hər bir elm sahəsində mövcud olan ədəbiyyat əsasında yaranır. Ədəbiyyat olmadan biblioqrafiya ola bilməz. Ona görə də sosial-siyasi ədəbiyyatın biblioqrafiyası kompleks şəkildə sosial-siyasi elmlər üzrə ədəbiyyat nəşrinin öyrənilməsinə köməklik göstərir. bununla bərabər sosial-siyasi biblioqrafiya kitabxanaların biblioqrafik təminatına kömək etmək üçün həyata keçirilir.

Sosial-siyasi biblioqrafiyanın yaranması haqqında elmi fikir XX əsrin əvvəlində meydana gəlmişdir. Bu sahədə elmi fikrin irəli sürülməsində kitabxana işinə dair bir sıra kitabların müəllifi Əliəjdər Səidzadənin adı ilə bağlıdır. O, 1920-ci ildən sonra respublikada kitabxanaçılığına dair özünün elmi-nəzəri mülahizələrini söyləmişdir. Ə.Səidzadə 1922-ci ildə «Qızıl Şərq» jurnalının I nəşrində çap etdirdiyi məqaləsində yazmışdır ki, Azərbaycan dilində çap olunmuş bütün ədəbiyyatın ümumi biblioqrafiyasını yaratmağın vaxtı çatmışdır. Müəllifin bu fikri Azərbaycanda milli biblioqrafiyanın inkişafına təkan verən maraqlı mülahizə hesab olunur. O, həmin məqaləsində dövri mətbuat səhifələrində tənqid və biblioqrafiya şöbələrinin yaranmasını vacib hesab etmişdir. Bu sahədə müəllifin fikri sonrakı illərdə tənqid və biblioqrafiya şöbəsinin təşkil məsələlərinə güclü təsir göstərir. Sosial-siyasi biblioqrafiyanın sonrakı illərdə inkişafı və onun təşkili ildən-ilə genişlənib inkişaf etmişdir.

Qeyd etməliyik ki, sosial-siyasi biblioqrafiyanın yaranması və inkişafı sahəsində fəaliyyət göstərən mühüm kitabxanalardan biri İctimai Elmlər Akademiyasının İctimai kitabxanası tərəfindən həyata keçirilən biblioqrafik işlərin inkişafı ilə

əlaqədardır. İctimai elmlər kitabxanası ictimai elmlərin müxtəlif sahəsi üzrə çap olunmuş ədəbiyyat əsasında yaranmışdır. İctimai elmlər kitabxanası İctimai Elmlər Akademiyasının elmi işçilərinə xidmət edən əsas kitabxana olmuşdur. Bu kitabxananın fondunda ictimai-siyasi ədəbiyyat əsas yer tutur. Ona görə də kitabxana ictimai elmlərin ayrı-ayrı sahələri üzrə məşğul olan oxuculara biblioqrafik xidmətin təşkili sahəsində xüsusi xidmət göstərir. İctimai Elmlər Kitabxanası oxuculara biblioqrafik xidmətin daha da aşılanması məqsədilə biblioqrafik göstəricilər çap etmişdir.

Kitabxananın çap etdirdiyi biblioqrafik göstəricilər xaricdə SSRİ-də çap olunmuş yeni ədəbiyyatın öyrənilməsində oxucular üçün mühüm əhəmiyyətli biblioqrafik göstəricilər olmuşdur. Məsələn, tarix elmi üzrə yeni sovet ədəbiyyatı, tarix üzrə yeni xarici ədəbiyyat, iqtisadiyyat üzrə yeni sovet ədəbiyyatı, iqtisadiyyat üzrə yeni xarici ədəbiyyat, fəlsəfə üzrə və s. adda cari elmi kütləvi biblioqrafik göstəricilər çap etdirir. Kitabxananın çap etdirdiyi bu göstəricilər kitabxana-biblioqrafik işlərini həyata keçirməkdə xaricdə çap olunmuş yeni sosial-siyasi ədəbiyyatın nəşrləri haqqında biblioqrafik məlumatlar və oxuculara çatdırılmağa başlayır. İctimai elmlər kitabxansının bu sahədəki fəaliyyəti cari elmi-köməkçi biblioqrafiyanın yaranmasına da mühüm rol oynamışdır. Çünki oxucular keçmişdə çap olunan ədəbiyyatla yanaşı, ən çox cari nəşrlər haqqında biblioqrafik məlumatlar öyrənmək üçün cari nəşrə müraciət edirlər.

Sosial-siyasi biblioqrafiyanın inkişafı 1969-cu ildən daha geniş elmi təşkil olunub həyata keçirilməyə başlamışdır. Bu dövrdə sosial-siyasi biblioqrafiyanın inkişafı sahəsində ən mühüm əlamətdar hadisələrdən biri ictmai elmlər üzrə elmi-informasiya institutlarının yaranması olmuşdur. Elmi-informasiya institutlarının yaranması sosial-siyasi elmlərin kompleks elmlərdən tarix, iqtisadiyyat, dövlət və hüquq və s. üzrə elmi-köməkçi retrospektiv biblioqrafik göstəricinin və eləcə də elmi-köməkçi cari biblioqrafik göstəricinin yaranması məhz bu insti-



- 19278 -

tutun adı ilə bağlıdır. Elmi-informasiya institutunun elmi-tədqiqat müəssisələri hesab olunur. Ona görə də elmi informasiya institutunda sosial-siyasi elmlərin ayrı-ayrı sahələri üzrə məşğul olan tarixçilər, iqtisadçılar, filosoflar bu institutun ətrafında birləşərək sosial-siyasi elmlərin inkişafına köməklik etməlidir. Elmi-informasiya institutunu sosial-siyasi ədəbiyyatın biblioqrafiyasında EHM köməkliyi ilə biblioqrafiyalaşdırma işləri elmi cəhətdən təşkil edə bilmişdir.

Sosial-siyasi biblioqrafiyanın yaranması və inkişafı tarixindən danışarkən bu sahədə əsas inkişaf dövrü 1969-cu ildən başlanır. Həmin tarixdə ölkədə sosial-siyasi biblioqrafiyanın təşkili məqsədilə sosial-siyasi elmlər üzrə elmi-informasiya institutu fəaliyyətə başlamışdır. Bu İnstitut onun fondunda toplanmış zəngin ədəbiyyat əsasında sosial-siyasi biblioqrafiyanın təşkilini elmi əsaslarla yaratmağa başlamışdır. İnstitutun biblioqrafik fəaliyyətində sosial-siyasi ədəbiyyatın biblioqrafiyası əsas yer tutur. Biblioqrafiyalaşdırma prosesində sosial-siyasi ədəbiyyatın cari elmi-köməkçi, retrospektiv xarakterli biblioqrafik göstəricilərinin yaranmasında həyata keçirilən əsas referativ işləri nəzərdə tutur. Referatlaşdırma isə sosial-siyasi xarakterli elmi ədəbiyyata referatın verilməsi kimi mühüm biblioqrafik proses həyata keçirir. Bu istiqamətdə biblioqrafik işlər tələbatçıların biblioqrafik təminatında mühüm əhəmiyyət kəsb etmişdir.

Elmi-informasiya İnstitutu tələbatçıların biblioqrafik təminatına köməklik məqsədilə aşağıdakı biblioqrafik göstəriciləri hazırlayıb çap etdirmişdir. Məsələn, fəlsəfə, tarix, arxeologiya, etnoqrafiya, dövlət və hüquq, iqtisadiyyat elmşünaslıq və s. mövzularda cari elmi-köməkçi biblioqrafik göstəriciləri çap etmişdir. Bu biblioqrafik resursların mövzularından göründüyü kimi onun hər biri sosial-siyasi elmlərin müxtəlif sahələrində çalışan elmi işçilərin müxtəlif xarakterli sorğularının ödənilməsində mühüm biblioqrafik mənbələr hesab olunur. Bu biblioqrafik göstəricilərdə ədəbiyyat sosial-siyasi elmlərin ayrı-ayrı sahələri üzrə mövzuları, problemləri üzrə ədəbiyyatı özündə əks etdirmişdir.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Biblioqrafik göstəricilərdə ədəbiyyatın biblioqrafik təsviri dəqiq olaraq həyata keçirilir. Çünki biblioqrafik təsvirin tam və dəqiq verilməsi oxucu sorğularının ödənilməsində mühüm amil hesab olunur. Ona görə də biblioqrafik göstəricilər hər bir biblioqrafik məlumatın oxuculra çatdırılmasında operativlik vəzifəsini həyata keçirir.



## 1.4. SOSİAL-SİYASİ İNFORMASİYA RESURSLARI ÜZRƏ İLKİN MƏNBƏLƏR

Resurs müxtəlif vəsaitlərin ehtiyatı, mənbəyi deməkdir. Müasir cəmiyyətdə maddi, xammal, enerji, əmək və maliyyə resursları ilə yanaşı, informasiya resursları da mövcuddur. İnformasiya resurslarından başqa, istənilən resurs işləndikcə yox olur. Məsələn, yanacaq yanıb qurtarır, maliyyə vəsaiti xərclənir və s. İnformasiya resursu isə "bitib tükənmir", ondan coxlu sayda istifadə etmək mümkündür. Belə informasiya resurslarından biri də sosial-siyasi informasiya resurslarıdır.Sosial-siyasi informasiya resurslarının 2 növü var: 1. İlkin sosial-informasiya resursları, 2. İkinci dərəcəli sosial-siyasi informasiya resursları.

Sosial-siyasi informasiya resurslarının inkişafında çap olunmuş ilkin sənədlərin mühüm rolu vardır. Sosial-siyasi informasiya resurslarına dair çap olunmuş ilkin mənbələrdən Ümummilli lider Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin 46 cildini qeyd etmək lazımdır (1997-2013). Nəşrin buraxılışına məsul Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevdir.

İlkin sənəd nümunələrindən olan professor Zahid Qaralovun "İdeologiya və mənaviyyat" kitabı 484 səhifədən ibarət 2008-ci ildə "Hüquq ədəbiyyatı" nəşriyyatında çapdan buraxılmışdır. Müəllif, kitabı tarixi şəxsiyyət, böyük ideoloq, ictimai-siyasi xadim Heydər Əliyevin anadan olmasının 85 illiyinə ithaf etmişdir.

Türkiyənin Dialoq-Avrasiya Platformunun "DA Yayıncılık" nəşriyyatı Hidayət Orucovun "Heydər Əliyev və Azərbaycanda milli siyasət" kitabını türk dilində nəşr etdirmişdir. Türkdilli oxuculara ərməğan olunan kitab müəllifin "Ekiz qardaşıma" adlı ön sözü ilə açılır. Oxucuya xitab olan ilk sözdə Azərbaycan - Türkiyə münasibətlərinin milli-mənəvi kökləri xatırlanıb, "Azərbaycanın sevinci - sevincimiz, kədəri - kədərimizdir"

deyən Atatürkün, “Biz bir millət, iki dövlətik” deyən Ulu öndər Heydər Əliyevin konseptual fikirləri istiqamətində hazırkı əlaqələrin bəzi aspektlərinə toxunulub.

İlkin sosial-siyasi informasiya resurslarından ayrı-ayrı elm sahələrinə dair çap olunmuş resursları göstərə bilərik. Məsələn. R.Mehdiyevin Fəlsəfə. Dərs vəsaiti. “Şərq-Qərb” nəşriyyatında 360 səhifədən ibarət 2010-cu ildə çap olunmuşdur.

Bu dərs vəsaitində mustəqil elmi fənn və insanların mənəvi fəaliyyət sahəsi olan fəlsəfənin sistemli şərhi, o cumlədən fəlsəfənin movzusu, onun metodları, məqsəd və vəzifələri, baza anlayışları, kateqoriyaları və cərəyanları haqqında geniş sohbət acılır. Kitabda fəlsəfəyə girişlə yanaşı, fəlsəfənin, o cumlədən Şərq fəlsəfəsinin tarixi, muasir fəlsəfənin əsasları, habelə tarix fəlsəfəsi və siyasi fəlsəfə şərh edilir. Qədim və orta əsrlər Azərbaycan fəlsəfəsinin problemləri, XIII–XX əsrlərdə Azərbaycan fəlsəfi fikrinin təşəkkulu ayrıca nəzərdən kecirilir. Nəşr tələbələr, muəllimlər, fəlsəfə problemləri ilə maraqlanan butun oxucular ucun nəzərdə tutulmuşdur. Kitabın ikinci nəşri ali məktəblərin muəllim və tələbə heyətinin xahişi ilə hazırlanmışdır. Kitab Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən ali məktəblər ucun dərs vəsaiti kimi tovsiyə olunmuşdur.

Tarixə dair Azərbaycan tarixi üzrə qaynaqlar. İkinci nəşr. Tərtibatçısı və redaktoru: tarix elmlər doktoru, professor, Əməkdar elm xadimi Süleyman Əliyarlıdır. Kitabda ən qədim çağlardan XIX əsrin 70-ci illərinə qədərki dövrü əhatə edən çox gərəkli sənədlər və təsviri yönümlü mətnlərdən seçmələr daxildir. 2004-cü ildə 400 səhifədən ibarət çap olunmuşdur. Tarixə dair başqa bir kitab Oqtay Əfəndiyevin "Azərbaycan Səfəvilər dövləti" kitabı 2007-ci ildə 344 səhifədən ibarət “Şərq-Qərb” nəşriyyatında çapdan çıxmışdır. Milli dövlətçilik tariximizin şanlı səhifələrini yaratmış, Bütöv Azərbaycanın sərhədlərini tarixiləşdirmiş, ana türkcəmizi dövlət səviyyəsinə qaldırmış Şah İsmail Xətai barədə maraqlı elmi monoqrafiyadır.



Bu kitab Azərbaycan xalqının tarixinin ən parlaq və möhtəşəm dövrünə, I Şah İsmayıl Xətainin yaratdığı Səfəvilər və yaxud Qızılbaşlar dövlətinin tarixinə həsr edilmişdir. Müəllif ilk növbədə farsdilli qaynaqlardan, o cümlədən nadir əlyazmalardan, həmçinin Avropa dillərində olan mənbə və tədqiqatlardan geniş surətdə faydalanaraq Səfəvilər dövlətinin təşəkkülü, siyasi tarixi, ictimai-iqtisadi quruluşu, idarə sistemi, ordu quruculuğu və s. məsələləri şərh etmiş, bu böyük dövlətin tarixində Azərbaycanın aparıcı rolunu işıqlandırmışdır.

Avropa İnsan Hüquqları Məhkəməsinin seçilmiş qərarları. III cild. «Zərdabi LTD» MMC Nəşriyyat Poliqrafiya müəssisəsi, 2007-ci il, 294 səhifədən ibarət kitab çap olunmuşdur.

Kitab Avropa Şurasının Azərbaycan Respublikasındakı Ofisi tərəfindən nəşr olunub. Redaktor: İntiqam Əliyev. Təqdim edilən toplu Avropa Şurasının Bakı Ofisinin Avropa İnsan Hüquqları Məhkəməsinin seçilmiş qərarlarının Azərbaycan dilinə tərcüməsi sahəsində oxucularına növbəti töhfəsidir. Vəsait praktika ilə məşğul olan hüquqşünaslar (hakimlər, vəkillər və hüquq mühafizə orqanlarının işçiləri və s.), insan hüquqlarının müdafiəsi və problemləri ilə məşğul olan qeyri-hökumət təşkilatlarının, dövlət orqanlarının nümayəndələri, həmçinin insan hüquqlarının müdafiəsi, tədrisi və təbliği ilə məşğul olan digər şəxslər üçün nəzərdə tutulub.

Pedaqogikaya aid çap olunmuş resurslar da xüsusi yer tutur. Nurəddin Kazımovun Tətbiqi pedaqogika “Çaşıoğlu” nəşriyyatında 2010-cu ildə çap olunub. Rzayev O.H, Məmmədov S.M, İsmayılov Ş.N. Təhsilin idarə olunmasının əsasları (dərs vəsaiti). Bakı, Mütərcim, 2010. Dəmirov A.H, Məmmədov S.M, İsmayilov Ş.N Yeni təlim texnologiyaları və müasir dərs. Bakı, 2007 və s.

İqtisadiyyat elmi də bu sahədə əsas sahələrdən biridir. Fuat Rəsulov və b. müəllifliyi ilə «İqtisadiyyatın əsasları» adlı dərs vəsaiti 200 səhifədən ibarət “Elm” nəşriyyatında 2004-cü ildə çapdan çıxmışdır. Kitabda iqtisadiyyata girişin, mikroiqtisadiyyat, makroiqtisadiyyat və beynəlxalq ticarətin əsas anlayış

və prinsipləri təqdim olunmuş, müasir iqtisadi biliklərin mənimsənilməsi üçün vacib hesab edilən iqtisadi kateqoriya, hadisə və qanunların şərhi verilmişdir. Dərs vəsaitində klassik və müasir iqtisadi nəzəriyyələrin başlıca tezislərinin, bazar iqtisadiyyatının əsas anlayışlarının, həmçinin iqtisadiyyatın tədrisi prosesində daha çox işlənən terminlərin izahına, iqtisadi fikir tarixindən seçmələrə, müzakirə üçün suallara, testlərə də geniş yer ayrılmışdır. Kitab qeyri-iqtisad ali məktəblərinin tələbələri, kolleclərin, liseylərin və orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri, habelə «İqtisadiyyata giriş» fənnini tədris edən müəllimlər üçün nəzərdə tutulmuşdur. Kitabdan iqtisadiyyatı müstəqil surətdə öyrənmək istəyənlər də istifadə edə bilər.

Kommersiya fəaliyyətinin əsasları adlı dərslik – 2010-cu ildə çap olunmuşdur. «Kommersiya fəaliyyətinin əsasları» dərslik iqtisad elmləri doktoru, professor Kərim Paşa oğlu Paşayevin rəhbərliyi və redaktəsi ilə çapdan çıxmışdır.

Abbasbəyli A.N. 584 səhifəlik " Dünya siyasəti kitabı (XX əsrin ikinci yarısı – XXI əsrin əvvələri"adlı dərsliyi 2011-ci ildə "Nurlar" Nəşriyyat Poliqrafiya Mərkəzində çapdan çıxmışdır. Dərslikdə yeni dövrün məzmununu müəyyənləşdirən amillər və dünya siyasətinin və inkişaf istiqamətləri açıqlanır, ümumdünya problemlərinə, qloballaşma proseslərinin mahiyyət və məzmununa aydınlıq gətirilir. Dərslik dünya siyasəti, dünya iqtisadiyyatı, hüquq, tarix və s. sahələr üzrə ixtisaslaşan ali məktəb tələbələri, magistrantlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

"Beynəlxalq cinayət hüququ və Azərbaycan Respublikasının cinayət qanunvericiliyi" adlı yeni dərslik nəşr olunmuşdur. Kitabı Azərbaycan Hüquqşünaslar Konfederasiyası (AHK) Almaniya Federal Ədliyyə Nazirliyinin Beynəlxalq Hüquq Əməkdaşlığı Fondu ilə birgə hazırlamışdır. 2012-ci ildə min tirajla nəşr olunmuş dərsliyin müəllifi, Bakı Dövlət Universitetinin hüquq fakültəsinin, beynəlxalq ümumi hüquq kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru Rahim Məmmədovdur.



Kitab Beynəlxalq cinayət hüququ və Azərbaycan Respublikasının cinayət qanunvericiliyi qarşılıqlı münasibətlərinin nəzəri və təcrübi problemlərinin təhlilinə həsr edilmişdir. Kitabda müasir beynəlxalq cinayət hüququnun mahiyyətinə dair konsepsiyalar, onun vəzifələri və sahəvi prinsipləri nəzərdən keçirilmişdir. Əməlin cinayət olmasını və onun törədilməsinə görə məsuliyyətin hədlərini müəyyən edən beynəlxalq ümumi hüququn yeni və müstəqil sahəsi kimi beynəlxalq cinayət hüququnun səciyyəvi xüsusiyyətləri araşdırılmışdır. Bununla yanaşı, Beynəlxalq cinayət hüququ və Azərbaycan Respublikasının cinayət qanunvericiliyinin qarşılıqlı münasibətlərinin təkmilləşməsinə yönəlmiş bir sıra təkliflər də kitabda əksini tapmışdır. Kitab beynəlxalq hüquqşünaslar, hüquq fakültəsinin müəllim və tələbələri, hakimlər, prokurorlar, habelə beynəlxalq cinayət hüququ ilə maraqlanan istənilən şəxslər üçün nəzərdə tutulmuşdur.

Haqqında bəhs etdiyimiz sosial-siyasi məzmunlu informasiyaya aid ilkin resurslar bu sahəyə dair ikinci dərəcəli informasiya resurslarının yaradılmasında mühüm rol oynamaqla yanaşı sahə mütəxəssislərinin informasiya təminatında əsaslı resurslar hesab olunur.

## 1.5. AZƏRBAYCANIN GÖRKƏMLİ SİYASİ VƏ DÖVLƏT XADİMLƏRİNİN ƏSƏRLƏRİNƏ DAİR İNFORMASİYA RESURSLARI

Azərbaycanın görkəmli siyasi və dövlət xadimlərinin əsərlərinin nəşri Azərbaycan Demokratik Cümhuriyyətinin yaradılması tarixi ilə əlaqədardır. Ona görə də Azərbaycan Demokratik Cümhuriyyətinin təşkilatçılarının həyat və fəaliyyətini onların əsərlərinin nəşri tarixləri öyrənilməsi müasir gənclik üçün siyasi cəhətdən olduqca əhəmiyyətlidir. Azərbaycan Demokratik Cümhuriyyətinin fəal təşkilatçıları özlərinin fəaliyyəti dövründə geniş siyasi işlər həyata keçirmiş, əsərlərinin nəşri və ayrı-ayrılıqda Azərbaycan tarixilə sıx surətdə bağlı olmuşdur. Ona görə də hər birinin əsərlərinin nəşri tarixi olduqca maraqlıdır. Qeyd etmək lazımdır ki, Azərbaycan Demokratik Cümhuriyyətinin təşkilatçıları, Azərbaycan mühacirləri özlərinin siyasi fəaliyyətilə bağlı olaraq əsərlərini xarici ölkələrdə və Azərbaycanda çap etdirmişdir. Bu cəhətdən Azərbaycanın görkəmli siyasi və dövlət xadimlərindən Əlimərdan bəy Topçubaşov «Azərbaycanın təşəkkülü», Adil xan Ziyadxanlının «Azərbaycan», Ceyhun Hacıbəylinin «İlk müsəlman Respublikası Azərbaycan», Yusif Vəzir Çəmənzəminlinin «Azərbaycan muxtariyyatı», «Biz kimik və nə istəyirik» və s. əsərlər bilavasitə Azərbaycan tarixilə əlaqədardır. Qeyd etmək lazımdır ki, yuxarıda adlarını qeyd etdiyimiz siyasi xadimlər əsərlərini yazarkən Azərbaycan tarixinin ilk mənbələri dərindən öyrənilmişdir. Ona görə də onların əsərlərinin tarixi mənbələr kimi öyrənilməsi bu günkü gün üçün də əhəmiyyət kəsb edir.

1) Siyasi və dövlət xadimlərinin əsərlərinin nəşri sistemində M.Ə.Rəsulzadənin əsərlərinin toplanması və nəşri sahəsində müəyyən işlər görülmüşdür. Onun əsərlərinin külliyyat halında 10 cildinin çap olunması plandaşdırılmışdır. Bu sahədə professor Şirməmməd Hüseynovun xidmətlərini təqdirəlayiq hesab etmək olar. Alim M.Ə.Rəsulzadənin həyat və fəaliyyəti



ilə əlaqədar olaraq onun müxtəlif xarici ölkələrdə əsərlərinin nəşrlərinin yayılmasının öyrənilməsilə çox böyük işlər görmüşdür. Onun apardığı araşdırmalarının nəticəsi olaraq M.Ə.Rəsulzadənin «Əsərlər külliyatı»nın 5 cildi çap olunub, oxucuların istifadəsinə verilmişdir. M.Ə.Rəsulzadənin əsərlərinin nəşri ilə əlaqədar olaraq müxtəlif mənbələrdə verilən məlumatlardan aydın olur ki, 1903-cü ildən 1920-ci ilə qədər M.Ə.Rəsulzadənin 1200 müxtəlif məzmunlu məqalələri dövri mətbuatda çap olunmuşdur. Şirməmməd Hüseynovun yazdığına görə M.Ə.Rəsulzadənin bütün zəngin irsi tapılıb çap olunsa 12 cildə qədər onun əsərlərinin çap olunması mümkündür.

2) Azərbaycanın görkəmli dövlət və siyasi xadimlərinin əsərlərinin nəşri sistemində Nəriman Nərimanovun əsərlərinin nəşri də xüsui yer tutur. Nəriman Nərimanov dramaturq, nasir, inqilabçı, həkim, pedaqoq olmuşdur. Nəriman Nərimanovun əsərlərinin nəşri tarixi müəyyən dövrlərə bölünür: 1. 1920-ci ilə qədər; 2. 1920 –1935-ci illər; 3. 1956–1970-ci illər.

Nəriman Nərimanovun yaradıcılığının birinci dövründə onun məlum olduğu kimi «Nadir şah», «Nadanlıq», «Dilin bəlası», «Bahadır və Sona» və s. kitabları çap olunur. O, özünün tarixi dram əsəri olan «Nadir şah»ı çap etdirmək üçün ciddi səy göstərir. Lakin, senzura komitəsi əsərin əlyazmasının yandırılmasını qərara almışdır. Ancaq Nəriman Nərimanov məqsədinə nail olmuşdur. 1899-cu ildə «Nadir şah» çap olunub yayılmışdır. O dövrdə nəşr olunmuş «İqbal», «İrşad», «Həyat», «Bürhani-tərəqqi» və s. qəzetlərdə onun əsərləri çap olunmuşdur.

1920-1935-ci illərdə Nəriman Nərimanovun «Pir», «Troxoma» adlı məqalələri, məktubları və s. əsərlər toplu halında çap olunmuşdur. 1935-ci ildən sonra onun əsərlərinin çapı dayandırılır. Nəriman Nərimanov haqqında tədqiqatın aparılması, elmi ədəbiyyatn çap olunması qadağan edilir. 1956-cı ildə məlum olduğu kimi siyasi dövlət xadimlərinin azad olunması ilə əlaqələr olaraq geniş siyasi iş aparılmışdır.

Görkəmli siyasi dövlət xadimi Nəriman Nərimanovun 1970-ci ildə anadan olmasının 100 illiyi geniş şəkildə qeyd olunmuşdur. Yubiley münasibətilə Nəriman Nərimanovun əsərlərinin toplu halda çap olunması Nərimanov irsinin öyrənilməsi sahəsində mühüm tədbir olmuşdur. Yubileylə əlaqədar olaraq N.Nərimanovun əsərlərinin elmi-köməkçi biblioqrafiyası 1972-ci ildə "Azərnəşr" tərəfindən çap olunmuşdur. Bu biblioqrafik göstərici özünün əhatəliliyinə görə Nəriman Nərimanov irsinin biblioqrafiyası tarixində xüsusi yer tutur. «Nəriman Nərimanov əsərlərinin biblioqrafik göstəricisi» adı ilə çap olunmuş vəsait 2 hissədən ibarətdir. I hissədə N.Nərimanovun Azərbaycan dilində əsərlərinin, II hissədə isə rus dilində olan əsərlərinin biblioqrafik təsviri verilmişdir.

Biblioqrafik göstərici 1870-ci ildən 1970-ci ilə qədər olan dövrü əhatə edir. Bu dövr ərzində Nərimanov irsinə dair biblioqrafik məlumatlar, yəni onun həyat və fəaliyyəti, tərcümeyi halı, əsərlərinin nəşri, ictimai-siyasi fəaliyyəti və s. kimi müxtəlif xarakterli mənbələr biblioqrafik göstəricidə öz əksini tapmışdır. Biblioqrafik göstəricidə Nərimanovun əsərləri nəşr tarixinə görə sistemləşdirilib təsvir edilir. Biblioqrafik göstəricidə Nərimanovun kitab halında çap olunmuş əsərləri və eləcə də dövri mətbuatda dərc olunmuş külli miqdarda məqalələri öz əksini tapmışdır. Biblioqrafik göstəricidə oxucular üçün ən maraqlı cəhətlərindən biri odur ki, Nərimanov haqqında olan ədəbiyyat onun yaradıcılığının müəyyən dövrü ilə əlaqədar müxtəlif mövzularda sistemləşdirilib təsvir olunmuşdur.

«Nəriman Nərimanovun bədii yaradıcılığı haqqında», «Nərimanovun pedaqoji fəaliyyəti haqqında», «Nərimanovun həkimlik sənəti haqqında» və s. ədəbiyyatın sistemləşdirilib verilməsi Nərimanovun əsərlərinin, irsinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. Biblioqrafik göstəricidə Nərimanovun rus dilində olan əsərləri də nəşr tarixinə görə sistemləşdirilib çap olunmuşdur. 2 dildə çap olunmuş biblioqrafik göstərici böyük şəxsiyyətin həyat və fəaliyyətinin öyrənilməsində mühüm biblioqrafik mənbə hesab olunur. Göstəricinin I və II hissəsində verilmiş tarixi faktlar, biblioqrafik məlumatlar oxucu sorğularının ödənilməsində olduqca maraqlıdır. Biblioqrafik göstərici yubileylə əlaqədar olaraq çap olunduqda qarşıya qoyulan əsas məqsəd onun bütün əsərlərinin və haqqında olan ədəbiyyatın tam əhatə olunması, biblioqrafik göstəricinin tərtibi ilə əlaqədar qarşıya qoyulmuş vəzifənin həyata keçirilməsini tələb etmişdir. Ona görə də zəngin mənbələrə malik olan biblioqrafik göstərici yuxarıda göstərdiyimiz müxtəlif sahələrlə əlaqədar ayrı-ayrı oxucuların biblioqrafik təminatına köməklik göstərir. Biblioqrafik göstərici oxucu istiqamətinə görə daha genişdir. Bu da Nərimanovun həyat və fəaliyyətinin çoxcəhətli olması ilə bağlıdır.

3) Ümummilli lider Heydər Əliyevin elmə, təhsilə, mədəniyyətə böyük qayğısı hər bir azərbaycanlıya yaxşı məlumdur. O cümlədən görkəmli dövlət xadiminin zəngin və hərtətəfli dövlətçilik irsi də öyrənilir və təbliğ edilir.

Bu cəhətdən 1997-ci ildən akademik Ramiz Mehdiyevin rəhbərliyi ilə "Azərnəşr" tərəfindən nəşr edilən "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyi dahi liderin zəngin siyasi irsini özündə cəmləşdirən, həm tarixiliyi, həm məzmun etibarilə müasir Azərbaycan kitabiyyatı tarixində ən qiymətli və sanballı külliyyat kimi diqqəti cəlb edir.

Ümummilli lider, ulu öndər, XX əsrin görkəmli ictimai-siyasi və dövlət xadimi Heydər Əliyevin fəaliyyətini əks etdirən "Müstəqilliyimiz əbədidir" çoxcildliyi 1997-ci ildən nəşr olunmağa başlanmış və kitabın 46 cildi çapdan çıxmışdır (1997-2013).

Bu fundamental külliyyata ayrı-ayrılıqda 3 biblioqrfik göstərici M.F.Axundov adına Milli Kitabxana tərəfindən çap olunmuşdur.

"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: (Çoxcildliyin I-IX cildlərinin köməkçi aparatı) (Qeydlər, mövzu coğrafi və

şəxsi adlar göstəricisi)" 2008-ci ildə 339 səhifədən ibarət çap olunmuşdur.

Respublika ictimaiyyətinin, müəllimlərin, dövlət qulluqçularının və tədqiqat aparan bütün aparıcı mütəxəssislərin bu kitaba olan böyük tələbatı və marağı nəzərə alınaraq Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə M.F.Axundov adına Milli Kitabxana tərəfindən çoxcildliyin 1-9-cu cildlərinin (qeydlər, mövzu, şəxsi və coğrafi adlar göstəricisi) köməkçi göstəricisi tərtib edilmişdir."Şəxsi adlar göstəricisi"ndə şəxslərin soyadları, coğrafi adlar göstəricisində isə şəhər, ölkə, liman, çay, dəniz və s. coğrafi adlar əlifba ardıcıllığı ilə verilmişdir. İnformasiya tələbatçılarının məlumatını artırmaq məqsədilə göstəricinin "Qeydlər" bölməsində çoxcildlikdə adları çəkilən bir sira dövlət və ictimai xadimlər, müxtəlif təşkilat və şirkətlərin başçıları, əhəmiyyətli neft müqavilələri, assosiasiyalar və s. haqqında ətraflı informasiya verilmişdir. Onu da qeyd edək ki, göstəricinin qeyd hissəsində adları verilən şəxslərin tutduqları vəzifələr çoxcildliyin çap olunduğu dövrə uyğun göstərilmişdir.

Mövzu göstəricisinə gəldikdə isə göstəricinin müxtəlif cildlərində gedən eyni mövzular bir rubrika altında əlifba ardıcıllığı ilə əks olunmuşdur. Göstəricidən istifadəni asanlaşdırmaq məqsədi ilə çoxcildliyin cildləri qara hərflərlə göstərilmiş və onların qarşısında müvafiq səhifələr verilmişdir. 478 mənbə daxilində qeydlər verilmişdir. Həmin qeydlər əlifba prinsipi əsasında düzülmüşdür. Burada ümummilli liderin əsərlərindən irəli gələn bir sıra mövzulara həsr olunmuş mənbələr açıqlanmışdır.

Haqqında bəhs etdiyimiz göstəricinin davamı olan "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: Çoxcildliyin X-XXVIII cildlərinin köməkçi göstəricisi: (Qeydlər, şəxsi və coğrafi adlar göstəriciləri)" Biblioqrafik göstərici 2010-cu ildə 512 səhifədən ibarət çap olunmuşdur.

M.F.Axundov adına Milli Kitabxana tərəfindən hazırlanan bu vəsait ümummilli lider Heydər Əliyev irsini araşdıran oxucuların və mütəxəssislərin "Müstəqilliyimiz əbədidir" coxcildliyinin X-XXVIII cildlərindən istifadəni asanlaşdırmaq məqsədilə tərtib olunmuşdur.Vəsaitdə coxcildliyin mətnində verilən qeydlər, şəxsi və coğrafi adlar əlifba sırası ilə qruplaşdırılaraq ayrı-ayrı cildlərdə gedən materiallar bir kitabda toplanmışdır.

1515 adda mənbə öz əksini tapmışdır. Birinci göstəricidən fərqli olaraq burada "Mövzu göstəricisi" verməyi məqsədəuyğun hesab etməmişlər, "Şəxsi adlar göstəricisi" və "Coğrafi adlar göstəricisi" ilə kifayətlənmişlər.

Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Çoxcildliyin XXIX-XXXXII cildlərinin köməkçi göstəricisi: (Qeydlər, şəxsi və coğrafi adlar göstəricisi) 2013-cü ildə işıq üzü görmüşdür. Hər üç biblioqrafik göstəricinin,eləcə də haqqında bəhs etdiyimiz informasiya nəşrlərinin Elektron Məlumat Bazası da oxucuların istifadəsinə verilmişdir. Ulu öndər Heydər Əliyev irsinin tədqiqi və təbliği istiqamətində aparılan işlər inkişaf etdikcə bu qəbildən olan nəşrlərin də sayı artacaqdır.

# II FƏSİL

## 2.1. FƏLSƏFƏYƏ DAİR İNFORMASİYA RESURSLARININ ÜMUMİ XARAKTERLİ BİBLİOQRAFİK MƏNBƏLƏRDƏ ƏKS OLUNMASI

Fəlsəfə elmi sosial-siyasi elmlərin mühüm tərkib hissəsindən biridir. Digər sosial-siyasi elmlərdən fərqli olaraq fəlsəfə elmi bir çox elmlərlə sıx surətdə bağlıdır. Məsələn; kimya, biologiya, fizika, riyaziyyat, humanitar elmlərlə, həmçinin sosial-siyasi elmlərlə əlaqəsi var. Ona görə də, fəlsəfə elminin ayrı-ayrı elmlərlə əlaqədar məsələləri öyrənilərkən biblioqrafik mənbələrdən istifadə olunur. Fəlsəfə elminin ayrı-ayrı elmlərlə əlaqəsi nəticəsində ədəbiyyat nəşri ildən-ilə çoxalır. Ədəbiyyat nəşri ilə əlaqədar olaraq müxtəlif oxucu qrupları var. Oxucuların biblioqrafik təminatı məqsədilə fəlsəfənin müxtəlif xarakterli biblioqrafik mənbələri vardır.

Azərbaycanda fəlsəfi biblioqrafiyanın təşkili və inkişafında ayrı-ayrı elmi müəssisələr, idarə və təşkilatlar, kitabxanalar yaxından iştirak edirlər. Ona görə də Azərbaycanda fəlsəfə elminə dair müxtəlif informasiya resursları mövcuddur. Bu cəhətdən məlumat nəşrlərinin əhəmiyyəti çoxdur. Azərbaycan Sovet Ensiklopediyasında fəlsəfə üzrə xüsusi bölmə verilmişdir. Məsələn; IX cilddə fəlsəfə bölməsi fəlsəfə elmi ilə əlaqədar oxucu sorğularının ödənilməsində əhəmiyyətli mənbə hesab olunur. Burada Azərbaycanda fəlsəfə elminin tarixinə, ədəbiyyat nəşrinə, o cümlədən, filosofların həyat və fəaliyyətinə dair materiallar verilmişdir. Məsələn; Heydər Hüseynov, F.Köçərli, Mehbalı Qasımov, Ziyəddin Göyüşov və b. haqqında biblioqrafik xarakterli məlumatlar öz əksini tapmışdır. Fəlsəfə elminə aid ədəbiyyatın öyrənilməsində ümumi xarakterli resursların da əhəmiyyəti çoxdur. Bu cəhətdən "Azərbaycan kitabı"nın II cildinin I kitabı (1982) mühüm əhəmiyyətə malikdir. II cildin I kitabında xüsusi



olaraq "Fəlsəfə ictimai-siyasi nəzəriyyə" adlı bölmə verilmişdir. Bu bölmə daxilində 1920-1940-cı illərə qədər respublikada fəlsəfə elminə aid çap olunmuş elmi ədəbiyyatı, tədris ədəbiyyatı, elmi-kütləvi ədəbiyyatı, bu sahə üzrə məşğul olan elmi müəssisələr, nəşriyyatlar, institutlar, cəmiyyətlər və s. haqqında ədəbiyyat öz əksini tapmışdır.

Belə bir ümumi xarakterli biblioqrafik informasiya resursuna misal olaraq Azərbaycan MEA kitabxanası tərəfindən çap edilmiş «Azərbaycan SSR Elmlər Akademiyasının nəşrlərinin biblioqrafiyası»nı göstərə bilərik. Azərbaycan SSR Elmlər Akademiyası nəşrlərinin biblioqrafiyası adlı göstəricinin III cildinin VI kitabı 1984-cü ildə çap olunub, 1960-1965-ci illəri əhatə edir. Tarix, iqtisadiyyat, fəlsəfə və hüquq elmlərinə həsr olunmuşdur.

Fəlsəfə sahəsində «Azərbaycan ensiklopediyası» Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən «Fəlsəfə ensiklopedik lüğəti» 1997-ci ildə 520 səhifə həcmində çapdan buraxılmışdır. Ali məktəb müəllimləri, tələbə və aspirantlar üçün gərəkli vəsait olan bu kitab ixtisasından asılı olmayaraq, fəlsəfi görüş dairəsini genişləndirmək istəyən hər bir oxucu üçün faydalıdır. Kitabda fəlsəfi fikir tarixindən, fəlsəfənin əsas kateqoriya və anlayışlarından, həmçinin dialektika problemlərindən, dünya filosoflarının həyatından bəhs edən yığcam məqalələr verilmişdir. Burada oxucular şərq fəlsəfəsinə, mütəfəkkir və filosofların həyatına, onların təlimlərinə aid materiallar haqqında informasiya əldə edə bilərlər. Belə bir ensiklopediyanın sahə mütəxəssislərinin informasiya təminatında rolu sözsüzdür.

## 2.2. FƏLSƏFƏYƏ DAİR ŞƏXSİ BİBLİOQRAFİK İNFORMASİYA RESURSLARI

Fəlsəfəyə dair şəxsi biblioqrafik informasiya resurslarından bəhs edərkən Heydər Hüseynovu xüsusi qeyd etmək lazımdır. Heydər Hüseynovun fəlsəfə sahəsində elmi fəaliyyəti təqdirəlayiqdir. O, Azərbaycanın ilk görkəmli filosofu olmaqla Azərbaycan fəlsəfi fikri tarixinin öyrənilməsində böyük xidmətləri olmuşdur. Azərbaycan Milli Elmlər Akademiyasının kitabxanası tərəfindən «Heydər Hüseynov» (1965) adlı biblioqrafik göstərici çap olunmuşdur. Əhməd Mahmudov tərəfindən tərtib olunmuş bu resursun əsas məqsədi alimin bütün əsərlərini əks etdirmək olmuşdur. Bu məqsədlə biblioqrafik göstəricinin müəllifi geniş axtarışlar aparmışdır. O, H.Hüseynovun kitab halında çap olunmuş əsərlərini, dövri mətbuatda dərc edilmiş məqalələrini, məruzə və çıxışlarını və s. alimin zəngin irsini toplamışdır. O, topladığı materiallar əsasında belə bir elmi-köməkçi biblioqrafik göstəricini çap etdirmişdir.

Biblioqrafik göstəriciyə respublikamızın görkəmli ədəbiyyatşünas alimi Məmmədarif Dadaşzadə tərəfindən geniş elmi giriş hissəsi verilmişdir. Giriş hissəsi bblioqrafik və elmi cəhətdən oxucular üçün mühüm mənbə hesab olunur. Burada Heydər Hüseynovun həyat və fəaliyyəti, tələbəlik illəri, elmi, ictimai-siyasi fəaliyyətilə əlaqədar olaraq, çox zəngin məlumatlar verilmişdir. Biblioqrafik göstəricinin əhəmiyyət alimin biblioqrafik göstəriciyə yazdığı giriş hissədə geniş şərh olunmuşdur. M.Dadaşzadənin yazdığı giriş hissədə H.Hüseynov haqqında müxtəlif məlumatları öyrənmək olur.

Biblioqrafik göstəricidə H.Hüseynovun əsərləri nəşr illərinə görə sistemləşdirilib təsvir edilmişdir. Bu da alimin əsərlərinin nəşri tarixinin öyrənilməsi cəhətdən əhəmiyyətlidir. Biblioqrafik göstərici alimin əsərlərinin çap olunduğu dilə görə iki



hissədən ibarətdir: I. Azərbaycanca əsərləri; II. Rus dilində çap olunmuş əsərləri.

I hissədə olduğu kimi II hissədə də nəşr ilinə görə düzülmüşdür. Biblioqrafik göstəricidə H.Hüseynovun əsasən elmi əsərlərilə yanaşı elmi məqalələri də çap olunmuşdu. H.Hüseynov respublikamızın ictmai həyatında mühüm rol oynamışdı. Biblioqrafik göstəricidən istifadəni asanlaşdırmaq üçün köməkçi aparat verilmişdir. Məsələn, alimin əsərlərinin əlifba göstəricisi.

Azərbaycan Elmlər Akademiyasının akademiki, əməkdar elm xadimi, Azərbaycan fəlsəfəsi tarixi ixtisası üzrə görkəmli alim Firudin Qasım oğlu Köçərlinin əsərlərinin biblioqrafiyası 1950-1996-cı illəri əhatə edir (1997). Göstəriciyə Azərbaycan və rus dillərində çıxan əsərləri, habelə dövri mətbuatda dərc olunmuş məqalələri daxil edilmişdir. Göstəricinin Ç.Əhmədova, redaktoru F.Hüseynovadır. 1997-ci ildə Azərbaycanın elm və mədəniyyət xadimləri seriyası ilə elm nəşriyyatında çapdan çıxmışdır. Azərbaycan Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanası «Elm» Redaksiya-Nəşriyyat və Poliqrafiya Mərkəzi tərəfindən çapa hazırlanmış biblioqrafik göstəricidə 341 mənbə xronoloji prinsiplə düzlmüşdür. Göstəricinin aşağıdakı bölmələri vardır: Tərtibçidən; Həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri; Həyatı və elmi fəaliyyəti haqqında qısa oçerkin müəllifi Azərbaycan Respublikası EA-nın müxbir üzvü Məqsəd Səttarov yazmışdır. Əsərlərinin biblioqrafiyası bölməsində - burada 275 ada mənbə öz əksini tapmışdır. Redaktə etdiyi əsərlər cəmi 42 adda; Dissertantlara elmi rəhbərlik və məsləhətçi 18 adda; Həyatı, elmi-pedaqoji, ictimai fəaliyyəti və əsərləri haqqında məlumat 7 adda xronoloji ardıcıllıqla düzülmüşdür. Göstəricinin sonunda «Əsərlərinin əlifba göstəricisi», «Müştərək müəlliflərin əlifba göstəricisi» və «Haqqında yazan müəlliflərin əlifba göstəricisi adlı köməkçi aparat verilmişdir». Əsərlərinin biblioqrafiyası bölməsinə baxdıqda məlum olur ki, Firudin Köçərlinin ilk əsəri dövri mətbuatda 1948-ci ildə çap olunmuşdur.

## 2.3. TARİX ELMİNƏ HƏSR OLUNMUŞ MÖVZU XARAKTERLİ BİBLİOQRAFİK İNFORMASİYA RESURSLARI

Sosial-siyasi elmlər üzrə biblioqrafik vəsaitlər sisteminin tərkibində olan əsas vəsait növlərinə nəzər salsaq onların fərqli cəhətlərini və yerinə yetirdiyi funksiyaları daha aydın şəkildə görə bilərik.

Belə tələbat cari vəsaitlər vasitəsilə öyrənilir. Belə vəsaitlərə Azərbaycan Dövlət Kitab Palatasının mövcud olduğu vaxtdan çap etdirdiyi salnamələri misal göstərmək olar. Ümumi xarakterli retrospektiv mənbələrdən «Azərbaycan kitabı» göstəricisinin (C.1., 1963; C.2. kit.1., 1982) müxtəlif nəşrlərində sosial-siyasi resurslara dair mənbələr, o cümlədən, tarixə dair ədəbiyyat öz əksini tapmışdır.

Mövzu biblioqrafik göstəricilərdən 1997-ci ildə Azərbaycan Dövlət Kitab Palatası Kərim Şükürovun «Azərbaycan əhalisi haqqında ədəbiyyat (Əhali problemlərinə dair ən mühüm əsərlərlə birgə)» adlı göstəricini çap etdirmişdir. Mürəkkəb quruluşa malik bu bibliorafik göstərici qədim zamanlardan müasir dövrədək Azərbaycan əhalisinə, o cümlədən bütünlüklə əhali problemlərinə dair ədəbiyyatı əhatə edərək, ümumdünya və regional miqyasda müqayisələr aparmağa imkan verir.

Göstəricidə tərtibçi tərəfindən yazılmış «Ön söz»də biblioqrafik vəsaitin əhəmiyyəti və quruluşu haqqında qısa məlumat əks olunur. Daha sonra «Ümumi qeydlər» verilir ki, burada da mövzunun keçmiş ittifaqda işlənmə dərəcəsi, ədəbiyyatın meydana çıxarıldığı mənbələr, ədəbiyyat əhatəliyi haqqında bəhs olunur. Qeyd edilir ki, Azərbaycanın demoqrafiya tarixinin öyrənilməsində bu sahədə yerli tarixi qaynaqlar kifayət qədər olmadığından demoqrafik inkişafı və ya bu barədə hər hansı məlumatı özündə əks etdirən Azərbaycan ədəbiyyatı nümunələri, ictimai, siyasi, fəlsəfi əsərləri də göstəriciyə daxil etmək məqsədəuyğun hesab edilmişdir.



Göstəricidə biblioqrafik təsvirlərin dövrlər və illər üzrə təsnifat əsasında qruplaşdırılması Azərbaycan əhalisinin öyrənilməsi tarixini izləməyə, müasir vəziyyətini müəyyən etməyə, perspektivlərini aydınlaşdırmağa imkan verir. Bu, Azərbaycan əhalisinin öyrənilməsi tarixi, müəyyən mənada Azərbaycan demoqrafiyası tarixi kimi xüsusi bir elm sahəsini, həmçinin ayrı-ayrı əhali probleminin tarixini də öyrənməyə şərait yaradır.

Yuxarı Qarabağa dair informasiya resursuna misal olaraq Ə.Əfəndiyevin tərtib etdiyi "Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu"nun izahlı biblioqrafik göstəricidə də öz əksini tapmışdır.

Göstərici 1998-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Milli Münasibətlər İnstitutu və M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən buraxılmışdır.

"Müəllifdən" adlı yazıda vəsaitin əhəmiyyətindən və aktuallığından, onun quruluş tərkibindən, istifadə qaydalarından bəhs olunur. Professor Vaqif Arzumanlı tərəfindən yazılmış "Ön söz"də məcmuənin Qafqaz xalqlarının sosial-siyasi, ədəbi-mədəni həyatının qısa salnaməsi olduğu qeyd edilir.

46 cildin hamısında dərc olunmuş bütün materiallar bu göstəricidə tam şəkildə əks olunmuşdur. Cildlərdə Azərbaycan xalqı haqqında çoxlu materiallar dərc olunmuşdur. Məcmuədə dərc olunmuş materiallar daha çox tarixə, arxeologiyaya, coğrafiyaya, etnoqrafiyaya, əhalinin təsərrüfat və peşə fəaliyyətinə, dini etiqadlarına, folklora, təbiət təsvirlərinə, fauna və floraya, təhsil və tərbiyə məsələlərinə həsr olunmuşdur.

Məcmuənin səhifələrində şifahi xalq ədəbiyyatı nümunələrinə xüsusi yer ayrılırdı. Nağıllar, atalar sözü və məsəllər, rəvayət və əfsanələr, mahnı və nəğmələr, demək olar ki, hər nömrədə verilirdi. Təkcə bunu göstərmək kifayətdir ki, məcmuənin səhifələrində 100-ə yaxın Azərbaycan nağılı dərc olunub. Bu materialların toplanmasında, bir tərəfdən xalqımızın görkəmli ziyalı-

ları – F.Köçərli, R.Əfəndiyev, S.M.Qənizadə, M.Mahmudbəyov, M.Vəlizadə, S.M.Əfəndiyev, T.Bayraməlibəyov, R.Xəlilov və başqaları, o cümlədən Azərbaycanın qəza və əyalətlərində çalışan rus ziyalıları da yaxından iştirak etmişlər.

Azərbaycanın tarixi, etnoqrafiyası, xalq məişəti və s. məsələlərin öyrənilməsində toplunun əhəmiyyəti son dərəcə böyükdür. Həm keçmişimizin öyrənilməsi, həm də tariximizin, ədəbiyyatımızın, mədəniyyətimizin, məişətimizin, adət-ənənələrimizin bəzi qaranlıq səhifələrində işıqlandırılması baxımından "QƏXTMT" kimi nadir və qiymətli mənbəyə adi oxucudan tutmuş, ən görkəmli ziyalımıza, alimimizə kimi hamının böyük ehtiyacı vardır.

Buna görə də Ə.Əfəndiyevin tərtib etdiyi bu göstəricinin əhəmiyyəti, zəruriliyi özünü aydın göstərir.

Biblioqrafik hissədə 893 adda müxtəlif məqalələrin annotasiyalı biblioqrafik təsviri verilmişdir. Materialın düzülüşündə cildlərin ardıcıllığı əsas götürülmüş və onların hər birinin analitik olaraq məzmunu açılmışdır.

Göstəricidə bütün məqalələr ardıcıl nömrələnmişdir. Burada verilmiş 893 məqalədən 120-si bilavasitə Azərbaycana aid məqalələrdir.

Göstəricidən istifadəni asanlaşdırmaq üçün burada "Müəlliflərin əlifba göstəricisi", "Məqalələrin əlifba göstəricisi" və "Mövzu göstəricisi" tərtib olunmuşdur.

Azərbaycan tarixinin, coğrafiyasının, etnoqrafiyasının, şifahi xalq yaradıcılığının və digər məsələlərin tədqiqində bu göstəricinin böyük əhəmiyyəti vardır.

Mövzu xarakterli maraqlı göstəricilərdən biri «Qarabağ» adlı biblioqrafiyadır. Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu Elmi Şurasının qərarı ilə nəşr edilən bu göstərici 2004-cü ildə "Şuşa" nəşriyyatı tərəfindən buraxılmışdır.

Göstəricinin tərtibçisi tarix elmləri namizədi A.C.Xəlilov, toplayanları tarix elmləri namizədləri A.C.Xəlilov, X.D.Xəlilov,



redaktoru V.Quliyev, elmi redaktoru isə filologiya elmləri doktoru M.M.Adilovdur.

Biblioqrafik göstərici əsasən Azərbaycan və rus dillərində yazılmış materialları əhatə edir, ancaq başqa xarici dillərdə çap olunmuş mənbələr də yeri gəldikcə qeydə alınmışdır. Göstəricidə materiallar bölmələr daxilində əlifba prinsipi əsasında qruplaşdırılmışdır. Əlbəttə, Qarabağla əlaqədar materialların hamısını biblioqrafik təsvir etmək asan deyildir və buna görə də tərtibçi ən vacib və ən dəyərli materialları seçmiş, daha çox iri həcmli məqalələrə üstünlük vermişdir. Bundan başqa biblioqrafiyada sonralar dəyişdirilmiş toponimlərin orijinal mənbələrdə qeydə alınmış əvvəlki variantları da burada qeyd olunmuşdur.

Biblioqrafik göstərici aşağıdakı bölmələrdən ibarətdir: Ön söz əvəzi; Əlyazmalar; H.Ə.Əliyev; Rəsmi sənədlər və materiallar; Kitablar və mətbuat materialları.

Biblioqrafik göstəricinin "Əlyazmalar" bölməsində qədim dövrlərdən başlamış Əlyazmalar İnstitutunun arxivində, Azərbaycan Respublikası Dövlət Arxivində saxlanılan 31 mənbənin biblioqrafik təsviri verilmişdir.

Biblioqrafik göstəricinin "Rəsmi sənədlər və materiallar" bölməsində Qarabağla əlaqədar 98 adda dövlət sənədi və materialların biblioqrafik təsviri verilmişdir.

Biblioqrafik göstəricinin "Kitablar və mətbuat materialları" bölməsində isə Qarabağın tarixinə, iqtisadiyyatına, xalq təsərrüfatına, təbii sərvətlərinə, kənd təsərrüfatına, mədəniyyətinə və incəsənətinə, ədəbiyyatına dair 2536 adda kitab, kitabça, jurnal və qəzet məqalələrinin biblioqrafik təsviri verilmişdir.

Biblioqrafiyanın rus dilində olan hissəsində isə materiallar əsas üç bölmədə qruplaşdırılmışdır. Burada 2437 adda mənbənin biblioqrafik təsviri verilmişdir. Burada da bölmələr daxilində materiallar əlifba prinsipi üzrə qruplaşdırılmışdır.

Biblioqrafik göstəricinin sonunda həm Azərbaycan dilində, həm də rus dilində "İxtisarların siyahısı" verilmişdir. Biblioqrafiya müxtəlif elm sahələri ilə məşğul olan mütəxəssislər

və Qarabağ haqqında məlumat əldə etmək istəyən geniş oxucu kütləsi üçün mühüm mənbədir.

1998-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 80 illiyinin tamam olması ilə əlaqədar olaraq Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev tərəfindən 30 yanvar 1998-ci ildə "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" Sərəncam imzalanmışdır. Sərəncamda Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin respublikada geniş qeyd edilməsi, yubiley tədbirlərinin hazırlanıb həyata keçirilməsi məqsədilə Dövlət Komissiyası yaradılması nəzərdə tutulurdu.

15 fevral 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 90 illiyi respublikada geniş qeyd edilməsi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyinə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsi, Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaranmasının 90 illiyi münasibətilə xüsusi iclasın keçirilməsini nəzərdə tutan "Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi haqqında" Sərəncam imzalanmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair sanballı əsərlər, hətta ikicildlik ensiklopediya nəşr edilsə də, tariximizin bu mərhələsi ilə bağlı çox sayda sənədlər hələ xarici ölkələrin qapalı arxivlərində saxlanılır və öz tədqiqatçılarını gözləyir.

2008-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti haqqında tərtib olunmuş 266 səhifəlik "Azərbaycan Xalq Cümhuriyyəti – 90: (1918-1920)" adlı biblioqrafik göstərici ADR-in yaranmasını, fəaliyyətini və süqutunu, onun ictimai-siyasi xadimlərinin həyat və fəaliyyətini əhatə edir.

Biblioqrafik göstərici bu sahədə tərtib olunmuş ilk vəsaitdir. Bu göstərici 1918-ci ildən 2008-ci ilə qədər olan dövrü əhatə



edir. Vəsait xronoloji prinsipə əsasən tərtib edilmişdir. Materiallar aşağıdakı əsas bölmələr üzrə qruplaşdırılmışdır: 1. ADR-in yaranması, fəaliyyəti və süqutu; 2. ADR-in görkəmli xadimləri haqqında; 3. ADR-in yaranması, fəaliyyəti və süqutu (rus dilində); 4. Başqa dillərdə; 5. Köməkçi göstəricilər.

Rus dilində materialların çoxluğu nəzərə alınaraq, o, "Başqa dillərdə" bölməsində deyil, ayrıca bölmə kimi verilmişdir. Ümumiyyətlə, göstərici tarixçilər, Azərbaycan tarixini tədqiq edən alimlər, kitabxanaçılar, biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Azərbaycan tarixinə dair biblioqrafik nəşrlər sistemində arxeologiya və etnoqrafiya mövzusunda biblioqrafik göstərici həmçinin əhəmiyyətli hesab olunur. Bu sahədə "Arxeologiya və etnoqrafiya" biblioqrafik göstəricisi çap olunmuşdur. Bu biblioqrafik göstərici 1920-1980-ci illəri əhatə edir.

Göründüyü kimi bu biblioqrafik göstərici geniş bir dövrü əhatə etmişdir. Biblioqrafik göstərici 1983-cü ildə Akademiyanın "Elm" nəşriyyatı tərəfindən çap olunmuşdur. Biblioqrafik göstəricidə ədəbiyyat Arxeologiya və etnoqrafiya üzrə 2 əsas bölmə daxilində həyata keçirilir. Bu köməkçi tarix fənləri məlum olduğu kimi hər 2 elm sahəsi Azərbaycanda aparılan arxeoloji tədqiqatların etnoqrafiya sahəsində aparılan tədqiqatların nəticəsində yaranmış ədəbiyyatlar əsasında hazırlanıb çap olunmuşdur. Biblioqrafik göstərici hazırlanarkən onun əsas məqsədi respublikamızın ayrı-ayrı şəhər, rayon arxeoloji abidələrinin və eləcə də məişət adət-ənənələri üzrə mövcud ədəbiyyatın biblioqrafiyasını yaratmağı qarşısına məqsəd qoymuşdur.

Tədqiq olunan mövcud biblioqrafik informasiya mənbələri tarix elmi üzrə informasiya təminatında mühüm əhəmiyyət kəsb edir.

## 2.4. TARİXƏ DAİR ŞƏXSİ BİBLİOQRAFİK İNFORMASİYA RESURSLARI

Tarix elmi sahəsində müxtəlif illərdə bir sıra şəxsi biblioqrafik göstəricilər nəşr olunmuşdur. Şəxsi biblioqrafik mənbələrdən "Heydər Əliyev: Biblioqrafik məlumat kitabı" adlı göstəricini xüsusi qeyd etmək lazımdır. Bakı Dövlət Universiteti tərəfindən 2003-cü ildə yüksək poliqrafik səviyyədə çap olunan göstərici müasir Azərbaycan Respublikasının memarı və qurucusu olan ümummilli lider Heydər Əlirza oğlu Əliyevin 80 illik yubileyinə həsr olunmuşdur. Göstəricinin redaktoru BDU-nun rektoru, akademik Abel Məhərrəmov, tərtibçi-müəllifləri Əməkdar elm xadimi, BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri, professor Abuzər Xələfov və Biblioqrafiyaşünaslıq kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Solmaz Sadıqovadır.

Akademik Abel Məhərrəmov kitaba yazdığı "Azərbaycan intibahının böyük memarı" adlı ön sözdə Heydər Əliyev şəxsiyyəti haqqında obyektiv fikirlər söyləmiş, Heydər Əliyev erasını çox yüksək qiymətləndirmişdir.

Ümumilikdə, 544 mənbəni özündə birləşdirən məlumat kitabında dünyanın və Azərbaycanın görkəmli siyasətçiləri, elm və mədəniyyət xadimlərinin Heydər Əliyev haqqında fikirlərinin də verilməsi diqqətəlayiqdir. Kitabın Azərbaycan, rus və ingilis dillərində elektron diski də hazırlanmışdır.

Şəxsi biblioqrafik göstəricilərdən danışarkən Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası tərəfindən Azərbaycanın görkəmli tarixşünas alimi Ziya Bünyadov haqqında çap etdirdiyi biblioqrafik göstəricini qeyd etmək lazımdır. 1988-ci ildə çap olunmuş bu bibioqrafik göstəricidə alimin bütün elmi-ictimai fəaliyyəti öz əksini tapa bilmişdir. Biblioqrafik göstəricini H.Ə.Zülalova tərtib etmişdir. Biblioqrafik göstəricidə verilmiş bölmələr alimin həyatı, elmi fəaliyyəti ilə əlaqədar bütün sorğuların ödənilməsində mühüm rol oynayır.



Bu məqsədlə biblioqrafik göstəricinin əvvəlində alimin həyatı, elmi fəaliyyəti və ictimai fəaliyyəti ilə əlaqədar tarixlər xronoloji ardıcıllıqla verilmişdir. Biblioqrafik göstəriciyə tarix elmləri doktoru Mahmud İsmayılov tərəfindən oçerk yazılmışdır. Burada alimin bütün elmi fəaliyyəti haqqında biblioqrafik məlumatlar öz əksini tapmışdır. Ziya Bünyadovun ərəb, türk dillərində ilkin mənbələri öyrənmək haqqında monoqrafiyaları göstərmək olar.

Digər şəxsi biblioqrafik göstəricilərdə olduğu kimi Z.Bünyadovun şəxsi biblioqrafik göstəricisində də onun əsərləri nəşr tarixlərinə görə sistemləşdirilib göstərilmişdir. Biblioqrafik göstəricidə alimin redaktə etdiyi elmi əsərləri, həmçinin onun rəhbərliyi ilə müdafiə edilmiş dissertasiyaların biblioqrafik təsviri xüsusi bölmədə verilmişdir. Bu müsbət xüsusiyyətlərə görə Ziya Bünyadov haqqında çap olunmuş biblioqrafik göstərici mühüm mənbə hesab edilir.

Müstəqillik illərində də bu cür şəxsi biblioqrafik göstəricilərin əhəmiyyəti nəzərə alınmış və onların nəşri davam etdirilmişdir. Bəhs etdiyimiz bu dövrdə Z.Bünyadov, M.İsmayılov, Y.Mahmudov, C.Quliyev, Q.Bayramov, A.Abbasov haqqında şəxsi biblioqrafik vəsaitlər çap olunmuşdur. Azərbaycan tarixşünaslığının inkişafında, xüsusilə bir çox tarixi problemlərin qədim mənbələr əsasında öyrənilməsində müstəsna xidmətləri olan akademik Ziya Musa oğlu Bünyadova həsr olunmuş iki biblioqrafik vəsait tərtib edilmişdir. Biblioqrafik vəsait 1994-cü ildə "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasında AMEA-nın Mərkəzi Elmi kitabxanası tərəfindən çap olunmuşdur. Bu biblioqrafik göstərici Z.Bünyadov haqqında 1988-ci ildə nəşr edilmiş ilk biblioqrafik vəsaitin təkmilləşdirilmiş variantıdır. Ç.N.Əhmədova tərəfindən tərtib edilmiş biblioqrafik göstəriciyə alimin 1953-1994-cü illər arasında Azərbaycan, rus, özbək, türk və avropa dillərində nəşr olunmuş kitab, məcmuə, elmi konfrans, simpozium materialları, dövri mətbuat məqalə-

ləri ilə yanaşı, kitabları haqqında dərc edilmiş rəyləri barəsində biblioqrafik məlumat daxil edilmişdir.

347 sənədin biblioqrafik təsvirinin verildiyi bu biblioqrafik göstəricidə materiallar xronoloji qaydada "Əsərlərinin biblioqrafiyası", "Rəyləri", "Əsərləri və özü haqqında» adlı 3 bölmədə qruplaşdırılmışdır. Redaktə etdiyi əsərlər isə əlifba qaydası ilə düzülmüşdür. Bu biblioqrafik göstəricinin 1988-ci il nəşrindən əsas fərqi ondadır ki, burada özünün yazdığı və kitabları haqqında dərc edilmiş rəylər barəsində də biblioqrafik informasiya verilir. İlkin nəşrdən fərqli olaraq burada alimin rəhbərlik etdiyi dissertasiyalar barəsində biblioqrafik məlumatın verilməməsi göstəricinin əsas çatışmayan cəhətidir.

Akademik Z.Bünyadov haqqında daha bir biblioqrafik göstərici 2004-cü ildə «Nurlan» nəşriyyatında çap olunmuşdur.

AMEA-nın akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu tərəfindən hazırlanmış göstəricinin tərtibçisi Z.T.Qurbanovadır. Bu biblioqrafik vəsait alimə həsr olunmuş əvvəlki iki göstəricidən tərtibatı baxımından olduqca fərqlənir. Buraya 2003-cü ilədək nəşr olunmuş 1085 sənəd haqqında biblioqrafik məlumat daxil edilmişdir. Biblioqrafik vəsaitin əvvəlində f.e.d., prof. G.Baxşəliyeva və t.e.n. F.Əsədova tərəfindən yazılmış "Ziya Musa oğlu Bünyadov" başlıqlı məqalədə akademikin həyat və fəaliyyəti geniş şəkildə işıqlandırılmışdır. Biblioqrafik göstərici iki hissədən ibarətdir. "Əsərlərinin biblioqrafiyası" adlı I hissədə 701 sənəd haqqında biblioqrafik məlumat verilir. Burada alimin 1953-1999-cu illərdə çapdan çıxmış əsərlərinin biblioqrafik təsviri xronoloji prinsip üzrə sistemləşdirilmişdir. Eyni zamanda il ərzində çap edilmiş əsərlər, həm də nəşr dilinə uyğun olaraq əlifba sırası ilə Azərbaycan, rus, avropa və şərq dillərində əks olunmuşdur. Həmçinin, illər daxilində materiallar monoqrafiya, məqalə, tərcümə, elmi redaktələri ardıcıllıqla verilmişdir. Sənədlərin bu cür sistemləşdirilməsi Z.Bünyadovun yaradıcılıq yolunu, onun həyatının keşməkeşlərini izləməyə imkan verir və alimin yaradıcılıq üslubunun, tərzinin inkişafını, onun nə vaxt, hansı mövzuya, janra üstünlük verdiyini nümayiş etdirir. Əsərlərinin adları onun nəşr edildiyi dildə, ərəb və fars dillərində olanlar isə transkripsiya ilə verilmişdir.



Biblioqrafik göstəricinin II hissəsi alimin müasirlərinin onun və əsərlərinin haqqında yazdıqları məqalələri, rəyləri əhatə edir. Burada 1942-2003-cü illərdə çap olunmuş 384 sənədin biblioqrafik təsviri oxucuların nəzərinə çatdırılır. Biblioqrafik vəsaitin sonunda verilmiş köməkçi aparat ondan istifadəni xeyli asanlaşdırır. Əvvəlcə Z.Bünyadovun Azərbaycan və rus dillərində olan əsərlərinin, daha sonra "Avropa və şərq dillərində" başlığı ilə ərəb, ingilis, tatar, türk, özbək, ukrayna, fransız dillərində olan əsərlərinin əlifba göstəricisi təqdim olunmuşdur. Bu hissədə eyni zamanda alimin məqalələrinin və tərcümələrinin də əlifba göstəricisi ayrıca verilmişdir. Biblioqrafik göstərici Z.Bünyadovun fəaliyyəti ilə maraqlananlar, həmçinin tariximizi tədqiq edən tarixşünaslarımız üçün olduqca əhəmiyyətlidir. Belə ki, burada barəsində biblioqrafik məlumat verilən akademikin tərcümə etdiyi "İrəvan əyalətinin icmal dəftəri", "Moisey Kalankatuklu. Albaniya tarixi", "Nizaməddin Şami. Zəfərnamə", "Mehmet Solakzade. Tarix" və s. əsərlər bu baxımdan çox maraqlıdır.

"Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasında şəxsi biblioqrafik göstəricilərdən biri tarix elmləri doktoru, professor Mahmud Əlabbas oğlu İsmayılova həsr edilmişdir. Bu biblioqrafik göstərici 1993-cü ildə nəşr olunmuşdur. H.Ə.Zülalovanın hazırladığı bu göstərici tarixçinin 1946-1991-ci illər arasında Azərbaycan, rus, dillərində nəşr edilən kitab, məcmuə, elmi sessiya, simpozium, konfrans materialları, həmçinin məqalələrin biblioqrafik təsvirini əks etdirir. Burada t.e.n. H.Həsənov tərəfindən yazılmış oçerkdən M.İsmayılovun elmi, pedaqoji və ictimai fəaliyyəti ilə bağlı geniş məlumat almaq olur. Biblioqrafik vəsaitə daxil edilmiş materialların hamısı – əsərləri, redaktə etdiyi əsərlər, elmi rəhbərlik etdiyi dissertasiyalar, eləcə də haqqında yazılmış sənədlər barəsində biblioqrafik məlumat dil prin-

sipinə əsaslanaraq xronoloji qaydada daxili əlifba prinsipinə riayət edilməklə sistemləşdirilmişdir. Bu göstəricidə xronoloji çərçivə 1946-1991-ci illəri əhatə etsə də vəsaitin mətni çapa hazırlanan vaxt - 1992-ci ildə alimin nəşr olunmuş əsərlərinin də biblioqrafik təsviri sonda ayrıca əks olunmuşdur.

Biblioqrafik göstərici sonda üç yardımçı göstərici–əsərlərinin, müştərək müəlliflərin və haqqında yazan müəlliflərin əlifba göstəricisi ilə tamamlanır.

Tarix elmləri doktoru, professor Cəmil Bahadur oğlu Quliyev haqqında şəxsi biblioqrafik göstərici "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasında 1999-cu ildə çap edilmişdir. Tərtibçiləri Ç.Əhmədova və A.H.Orucova olan biblioqrafik vəsait alimin 1953-1998-ci illərdə Azərbaycan və rus dillərində nəşr edilmiş monoqrafiya, kitab, kitabça, dövri mətbuatda və ayrı-ayrı məcmuələrdə çap olunmuş məqalələrinin biblioqrafik təsvirini əhatə edir. Kitabın əvvəlində tarixçi haqqında Azərbaycan dili ilə yanaşı rus və ingilis dillərində qısa oçerkin verilməsi çox diqqətəlayiqdir. Burada həmçinin ayrı-ayrı bölmələrdən alimin əsərləri, redaktə etdiyi kitablar, elmi rəhbəri və məsləhətçisi olduğu dissertasiyaları, həyatı və ictimai fəaliyyəti ilə bağlı sənədlər haqqında biblioqrafik məlumat almaq olur. Biblioqrafik vəsaitin tərtibində əhəmiyyətli cəhətlərdən biri burada "Elmi əsərlərinin biblioqrafiyası" bölməsində "Publisistika" başlığı ilə məqalələrin ayrıca verilməsidir. Məhz bu cəhət oxucuların axtarış prosesini asanlaşdırır. Vəsait sonda alimin əsərlərinin və müştərək müəlliflərin əlifba göstəricisi ilə təmin edilmişdir.

Tarixçilərimizə həsr olunmuş daha bir şəxsi biblioqrafik vəsait tarix elmləri doktoru, professor Qurban Məmməd oğlu Bayramov haqqındadır. Bu vəsait 2004-cü ildə "Bakı Universiteti nəşriyyatı"nda nəşr edilmişdir. T.e.n., dos. K.Şükürovun tərtibçisi olduğu göstəricidə ümumilikdə 168 sənədin biblioqrafik təsviri sistemləşdirilmişdir. Alimin həyat və yaradıcılığını əks etdirən məqalədən sonra ayrı-ayrı yarımbölmələrdə onun əsərləri; onlar haqqında rəy; rəhbərlik etdiyi dissertasiyalar; redaktə etdiyi əsərlər; rəsmi opponenti olduğu dissertasiya işləri; rəy verdiyi əsərlər barəsində biblioqrafik məlumat verilir. Sonda əsərlərinin əlifba göstəricisi əks etdirilmişdir.

"Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasında çap olunmuş daha bir şəxsi biblioqrafik vəsait AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Arif Akim oğlu Abbasova həsr edilmişdir. 2005-ci ildə nəşr edilmiş vəsait tarixçinin 1965-2005-ci illərdə Azərbaycan, rus və digər xarici dillərdə nəşr edilmiş monoqrafiya, məcmuə, elmi sessiya materiallarını və dövri mətbuatda dərc edilmiş məqalələri barədə biblioqrafik informasiyanı əhatə edir. Bundan əvvəl haqqında məlumat verdiyimiz biblioqrafik göstəricilərin hamısında olduğu kimi burada da ilk növbədə alimin həyatı, elmi və ictimai fəaliyyətinin əsas tarixlərinin xronologiyası verilmişdir. Daha sonra A.Abbasovun elmi, ictimai, siyasi fəaliyyətini işıqlandıran Azərbaycan, rus və ingilis dillərində qısa oçerk təqdim olunmuşdur.

Şəxsi biblioqrafik göstəricinin əsas keyfiyyətlərindən biri onun tam olmasındadır. Buna görə də biblioqrafın axtarışı, onun tədqiqatı nə qədər diqqətli, dəqiq, dərin və geniş olarsa, onun tərtib etdiyi göstəricilər də bir o qədər tam, samballı və zəngin olar.

Elmi-köməkçi xarakterli şəxsi biblioqrafik göstəricilərin tərtibində materialların seçilməsi böyük üstünlüyə malikdir. Şəxsi biblioqrafik göstəricilərin tərtibində ədəbiyyatın seçilməsi xronoloji meyarlara görə həyata keçirilir. Xronoloji prinsip bu və ya digər alimin inkişaf yollarını, hər hansı bir yazıçı və ya elmi işçinin yaradıcılığını tədqiq etməyə iman verir. Xronoloji düzülüşdə göstəricidə təsvir edilən çap əsərləri iki əsas əlamətə – əsərlərin yazılma tarixi və nəşr tarixinə görə düzülür. Biblioqrafik yazıların qruplaşdırılması, materialların biblioqrafik cəhətdən təsvir edilməsi meydana çıxarılmış, seçilmiş materialı məntiqi və ardıcıl sistemə salmağa, biblioqrafik cəhətdən göstərilən çap əsərləri arasında əlaqə yaratmağa imkan vermişdir. Göstəricinin əsas ideoloji mənasının həyata keçirilməsində

qruplaşdırma olduqca mühüm rol oynayır. Qruplaşdırma şəxsi biblioqrafik göstəricinin şöbələrini və yarımbölmələrinin arasındakı tabeçiliyi və daxili əlaqəni açır.

Materiallar dörd bölmədə – "Əsərlərinin biblioqrafiyası", "Redaktə işi", "Dissertantlara elmi rəhbərlik və məsləhətçi", "Həyat, yaradıcılığı və əsərləri haqqında ədəbiyyat" bölmələrində qruplaşdırılmışdır. Vəsaitə daxil edilmiş bütün sənədlər illər üzrə sistemləşdirilmişdir. Biblioqrafik göstəricidən istifadəni asanlaşdırmaq üçün sonda verilmiş "Müştərək müəlliflərin", "Haqqında yazan müəlliflərin" əlifba göstəricisindən sonra bir neçə tanınmış alimin A.Abbasovla bağlı xatirələri də əks etdirilmişdir.



## 2.5. İQTİSADİYYAT ELMİNƏ HƏSR OLUNMUŞ ÜMUMİ XARAKTERLİ BİBLİOQRAFİK İNFORMASİYA MƏNBƏLƏRİ

İqtisadiyyat sosial-siyasi elmlərin mühüm tərkib hissələrindən biri hesab olunur. İqtisadiyyat üzrə ədəbiyyatın yaranması ictimai biliklərin öyrənilməsi və təbliği ilə əlaqədar olmuşdur. Ona görə də Azərbaycanda iqtisadiyyat üzrə ədəbiyyatın nəşri və onun biblioqrafiyası XX əsrin əvvəllərindən həyata keçirilməyə başlamışdır.

Müstəqil Azərbaycan Respublikasının bazar iqtisadiyyatı sisteminə keçməsi şəraitində elmi iqtisadi biliklərə, elmi iqtisadi təfəkkürə kifayət qədər malik olmaq mühüm əhəmiyyət kəsb edir. İqtisadi ədəbiyyatın öyrənilməsində və bu sahədə yeni məlumatların operativ şəkildə mütəxəssislərə çatdırılmasında Azərbaycan milli biblioqrafiyasının mühüm qollarından biri olan iqtisadiyyat ədəbiyyatının biblioqrafiyası mühüm əhəmiyyətə malikdir.

İqtisadiyyat keçmişdə də, indi də hər bir şəxsin, ailənin, cəmiyyətin həyatında mühüm əhəmiyyət kəsb etmişdir. Bunun üçün də bu gün müstəqil Azərbaycan Respublikasında yaşayan hər bir vətəndaş ölkəmizin iqtisadiyyatını, onun keçmişini, bu gününü bilməlidir.

İqtisadiyyat-istehsal münasibətlərinin məcmusu, cəmiyyətin iqtisadi bazisidir. Tarixi mənbələrdə iqtisadiyyatın tərifi belə verilmişdir: "İstehsal münasibətlərinin məcmusu cəmiyyətin iqtisadi quruluşunu, bazisi təşkil edir, hüquqi və siyasi üstqurum və bazis üzərində yüksəlir və müəyyən ictimai şüur formaları bu bazisə uyğun olur". İqtisadiyyat bütün digər ictimai münasibətlərin əsasını təşkil edir və cəmiyyətin inkişafında həlledici rol oynayır .

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev müvafiq sahəyə dair 2004-cü il 11 fevralda fərman imzalamışdır.

Fərmanda deyilir: "Azərbaycan Respublikasında son on ildə həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində ölkədə makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır".

İdeoloji məhdudiyyət və qadağalar nəticəsində Azərbaycan xalqının iqtisadi fikir tarixində çoxlu çətinliklər mövcud olmuşdur. Müstəqillik qazanaraq hüquqi demokratik dövlət quruculuğunu həyata keçirdiyimiz müasir dövrdə respublika iqtisadçıları üçün yeni olan bazar təsərrüfatı problemləri ilə qarşılaşmışlar. Ona görə də cəmiyyətdəki dəyişikliklərin bu mərhələsində iqtisadi fikirlər, iqtisadi publisistika üstünlük təşkil edir. İqtisadi hadisə və proseslərin həm mütəxəssislər, həm də geniş kütlə üçün izahı ön plana keçir. Bununla əlaqədar olaraq kütləvi və iqtisadi mətbuat səhifələrində çoxlu yazılar dərc olunmuşdur.

Hazırda iqtisadi fikrin, həm də müəyyən mənada dövlətin də başlıca vəzifələri iqtisadi inkişaf modelini seçmək və bu modelin reallığa çevrilməsinə xidmət etməkdir. Bu istiqamətdə ilkin addımlar atılmış və Azərbaycan tarixi təcrübəsində sınanmış bazar iqtisadiyyatı əsasında inkişafa üstünlük verilmişdir. Respublika iqtisadçılarının və digər mütəxəssislərin birgə iştirakı və yaxından köməkliyi ilə bazar iqtisadiyyatı prinsipinə cavab verən qanunvericilik bazarı yaradılır. 1991-ci ildən sonrakı dövrdə iqtisadi mövzuda 70-dən çox qanun hazırlanıb qəbul edilmişdir. Mülkiyyət, özəlləşdirmə, fermer təsərrüfatı, sahibkarlıq fəaliyyəti, torpaq islahatı, banklar və bank fəaliyyəti, maliyyə və sənaye qrupları, dövlət vergi xidməti, əmək birjası, kooperasiya və s. haqqında qanunlarla münasibətlərin bazar iqtisadiyyatı prinsipləri əsasında təşəkkül tapmasının hüquqi təməli qoyulmuşdur. Bu qanunlar ilk növbədə mətbuat səhifələrində öz əksini tapmışdır. İqtisadiyyatın biblioqrafik təminatı informasiya təminatının əsas istiqamətlərindən biridir. Azərbaycan dövlətinin informasiya təminatı həmişə böyük əhəmiyyət kəsb etmişdir.



Bu gün özünün sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş Azərbaycan Respublikasında həlli vacib məsələlərdən biri regionlarda sahibkarlığın inkişafını sürətləndirməklə oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın davamlı inkişafına, əhalinin məşğulluğunun artırılmasına və ölkədə yoxsulluğun səviyyəsinin azaldılmasına nail olmaqdan ibarətdir.

Müasir dövrdə iqtisad elminə, iqtisadçı sözünə ehtiyac hər hansı dövrdə olduğundan daha çoxdur. Bir tərəfdən iqtisadi böhran, digər tərəfdən yeni iqtisadi inkişaf modelinə keçidin çətin yolları iqtisad elminin və onun nümayəndələrinin qarşısına mühüm vəzifələr qoyur.

İqtisadi biblioqrafiya sosial-siyasi elmlər kompleksinə daxildir. Sosial-siyasi elmlər kompleksinin biblioqrafik informasiya sisteminə müxtəlif məzmunlu biblioqrafik materiallar daxildir. Sosial-siyasi elmlər kompleksinin biblioqrafik informasiya sistemi dinamikdir. Bu isə bilavasitə biblioqrafik nəşrlərin mövzu dairəsinin genişlənməsi, onların tiplərə, növlərə, oxucu və məqsəd istiqamətinə görə biblioqrafiyanın daim təkmilləşdirilmiş metodikası əsasında formalaşmasıdır. Bu proseslərin inkişafına aşağıdakı əsas amillər təsir edir: 1. Elmi-texniki tərəqqinin təsiri nəticəsində insan fəaliyyətinin bütün sahələrində dərin dəyişikliklərin baş verməsi; 2. Sosial-iqtisadi elmlər kompleksinin sənəd axını; 3. Sosial-iqtisadi fəaliyyət sahəsinin daha da formalaşması; 4. İqtisadiyyatın informasiya istifadəçiləri; 5. İqtisadi biblioqrafiyanın nəzəri və metodiki məsələləri ümumilikdə; 6. İqtisadiyyat, hüquq və sosiologiya üzrə dövlət siyasəti; 7. Yeni informasiya texnologiyasının tətbiqi; 8. İqtisadiyyat sahəsi üzrə ölkədə fəaliyyət göstərən idarə və müəssisələr.

İqtisadi elmlər ictimai-siyasi xarakter daşımaqla öz növbəsində təbii və texniki elmlərlə əlaqədardır. İqtisadi elmlərin bu qayda üzrə öyrənilməsi kitabxanaçı-biblioqrafların işini mürəkkəbləşdirir. Ona görə də iqtisadi ədəbiyyatın kitabxana-biblio-

qrafiya təsnifatına əsasən təsnifləşdirilib qruplaşdırılması lazım gəlir. Beləliklə, iqtisadi ədəbiyyatın böyük əhəmiyyəti vardır.

Müstəqillik şəraitində iqtisadi ədəbiyyat başqa respublikalarda olduğu kimi, Azərbaycanda da iqtisadi əlaqələrin yaranmasına və əlaqələrin öyrənilməsinə kömək edir.

Məlumdur ki, 1925-ci ildə respublikamızda Dövlət Kitab Palatası təşkil olunmuş və onun biblioqrafik nəşrləri olan "Salnamə"lər nəşr olunmağa başlamışdır. "Azərbaycan mətbuat salnaməsi"ndə, "Birillik Azərbaycan kitabiyyatı"nda başqa elmlərlə yanaşı, iqtisadiyyat üzrə ədəbiyyatın cari biblioqrafik mənbələri verilmişdir.

Salnamələrin "İqtisadiyyat. İqtisadi elmlər" adlanan bölməsi iqtisadiyyat üzrə ədəbiyyatın öyrənilməsində oxucular üçün istiqamət verir. Daxildə bu əsas bölmə müxtəlif yarımbölmələrə ayrılmışdır. Məsələn, "Siyasi iqtisad", "Maliyyə", "Pul dövriyyəsi", "Kredit", "İctimai sığorta" adlanan bölmələr verilmişdir. Bu dövrdə iqtisadiyyatın biblioqrafiyasının yaradılmasına təşəbbüs göstərilmişdir.

İqtisadiyyat sahəsində elmi fikrin yaranması da keçən əsrin əvvəllərində özünü göstərmişdir. Belə ki, kitabxana işinə dair bir neçə kitabın müəllifi kimi tanınmış Əli Əjdər Səidzadə 1922-ci ildə çap etdirdiyi məqalələrinin birində yazırdı: "Azərbaycanda çıxmış bütün ədəbiyyatın bir ümumi biblioqrafiyasını düzəltmək işinin tam vaxtıdır". Ə.Səidzadənin ilk dəfə olaraq bu çağırışına qoşulan alim, biblioqraf A. Baqri olmuşdur.

A.Baqri "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin kitabxanasında biblioqrafiya bürosuna rəhbərlik etmişdir. Azərbaycanın xalq təsərrüfatına, etnoqrafiyasına, tibb elminə, şifahi xalq ədəbiyyatına, tarixinə, coğrafiyasına və eləcə də iqtisadiyyatına aid ədəbiyyatın ilk dəfə olaraq toplanması və biblioqrafiyalaşdırılması A.Baqrinin adı ilə bağlıdır. Professor A.Baqri Azərbaycan iqtisadiyyatına aid ədəbiyyatın biblioqrafiyasını yaratmaq üçün keçən əsrin əvvəllərində çap olunmuş qəzet və jurnalları araşdırmış, Azərbaycan iqtisadiyyatına dair material-



ları toplayıb, həmin materiallar əsasında "Biblioqrafiya: Azərbaycan iqtisadiyyatı üçün materiallar" mövzusunda tərtib etdiyi elmi-köməkçi biblioqrafiyanı "Ali iqtisad şurasının əxbarı" jurnalında 1924-cü il 8-9, 10-11 və 12-13-cü nömrələrində hissə-hissə çap etdirmişdir. Materialların davamı jurnalın 1925-ci il 1-2-ci nömrələrində çap edilmişdir.

Biblioqraf alim F.Bayramovun qeyd etdiyi kimi, biblioqrafik göstəricinin əvvəlində verilmiş "Giriş"dən məlum olur ki, belə bir biblioqrafiyanın yaradılmasına ehtiyac duyulmuşdur. Belə ki, orada qeyd edilmişdir ki, Azərbaycana dair biblioqrafik əsərlər olmadığından onun öyrənilməsi də çətinləşir. Jurnalda verilmiş qısa izahatdan məlum olur ki, Azərbaycan haqqında olan materialların toplanması işinə alimlər və ayrı-ayrı müvafiq təşkilatlar da cəlb edilmişdir. Jurnalın giriş hissəsindən sonra Azərbaycan iqtisadiyyatına dair 1134 ədəbiyyatın təsviri verilmişdir.

Burada birinci olaraq N.A.Belovun 1887-ci ildə Tiflis şəhərində çap olunmuş «Исследование экономического быта государственных крестьян в Геогчайском и Шемахинском уездах Бакинской геберний» adlı kitabın təsviri verilmişdir. Bu onu göstərir ki, hələ XIX əsrdə qeyri millətdən olan mütəxəssislər, elm adamları Azərbaycan iqtisadiyyatı ilə maraqlanmış və bu sahədə kitablar, məqalələr yazıb çap etdirmişlər.

A.Baqri materialların sistemləşdirilməsində əlifba qaydasına tam əməl etsə də, mənbələrin təsvirində təsvir ünsürlərinin indiki qaydada verilmədiyi müşahidə olunmuşdur.Lakin bunu o dövr üçün müqayisədə müəllifə əsas nöqsan kimi irad tutmaq düzgün olmaz. Ona görə ki, kitabxana-biblioqrafiya təsnifatına aid vəsaitlər o zaman yox dərəcəsində idi. Buna baxmayaraq, A.Baqrinin bu sahədə müəyyən təcrübəyə malik olduğu, tərtib etdiyi «Biblioqrafiya»dan hiss olunur.

Biblioqrafik göstəricidə Səməd Ağamalıoğlunun 1919-1920-ci illərdə çap etdirdiyi xeyli miqdarda məqalələr A.Baqri tərəfindən toplanaraq buraya daxil edilmişdir. Bundan başqa

burada «Искра», «Новое обозрение», «Кавказ», «Жизнь Кавказа», «Русский вестник», «Сын отечества» və digər adda müxtəlif istiqamətli qəzet və jurnallarda Azərbaycan iqtisadiyyatına dair çap olunmuş çox zəngin materiallar vardır.

Biblioqrafik mənbənin əhəmiyyətli cəhətlərindən biri də onunla əlaqədardır ki, XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycan iqtisadiyyatına aid yaranan ədəbiyyatın mənbələrinin öyrənilməsi üçün ikinci belə biblioqrafik göstərici yaradılmamışdır. Ona görə də Azərbaycan iqtisadiyyatına həsr olunmuş biblioqrafik göstərici müasir oxucular üçün çox əhəmiyyətli biblioqrafik mənbə hesab olunur. 474 adda ədəbiyyatın sıra nömrəsi ilə verilməsi oxucular üçün əhəmiyyətlidir. Vaxt itirmədən ədəbiyyatın ümumi miqdarı haqqında məlumatı oxuculara çatdırır, həm də mənbələrə sıra nömrələrinin verilməsi ayrı-ayrı müəlliflərin məqalələrinin ümumi miqdarını daha tez müəyyənləşdirilməsini asanlaşdırır. Bu cəhətdən A.Baqrinin çap etdirdiyi «Biblioqrafiya» oxucuların informasiya təminatında mühüm biblioqrafik mənbə hesab olunur. Bunu «Biblioqrafiya»dan istifadə edən oxucuların qeyd etdikləri müxtəlif işarələrlə izah etmək olar .

Azərbaycanda iqtisadiyyat üzrə ədəbiyyatın biblioqrafiyası 1970-ci ildən sonra təşkil olunmağa başladı. Bu sahədə Azərbaycan Milli Elmlər Akademiyası MEK-nın fəaliyyəti təqdirəlayiqdir. Kitabxana həmin ildən sonra yerli nəşrlərin biblioqrafik göstəricisini hazırlayıb çap etdirməyə başlamışdır. Göstərici Azərbaycan və rus dilində çap edilmişdir: «Biblioqrafiçeskiy spisok novıx oteçestvennıx kniq», «Yeni kitabların biblioqrafik siyahısı» adı ilə çap edilmişdir. Hər iki göstəricinin nəşrlərində «İqtisadiyyat. İqtisadi elmlər» adlanan bölmə öz əksini tapmışdır.

Azərbaycanda iqtisadiyyat üzrə ədəbiyyatın yeni nəşrləri haqqında elmi işçilərə məlumat verilməsində Elmi-məlumat mərkəzinin fəaliyyəti də çox olmuşdur. Mərkəz tərəfindən «Azərbaycanda ictimai elmlər üzrə çap olunmuş ədəbiyyat» adlı göstərici 1990-cı ildən sonra çap edilməyə başlamışdır. Göstəricidə iqtisadiyyat üzrə çap olunmuş kitablar xüsusi bölmə üzrə sistemləşdirilib təsvir edilmişdir. Göstəricidə kitab və dövri mətbuat materialları da əks etdirilmişdir. Göstəricinin daxilində «Azərbaycan dilində», «Rus dilində» adlanan bölmələr informasiya istifadəçiləri üçün çox əhəmiyyətlidir.

Göstəricidə iqtisadiyyat üzrə ədəbiyyat iqtisadiyyatın sahələri üzrə qruplaşdırılıb təsvir edilmişdir. «İqtisadiyyat» adlanan bölmə, «Ümumi məsələlər», «Xalq təsərrüfatının idarə olunması», «İqtisadi rayonlaşdırma», «Sənaye iqtisadiyyatı», «Əmək» və s. kimi bölmələr verilmişdir.

Cari mənbələrlə yanaşı, keçmiş illərdə iqtisadiyyat üzrə ədəbiyyatı özündə əks etdirən ümumi xarakterli biblioqrafik göstəricilər də vardır. 1920-ci ildən sonra respublikamızda iqtisadiyyata aid çap olunmuş kitablar «Azərbaycan kitabı»nın ikinci cildinin birinci kitabında öz əksini tapmışdır. Göstəricinin VII bölməsində «Siyasi-iqtisadi nəzəriyyələr tarixi» adlanan bölmədə 28 ədəbiyyatın təsviri verilmişdir. Göstəricidən istifadəni asanlaşdırmaq üçün «Fərdi müəlliflərin əlifba göstəricisi» və «Müəllifsiz kitabların əlifba göstəricisi» kimi köməkçi aparat onun informasiya dəyərini daha da artırmış olur.

Azərbaycan dilində iqtisadiyyata aid çap olunmuş ədəbiyyatı Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının ümumi xarakterli biblioqrafik nəşrlərindən də öyrənmək olar. 1960-cı ildən sonra AMEA MEK Akademiya nəşrlərinin ümumi xarakterli elmi-köməkçi biblioqrafik göstəricisini hazırlayıb çap etdirmişdir. 1923-1945-ci illəri əhatə edən «Azərbaycan EA nəşrlərinin biblioqrafiyası» 1984-cü ildə «Elm» nəşriyyatında çap olunmuşdur. Biblioqrafik göstəricinin 236-cı səhifəsində «İqtisadiyyat» bölməsi verilmişdir.

Biblioqrafik göstəricinin ayrı-ayrı illərdə çap olunmuş nəşrlərinə iqtisadiyyat üzrə də ədəbiyyat daxil edilmişdir. Göstəricinin 1945-1959-cu illəri əhatə edən nəşrində «İqtisadiyyat, statistika, iqtisadi coğrafiya» adlanan bölmə öz əksini tapmış-

dır. Göstəricinin əhatə etdiyi dövr ərzində iqtisadiyyat üzrə çap edilmiş 161 kitab və jurnal məqalələri toplanıb göstəriciyə daxil edilmişdir. Akademiyanın nəşrlərinin biblioqrafiyası sonrakı illərdə «illik» formasında çap olunmuşdur. «İllik» nəşrlərində iqtisadi ədəbiyyat «İqtisadiyyat İnstitutu» adı ilə verilmiş bölmə daxilində düzülüb təsvir edilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Elmlər Akademiyasının nəşrlərinin biblioqrafiyasında daha bir göstərici müvafiq sahəni əks etdirir. Azərbaycan EA-nın nəşrlərinin biblioqrafiyasının 1960-1965-ci illər arasındakı dövrü əhatə edən 3-cü cildin 6-cı kitabında iqtisadiyyat üzrə AMEA-nın «Elm» nəşriyyatında Azərbaycan və rus dillərində nəşr olunan monoqrafiyalar, məqalələr, dövri mətbuat materialları və s. çap məhsulatı daxil edilmişdir. Göstəricidə Azərbaycan dilində nəşr olunan ədəbiyyatın rus dilinə tərcüməsi verilmişdir. Biblioqrafik göstəricidə materiallar tarix və iqtisadiyyat, eləcə də fəlsəfə və hüquq elmlərinin müxtəlif sahələri üzrə təsnifləşdirilmiş, hər bölmə daxilində isə müəlliflərin əlifba sırasına riayət edilmişdir. Təhlil zamanı məlum olmuşdur ki, iqtisadiyyat üzrə 279 adda ədəbiyyatın biblioqrafik təsviri verilmişdir ki, bunlardan da 87 adda Azərbaycan dilində, 182 adda rus dilində olan ədəbiyyatdır .

Biblioqrafik göstəricinin axtarış imkanlarını artırmaq üçün «Müəlliflərin əlifba göstəricisi» verilmişdir. Vəsait iqtisadi ədəbiyyatın bu dövrdə nəşrini izləmək, iqtisadçı alimlərin, informasiya tələbatçılarının sorğularını ödəmək baxımından çox faydalı mənbədir.

İqtisadiyyata dair ümumi xarakterli mənbələrdən biri də ADU alimlərinin elmi əsərləri çap olunmuş mənbədir . Biblioqrafik göstəricidə 1969-1978-ci illər ərzində humanitar və ictimai elmlər üzrə ədəbiyyat öz əksini tapmışdır. 1982-ci ildə çap olunmuş bu vəsaitdə 91 adda Azərbaycan və rus dilində olan ədəbiyyat «Siyasi iqtisad kafedrası» bölməsində verilmişdir. 68 adda Azərbaycan dilində, 23 adda rus dilində olan iqtisadiyyat ədəbiyyatı verilmişdir.



ADU-nun digər biblioqrafik göstəricisində də bu sahəyə həsr olunmuş ədəbiyyat verilmişdir. «ADU-nun dövri və nəşri davam edən əsərləri 1921-1962-ci illər: Elmi işlərin sistematik göstəricisi» adlanan biblioqrafik göstərici 1964-cü ildə nəşr olunmuşdur. Biblioqrafik göstəricidə 69 adda Azərbaycan və rus dilində olan ədəbiyyat verilmişdir. Bu sahəyə dair ədəbiyyat «Экономические науки и Экономика» adlanan III bölmədə verilmişdir. Biblioqrafik vəsait iqtisadiyyat sahəsinin müəllimləri, tələbələri və ümumiyyətlə, bu sahənin oxucuları üçün faydalıdır.

İqtisadiyyata dair ədəbiyyatın ümumi biblioqrafik mənbələrdə tədqiqi göstərdi ki, bu mənbələr mühüm əhəmiyyət kəsb edir və kitabxanalarda biblioqrafik xidmətin təşkilində əlverişli vasitədir.

## 2.6. İQTİSADİYYAT ÜZRƏ ŞƏXSİ BİBLİOQRAFİK İNFORMASİYA RESURSLARI

İqtisadiyyat üzrə informasiya təminatında şəxsi biblioqrafik resursların xüsusi əhəmiyyəti vardır. 2005-ci ildə "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasından akademik Asəf Nadirova həsr olunmuş biblioqrafik göstərici AMEA Rəyasət Heyətinin qərarı ilə çap olunmuşdur. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki, iqtisad elmləri doktoru, professor, Əməkdar Elm xadimi Asəf Abbasqulu oğlu Nadirovun əsərlərinin biblioqrafiyası 1956-2005-ci illərdə Azərbaycan, rus və xarici dillərdə çap edilmiş kitablarını, monoqrafiyalarını, habelə məcmuələrdə və dövri mətbuatda dərc olunmuş məqalələrini əhatə edir. Biblioqrafiyaya daxil edilmiş materiallar xronoloji qaydada yerləşdirilmişdir.

Göstəricidə A.A.Nadirov haqqında qısa oçerk və həyatının əsas tarixləri, redaktorluq fəaliyyəti, dissertantlara elmi rəhbərlik, həmçinin haqqında olan ədəbiyyat ayrıca bölmələrdə öz əksini tapmışdır. Biblioqrafik göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə əsərin sonunda alimin əsərlərinin, müştərək müəlliflərin və onun haqqında yazan müəlliflərin əlifba göstəricisi verilmişdir.

2008-ci ildə Azərbaycan iqtisadçısı, AMEA-nin müxbir üzvi Şahbaz Musa oğlu Muradov haqqında biblioqrafik göstərici çap olunmuşdur. Professor Şahbaz Muradovun apardığı başlıca tədqiqat işlərinin nəticələri 350 çap vərəqi həcmindən çox olan 225 əsərdə öz əksini tapmışdır. Həmin əsərlərin 25-i iri həcmli monoqrafiyalar, kitab və broşürlardan ibarətdir. Bu əsərlərin 10-u keçmiş SSRİ-nin və başqa xarici ölkələrin görkəmli alimləri ilə birlikdə yazılmışdır.

2001-ci ildən AMEA-nın müxbir üzvü olan, professor Şahbaz Muradov 40 ildən artıqdır ki, elmi yaradıcılıqla yanaşı, həm də respublikamızın bir sıra ali təhsil müəssisələrində "Siyasi iqtisad", "İqtisadi nəzəriyyə", "Demoqrafiya", "Əməyin iqtisadiyyatı və sosiologiyası" fənlərindən dərs deməklə, ali təhsil sahəsində kadr hazırlanması işinə də köməkliyini göstərməkdədir.



Onun rəhbərliyi və bilavasitə köməkliyilə 50 nəfərdən çox namizədlik və 10 nəfər doktorluq dissertasiyası müdafiə edilmişmişdir. O, Azərbaycanda və başqa MDB ölkələrində yaşayan müxtəlif millətlərin nümayəndələrindən olan 40-dan çox adamın namizədlik və doktorluq dissertasiyasına rəsmi opponentlik etmiş, onlarca elmi kitabın redaktoru və rəyçisi olmuşdur.

İnformasiya resurslarından biri də AMEA-nın Mərkəzi Elmi Kitabxanası tərəfindən 2010-cu ildə çap olunmuş akademik Ziyad Səmədzadənin əsərlərinin biblioqrafik göstəricisidir. Biblioqrafiyanın tərtibçi müəllifləri filologiya elmləri doktoru Aybəniz Əliyeva-Kəngərli, Aytən Səmədzadə və Tubu Rəhimovadır. Akademik Ziyad Səmədzadənin əsərlərinin biblioqrafik göstəricisi 1958-2010-cu illərdə Azərbaycan, rus və ingilis dillərində nəşr olunmuş kitab, monoqrafiya, məcmuə, elmi simpozium, sessiya və konfrans materiallarında və dövri mətbuatda çap olunmuş məqalələri əhatə edir.

Biblioqrafiyaya daxil edilmiş materiallar müvafiq bölmələr üzrə xronoloji qaydada yerləşdirilmişdir. Biblioqrafik göstəricidə, həmçinin akademik Z. Səmədzadənin həyat və fəaliyyətini əks etdirən oçerklər, elmi-pedaqoji fəaliyyətinin əsas tarixləri, tanınmış alimlərin akademik haqqında fikir və mülahizələri verilmişdir. Ziyad Səmədzadə iqtisadi inkişaf, struktur, demoqrafiya, məşğulluq, effektlilik kimi aktual problemlərə dair 500-dən çox əsərin, çoxsaylı monoqrafiyaların müəllifidir. Akademikin baş elmi redaktorluğu ilə ümumi həcmi 2500 səhifəyə bərabər olan "Azərbaycan XXI əsrin astanasında" üçcildliyi nəşr edilmişdir.

Z.Səmədzadə yeni ideya və üsulların, yeni iqtisadi təfəkkürün yorulmaz təbliğatçısıdır. 1999-cu ildə akademik "İqtisadiyyat" adlı qəzet təsis etmiş və onun müntəzəm nəşrinə başlamışdır. Respublikanın elmi ictimaiyyəti onu böyük alim və praktik-iqtisadçı, bacarıqlı təşkilatçı, müasir mütərəqqi iqtisadi ideyaların daşıyıcısı və təbliğatçısı kimi tanıyır.

## III FƏSİL

### 3.1. DÖVLƏT VƏ HÜQUQA DAİR İNFORMASİYA RESURSLARI

Hüquq üzrə ədəbiyyatın biblioqrafiyası sosial-siyasi resursların tərkib hissələrindən biridir. Hər bir cəmiyyətdə hüquq məsələləri öyrənilmiş və bununla əlaqədar olaraq dövlət və hüquq məsələləri qədim dövrdən son dövrlərə qədər müxtəlif oxucu qrupları tərəfindən öyrənilməkdədir. Bu sahədə oxucuların biblioqrafik təminatına köməklik məqsədilə dövlət və hüquq üzrə ədəbiyyatın elmi əsaslarla biblioqrafiyası sosial-siyasi elmlər üzrə Elmi İnformasiya İnstitutu tərəfindən həyata keçirilməyə başlamışdır. Keçən dərslərdə qeyd etdiyimiz kimi, Elmi İnformasiya İnstitutu sosial-siyasi elmlərin biblioqrafik informasiya təminatında mühüm aparıcı elmi müəssisə hesab olunur. Bu institut tərəfindən 1976-cı ildən başlayaraq «Dövlət və hüquq» adlı biblioqrafik göstərici çap olunmağa başlamışdır. Bu göstərici dövlət və hüququn ayrı-ayrı sahələri, dövrləri, problemləri əsas aktual mövzuları və s. üzrə ədəbiyyatı özündə əks etdirir. «Dövlət və hüquq» adlı biblioqrafik göstərici cari elmi köməkçi biblioqrafiya hesab olunur. Ona görə də biblioqrafik göstəriciyə dövlət və hüquq üzrə cari nəşrlər daxil edilmişdir.

Biblioqrafik göstəricidə ədəbiyyatın nəşrilə əlaqədar olaraq hər bir ədəbiyyat haqında dəqiq biblioqrafik məlumatı mütəxəssislərə, elmi işçilərə və hüquqi ədəbiyyatı öyrənən oxucu qruplarına çatdırır. Ona görə də tələbatçıların biblioqrafik təminatında bu göstərici mühüm rol oynayır. Biblioqrafik göstəricinin tələbatçılar üçün əhəmiyyətli cəhətlərindən biri onun köməkçi aparatla təmin edilməsidir. Məsələn; göstəricidə verilən «Предметный указатель» mövzu göstəricisinin verilməsidir. Mövzu göstəricisi müxtəlif mövzular üzrə biblioqrafik göstəricidə təsvir olunmuş ədəbiyyatın öyrənilməsinə köməklik göstərir. Hər bir mövzu ilə əlaqədar axtarış apararkən mövzu müəyyənləşir və həmin mövzuya dair ədəbiyyat təqdim olunur. Bununla yanaşı göstəricidə «Adlar göstəricisi»nin əhəmiyyəti odur ki, hər hansı müəllifin göstəriciyə daxil edilməsi onun əsərlərini müəyyənləşdirmək üçün əsas götürülür.

EİI-nin çap etdirdiyi bu biblioqrafik göstəricidə oxucuların biblioqrafik təminatı üçün ən etibarlı biblioqrafik mənbə hesab olunur. Qeyd etmək lazımdır ki, başqa respublikalarda olduğu kimi respublikamızda ilk dəfə olaraq hüquqi məsələlərin öyrənilməsi 1923-cü ildə təşkil olunmuş Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətilə əlaqədardır. Bu cəmiyyət müxtəlif sahələrdə tədqiqatlar aparmış, elmin əsasını qoymuş və buna müvafiq olaraq ədəbiyyat araşdırmağa başlamışdı. Ədəbiyyat nümunələrinin yaranmasında müəyyən cəmiyyətlərin, institutların, ayrı-ayrı təşkilatların fəaliyyti çox böyük olmuşdur. Məsələn; respublikada hüquq ədəbiyyatının yaranması BDU-nun Hüquq fakültəsinin fəaliyyəti ilə əlaqədardır. Bakı Dövlət Universitetinin Hüquq fakültəsi 1927-ci ilde Şərq fakültəsinin şöbəsi kimi yaradılmış, 1928-ci ildə müstəqil hüquq fakültəsinə çevrilmişdir. Fakültənin ilk dekanı prof. A.O.Mişel olmuşdur. Hüquq fakültəsi respublikada hüquq elminin inkişafında və hüquq üzrə elmi-pedaqoji kadrların hazırlanmasında əsas aparıcı mərkəzdir. Fakültənin məzunları arasında respublikada milli hüquqşünas kadrların hazırlanmasında xidmətləri olmuş alimlər vardır: Vahid Qəhrəmanov, Məmməd Xələfov, Cahangir Kərimov, Əziz Əsədov, İsa Məmmədov, Cəfər Mövsümov, Məsumə Məlikova, Murtuz Ələsgərov, Firudin Səməndərov, Tofiq Qəndilov. Fakültənin əsas elmi tədqiqat sahələri: dövlət və hüquq nəzəriyyəsi və tarixinin problemləri; siyasi və hüquqi nəzəriyyələr tarixi; Konstitusiya hüququ; bələdiyyə hüququ; inzibati hüquq; maliyyə hüququ; bazar iqtisadiyyatına keçid şəraitində mülki hüququn problemləri; cinayət və cəza məsələləri; cəmiyyətin cinayətkar qəsdlərdən qorunması; cinayətkarlığın səbəb və şəraitinin öyrənilməsi, aradan qaldırılması proflaktikasını işləyib hazırlanması; ədalət mühakiməsinin həyata keçirilməsi müna-

sibətlərinin tənzimlənməsi; cinayətlərin açılmasında, istintaqında və məhkəmə baxışında elmi-texniki vasitələrin tətbiqi məsələləri; cinayətlərin istintaqının taktiki məsələləri. Əsası 1919-cu ildə qoyulmuş BDU-nun nəzdində 1941-ci ildə Hüquqşünaslıq fakültəsi yaranmışdır. Bu fakültənin yaranması milli kadraların, eləcə də hüquq üzrə milli ədəbiyyatın yaradılmasında mühüm addım olmuşdur. Bununla yanaşı respulikada hüquq ədəbiyyatının yaranmasında Akademiyanın Dövlət və Hüquq İnstitutunun təşkili və fəaliyyəti xüsusilə diqqəti cəlb edirdi. 1967-ci ildə təşkil olunmuş Elmi- Tədqiqat, Fəlsəfə və Hüquq İnstitutu nəzdində Hüquq şöbəsi yaradılmışdır. Beləliklə də, respublikada Hüquqşünaslıq fakültəsinin eləcə də, Fəlsəfə və Hüquq İnstitutunun Hüquq şöbəsinin adı ilə bağlıdır.

Respublikada hüquq ədəbiyyatının nəşrinin çoxalması müxtəlif xarakterli biblioqrafik mənbələrin yaranmasına müsbət təsir göstərdi. Respublikada hüquq üzrə ədəbiyyatın nəşrilə əlaqədar, mühüm biblioqrafik xarakterli mənbələrdən biri Azərbaycan sovet ensiklopediyasıdır.

Ensiklopediyanın X cildində xüsusi olaraq «Hüquq» bölməsi verilmişdir. Bu əsas bölmə daxilində 32-yə qədər yarımbölmə verilmişdir. Ona görə də hər hansı bir sorğunun ödənilməsində hüquq bölməsi əsas götürülür və bu bölmə daxilində hüquq elminin tarixi, hüquqşünasların elmi fəaliyyəti, onların əsərlərinin nəşri və s. üzrə sorğular yerinə yetirilir. Dövlət və hüquq üzrə ədəbiyyatın nəşrilə əlaqədar biblioqrafik məlumatların öyrənilməsində «Azərbaycan kitabı» mühüm biblioqrafik mənbələrdən hesab olunur. «Azərbaycan kitabı»nın II cildinin birinci kitabında xüsusi olaraq «Dövlət və hüquq» bölməsi verilmişdir. Bu bölmə daxilində 1920-ci ildən 1940-cı ilə qədər respulikada çap olunmuş tədris ədəbiyyatı elmi-kütləvi ədəbiyyat haqqında biblioqrafik məlumatlar öz əksini tamışdır. Qeyd etməliyik ki, «Azərbaycan kitabı» ümumi xarakterli biblioqrafiya kimi ən başlıca əhəmiyyəti göstərdiyimiz dövr üzrə ədəbiyyatı tam əks etdirməsi ilə əlaqədardır. Azərbaycan dilində və eləcə də rus dilində respublikada çap olunmuş ədəbiyyatın öyrənilməsində ümumi xarakterli biblioqrafik mənbələrdən biri də «Azərbaycan SSR Elmlər Akademiyasının nəşrlərinin biblioqrafiyası» adlı göstəricidir. Bu biblioqrafik göstərici vasitəsilə Fəlsəfə və Hüquq İnstitutunun Hüquq şöbəsi tərəfindən çap etdirilmiş ədəbiyyat haqqında biblioqrafik məlumatları öyrənmək mümkündür. Biblioqrafik göstəricidə xüsusi olaraq dövlət və hüquq bölməsi verilmişdir. Bu bölmə əsasında akademiyanın nəşriyyatı tərəfindən çap olunmuş hüquqi ədəbiyyatını öyrənmək olur. Hüquq fakültəsinin müvafiq kafedraları tərəfindən tədris ədəbiyyatının nəşri oxucular tərəfindən öyrənilməkdədir. Universitet kitabxanasının bu sahədə fəaliyyəti xüsusi qeyd olunmalıdır. Kitabxana tərəfindən «BDU alimlərinin elmi əsərləri» mövzusunda biblioqrafik göstərici çap olunmuşdur. Bu göstəricidə xüsusi olaraq Hüquqşünaslıq fakültəsinin və onun kafedraları əsasında yarımbölmələr verilmişdir. Biblioqrafik göstəricidə Hüquqşünaslıq fakültəsinin əməkdaşlarının hər hansı əsərini axtararkən göstərilən müvafiq bölmələr əsas götürülür.

Respublikada dövlət və hüquq üzrə ədəbiyyatın elmi-köməkçi, retrospektiv biblioqrafiyası da yaradılmışdır. Bu sahədə aparılan biblioqrafik işlərin əsası Akademiyanın məlumat mərkəzinin fəaliyyəti ilə əlaqədardır. Elmi Məlumat Mərkəzi tərəfindən 1920-ci ildən 1985-ci ilə qədər respublikamızda dövlət və hüquq üzrə çap olunmuş ədəbiyyat toplanmış və 1987-ci ildə (1920-1985-ci illəri əhatə edən) «Hüquq» adlı biblioqrafik göstərici çap olunmuşdur. Göründüyü kimi bu göstərici geniş dövrü əhatə etmişdir. Ona görə də biblioqrafik göstəricinin əhatə etdiyi dövr üzrə ədəbiyyatın mühüm elmi köməkçi, retrospektiv biblioqrafiyası hesab olunur. Biblioqrafik göstəriciyə hüquq elmləri doktoru, prof. Tofiq Qafarov tərəfindən elmi cəhətdən yüksək səviyyəli giriş məqaləsi verilmişdir. Giriş hissəsində biblioqrafiyanın müəyyən məlumatları öyrənmək üçün elmi əhəmiyyətə malikdir. Girişdə hüquqi təhsilin inkişafı, milli kadrların hazır-

lanması, hüquqi ədəbiyyatın yaranma tarixində fəaliyyət göstərən ayrı-ayrı cəmiyyətlər haqqında məlumatlar verilmişdir.

Biblioqrafik göstərici 2 dildə çap olunmuşdur. Rus və Azərbaycan dillərində çap olunmuş biblioqrafik göstərici hüquq ədəbiyyatının mühüm biblioqrafik məlumat hesab olunur. Biblioqrafik göstəricidə ədəbiyyat 27 bölmə üzrə sistemləşdirilmişdir. Biblioqrafik göstəricinin hər bir bölməsi hüquq elminin ayrı-ayrı sahələrini əhatə etmişdir. Göstəricidə verilmiş bölmələr məsələn, «Dövlət və hüquq» nəzəriyyəsi, «Hüquq tarixi», «Maliyyə hüququ», «Əmək hüququ», «Torpaq hüququ» və s. bölmələr üzrə qruplaşdırılmışdır. Bölmələrdən göründüyü kimi biblioqrafik göstərici hüquq elminin ayrı-ayrı sahələri üzrə tələbatın biblioqrafik təminatını həyata keçirir. Biblioqrafik göstəricidə dövlət və hüquq üzrə çap olunmuş kitablar, elmi məqalələr əks olunmuşdur. Tam bölmələrdən biri dünya miqyaslı hüquqşünas alim Cahangir Kərimova həsr olunmuşdur.

C.Kərimov Moskvada fəaliyyət göstərmiş, öz əsərlərini yazıb çap etdirməklə, geniş oxucu kütləsinə məşhur hüquqşünas alim kimi tanınmışdır. 24 kitabının 195 məqaləsinin, xarici dildə çap olunmuş 18 kitab və 74 məqaləsinin dünya oxucuları tərəfindən öyrənilməsi məqsədilə xarici dildə əsərlərini yazmasına da xüsusi əhəmiyyət vermişdir. O, hüquq məsələləri üzrə beynəlxalq konqreslərdə, simpoziumlarda öz dərin məzmunlu məruzəsi ilə çıxış etmişdir. O, hüquqşünaslıq məsələlərinə dair ən dərin elmi məqalələrini xarici dillərdə çap etdirmişdir.

Respublikada hüquqa aid biblioqrafik nəşrlər sistemində şəxsi göstəricilər də xüsusi yer tutur. İlk təşəbbüs olaraq BDU-nun kitabxanası tərəfindən 1996-cı ildə MM-in sədri olmuş Murtuz Ələsgərova həsr olunmuş «Murtuz Ələsgərov» adlı şəxsi biblioqrafik göstərici çap olunmuşdur. Biblioqrafik göstəricini filologiya elmləri namizədi, dos. Süleymanov Rasim tərtib etmişdir. Biblioqrafik göstərici müxtəlif bölmələrdən ibarətdir. Göstəricinin əvvəlində tərtibçi tərəfindən verilmiş qısa yazıda müəyyən biblioqrafik məlumatlar nəzərə çatdırılır. Sonra



«Murtuz Ələsgərovun həyatı, elmi pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri» adlı bölmə verilmişdir. Bu bölmə daxilində hüquqşünas alimin həyatı haqqında biblioqrafik məlumatlar öz əksini tapmışdır. Biblioqrafik göstəricidə verilən digər bölmələrdə onun tərtibçisi Rasim Süleymanov tərəfindən M.Ələsgərovun ictimai həyatı haqqında oçerk yazılmışdır. Burada alimin ictimai həyatı şərh olunmuşdur. Bu oçerk Azərbaycan və ingilis dilində çap olunmuşdur. Hüquqşünas alimin həyatı ilə əlaqədar bu bölmənin əhəmiyyəti çoxdur.

Səxsi biblioqrafik göstəricidə alimin əsərləri, müxtəlif kitabları, kitabçaları, məqalələri xüsusi bölmələrdə təsvir olunmuşdur. Əsərlərinin biblioqrafiyası, o cümlədən, dərslik, dərs vəsaitlərinin və metodik ədəbiyyat nəşrləri, elmi məqalələri xüsusi bölmələrdə təsvir olunmuşdur. Dissertasiyalara rəhbərlik, opponentlik ayrıca bölmədə əks etdirilmişdir. Biblioqrafik göstəricinin əsas bölmələrdən biri «Onun haqqında ədəbiyyat» adlanır. Alimin elmi pedaqoji, ictimai fəaliyyəti ilə əlaqədar müxtəlif müəlliflər tərəfindən çap etdirilmiş materiallar bu bölmədə öz əksini tapmışdır.

## 3.2. PEDAQOGİKA VƏ PSİXİLOGİYAÜZRƏ İNFORMASİYA RESURSLARI

Pedaqoji işçilərin biblioqrafik təminat sistemi milli biblioqrafiyanın təşkili və inkişafı ilə əlaqədardır. Pedaqogiya və psixologiya sosial-siyasi elmlərin tərkib hissəsi olmaqla təlim-tərbiyə prosesində bu elmlər mühüm yer tuturlar. Sosial-siyasi elmlərin ayrı-ayrı sahələri ilə yanaşı, pedaqogika və psixologiya üzrə ədəbiyyat öz əksini müxtəlif biblioqrafik mənblərdə tapır.

Azərbaycan respublikasının Dövlət Kitab Palatası tərəfindən çap olunmuş salnamələr pedaqogika və psixologiya üzrə ədəbiyyatın biblioqrafiyalaşdırılmasında və pedaqoji işçilərin biblioqrafik təminatında əsas mənbələrdən biri hesab olunurlar. Salnamələr eyni zamanda cari nəşrlərin öyrənilməsində birinci dərəcəli mənbələr kimi oxucular tərəfindən daim istifadə olunmuşdur. Salnamələrdə verilmiş xüsusi bölmələr üzrə pedaqogika və psixoogiya üzrə cari nəşrlərin təsviri verilmişdir.

«Azərbaycan mətbuat salnaməsi»ndə son illərədək «Ümumtəhsil məktəbi. Məktəb pedaqogikası», «Ali təhsil. Ali məktəbin pedaqogikası» adlanan yarım bölmələr bu sahə üzrə ədəbiyyatı özündə əks etdirmişdi. Salnamənin «Təhsil. Pedaqoji elmlər» adlanan əsas bölməsinin «Dərslik və dərs vəsaiti» yarım bölməsi dərsliklərin nəşri haqqında müxtəlif məlumatların öyrənilməsinə kömək dir.

Bu bölmələrlə «Birillik Azərbaycan kitabiyyatı»nda da tanış olmaq mümkündür.

Pedaqoji işçilərin biblioqrafik təminat sistemində elmi-köməkçi retrospektiv göstəricilər də mühüm yer tutur. Pedaqoji işçilər cari nəşrlərlə bərabər keçmişdə çap olunmuş kitablar, məqalələr haqqında məlumatları elmi-köməkçi göstəricilərdən öyrənməli olurlar. Bu məqsədlə müxtəlif biblioqrafik göstəricilər yaradılmışdır. Belə mühüm göstəricilərdən biri «Azərbaycan kitabı» hesab olunur. Onun hər iki cildinə pedaqoji xarakterli kitablar daxil edilmişdir. Birinci cilddən fərqli olaraq ikinci cilddə «Mədəniyyət. Maarif. Elm» adlanan xüsusi bölmə verilib. Əsas bölmə daxilində verilmiş yarım bölmələr pedaqoji xarakterli kitabların nəşri haqqında məlumatların öyrənilməsinə kömək edir.



Göstəricinin birinci yarım bölməsi «Ümumi məsələlər» adlanır. İkinci yarım bölmə «Elm. Elmi-tədqiqat işi» adı ilə verilib. Göstəricinin «Ailəvə məişət» adlanan bölməsi də bu cəhətdən əhəmiyyətlidir. Göstəricidə verilmiş pedaqoji xarakterli kitabların bölmələr üzrə olan sistemləşdirilməsində pedaqogika və pedaqoji-psixologiya məsələləri üzrə çap olunmuş kitablar da öz əksini tapa bilmişdi. Göstəricinin «Pedaqogika. Pedaqoji-psixologiya» adlanan bölməsi oxucular üçün əhəmiyyətlidir. Göründüyü kimi «Azərbaycan kitabı» pedaqogika və psixologiya üzrə çap olunmuş ədəbiyyatın mühüm mənbəyi hesab olunur. Pedaqoji ədəbiyyatın oxucuları müxtəlif məktəbəqədər tərbiyə işi ilə məşğul olan işçilər üçün çap olunan kitablar göstəricinin «Məktəbəqədər tərbiyə işi» adlanan bölməyə daxil edilmişdi. Göstəricinin «Ümumtəhsil məktəbi» adlanan bölməsi də bu məqsədlə verilmişdi. Burada bölmələrin müxtəlifliyi ədəbiyyatın nəşri ilə əlaqədar olaraq oxucuların müxtəlif olması ilə əlaqədardır. Bölmələrin hər biri müəyyən oxucu qruplarının sorğularınınödənilməsinə kömək edir. Bu cəhətdən «Azərbaycan kitabı» pedaqoji işçilərin biblioqrafik təminatında mühüm əhəmiyyətə malikdir.

Göstəriciyə daxil edilmiş kitabların təsvirində, kitabın çapa hazırlanmasında iştirak edən müəssisə, idarə və təşkilatların adları da verilib. Bunun verilməsi oxucuların sorğularının ödənilməsinə kömək edir. göstəricinin pedaqogika və psixologiya ilə əlaqədar bölmələri müxtəlif miqdarda ədəbiyyatı özündə əks etdirmişdi.

Göstəricinin «Mədəniyyət. Maarif. Elm» adlanan əsas bölməsinin yarım bölmələrindən biri «Dərsliklər və dərs vəsaiti» adlanır. Bu bölməyə 742 dərslik və dərs vəsaiti daxil edil-

mişdir. Bu rəqəmlərdən göründüyü kimi göstəricinin əhatə etdiyi dövrdə də xeyli işlər görülmüşdür. Tədris ədəbiyyatının nəşri sahəsində görülmüş işlər pedaqoji işçilərin tələbatının ödənilməsinə kömək etmək cəhətdən diqqəti cəlb edir. Göstəricinin bu bölməsindən sonra «Peşə texniki təhsili», «Orta ixtisas təhsili», «Ali məktəb» adlanan yarım bölmələrin verilməsi də bu sahələrdə çalışan pedaqoji işçilərin biblioqrafik təminatı üçün əhəmiyyətlidir.

Pedaqoji işçilər təhsil sisteminin ayrı-ayrı sahələrində çalışdıqları üçün onların biblioqrafik təminat sistemində həmin sahələrə aid ədəbiyyatın nəri ilə əlaqədardır. 1920-ci ildən sonra respublikamızda bu sahələrə aid ədəbiyyatın nəşri pedaqoji biblioqrafiyanın yaranmasına da təsir etmişdi. «Azərbaycan kitabı» göstəricisindəverilmiş bölmələrə müvafiq olaraq başqa biblioqrafik göstəricilərdə də tədris-pedaqoji ədəbiyyatın biblioqrafik təsviri verilmişdir.

Pedaqoji Universitetin kitabxanasının fəaliyyəti təqdirəlayiqdir. Təhsil sisteminin ayrı-ayrı sahələrində çalışan pedaqoji işçilərə kömək məqsədilə universitet təşkil olunduğu gündən dərsliklərin, dərs vəsaitlərinin, metodik ədəbiyyatın, proqramların hazırlanıb çap etdirilməsində böyük işlər görülmüşdür. Universitet qiyabi təhsil alan tələbələrə kömək məqsədilə həmçinin çoxlu tədris ədəbiyyatının biblioqrafik göstəricisinin çap olunması universitet nəşrlərinin biblioqrafiyası tarixində mühüm yer tutur. Ş.Hüseynova 1938-1962-ci illərdə universitetin qiyabi şöbəsi tərəfindən çap etdirilmiş vəsaitləri toplamış və həmin vəsaitlər əsasında «Azərbaycan Dövlət Pedaqoji İnstitutunun qiyabi şöbə üzrə vəsait nəşrinin sistemli göstəricisi»ni çap etdirmişdir.

Göstəricinin pedaqojiişçilər üçün olan əsas əhəmiyyəti odur ki, geniş bir dövr üzrə qiyabi təhsil alan tələbələr üçün çap olunmuş vəsaitlər haqqında məlumatları bu göstəricidən öyrənmək mümkün olur. Başqa əhəmiyyətli cəhətlərindən biri də odur ki, pedaqoji işçilər göstərici vasitəsilə Pedaqoji Universitetin tədris ədəbiyyatının yaranması tarixində onun nəşriyyat fəaliyyəti ilə tanış ola bilir.



Göstəricidə verilən bölmələr, ədəbiyyatın qruplaşdırılması pedaqoji işçilərin ayrı-ayrı sahələrdə tədris işlərinə, tədrislə əlaqədar çap olunmuş kitabların nəşrinə aid sorğularının ödənilməsinə kömək etmiş olur. Göstəricinin birinci əsas bölməsi «Pedaqogika» adlanır. Pedaqogika fənni məlum olduğu kimi Pedaqoji Universitetdə, Azərbaycan Dillər Universitetində, Bakı Dövlət Universitetində tədris olunan əsas fənlərdən biri hesab olunur. Göstəricinin «Pedaqogika» adlanan bölməsi bu fənnə aid qiyabiçi tələbələr üçün universitetin çap etdirdiyi kitablar haqqında tam məlumat əldə etmələrinə kömək edir. Burada pedaqogika üzrə orijinal, həm də tərcümə nəşrinin biblioqrafik təsviri verilmişdir.

Pedaqoji Universitetdə «Məktəb gigiyenası « məlum olduğu kimi xüsusi bir fənn kimi tədris olunur. Bu fənni tədris edən müəllimlər və onu öyrənən tələbələr bu sahədə çap olunmuş kitabları və başqa metodik ədəbiyyatı öyrənməli olurlar. Göstəricinin müəllifi bu sahədə pedaqoji işçilərə, tələbələrə kömək məqsədilə xüsusi olaraq «Məktəb gigiyenası» adlı bölmə verməklə bu fənnə aid çap olunmuş kitabların biblioqrafik təsvirini vermişdir. Göstəricinin birinci bölməsində olduğu kimi burada da tərcümə və orijinal nəşrlər öz əksini tapa bilmişdi. Pedaqoji işçilər üçün daha maraqlı olan bölmələrdən biri də göstəricidə verilmiş «Pedaqogika tarixi» adlanır. Bu bölmə pedaqogika fənninin tarixində əsas yer tutur. Bu fənni tədris edən müəllimlər lazım olan dərslikləri, dərs vəsaitlərini, metodik ədəbiyyatı öyrənməli olurlar. Göstəricinin müəllifi bu sahədə pedaqoji işçilərə kömək məqsədilə pedaqoji tarixə aid universitet tərəfindən çap olunmuş kitabları toplayıb bu bölməyə daxil etmişdir.

Məktəbəqədər tərbiyə müəssisələrinin işçiləri də pedaqoji ədəbiyyatın əsas oxucularından biri hesab olunur. «Məktəbəqədər tərbiyə» həmçinin universitetin müvafiq fakültələrində təd-

ris olunan xüsusi fənn hesab olunur. Bu fənnə aid çap olunmuş ədəbiyyatı fənni tədris edən müəllimlər, həm də məktəbəqədər tərbiyə müəssislərində çalışan işçilər öyrənirlər. Bu sahədə çalışan işçilərə kömək məqsədilə göstəricidə «Məktəbəqədər tərbiyə» adlanan xüsusi bölmə verilmişdir. Pedaqoji Universitet tərəfindən məktəbəqədər tərbiyə məsələlərinə aid çap olunmuş tədris ədəbiyyati burada öz əksini tapa bilmişdir.

Göstəricidə verilmiş ayrı-ayrı bölmələrin mövzularından göründüyü kimi universitet tərəfindən çap etdirilmiş bu göstərici müxtəlif pedaqoji işçilər üçün nəzərdə tutulmuşdur. Göstəricinin tərtibi metoikası, bölmələrin verilməsi üzrə əbiyyatın sistemləşdirilməsində metodik qayda-qanunlar nəzərə alınmaqla tələb olunan qaydada tərtib olunmuşdur. Göstəricinin bölmələri daxilində ədəbiyyat əlifba qaydasında tərtib olunmuşdur. Hər bir bölmədə dərsliklər, dərs vəsaitləri, proqramlar, metodik vəsaitlər öz əksini tapa bilmişdir. Göstəricinin çapa hazırlanması Pedaqoji Universitetin kitabxanasının adı ilə bağlıdır.

Göstərici çap olunduğu il Azərbaycan biblioqrafiyasının inkişafının ilk dövrləri hesab olunur. Universitet kitabxanasının bu sahədə fəaliyyəti milli biblioqrafiyanın inkişafı tarixində ilk addım kimi qiymətləndirilməlidir. Pedaqoji işçilərin biblioqrafik təminatı sahəsində Bakı Dövlət Universiteti Kitabxanasının fəaliyyəti də təqdirəlayiqdir. Universitet Kitabxanasının bu sahədə olan əsas fəaliyyəti fakültələr, müvafiq kafedralar üzrə çalışan professor-müəllim heyəti tərəfindən çap etdirilmiş əsərlərin biblioqrafiyasını yaratmaq kimi çox mühüm bir işlə izah olunur. Bu işin təşkilinin başlanğıcı universitetin kitabxanasının keçmiş direktoru K.Həsənovun xidmətləri ilə əlaqədardır. Onun təşəbbüsü nəticəsində elm sahələri üzrə universitet alimlərinin əsərlərinin elmi-köməkçi biblioqrafiyası çap etdirilmişdir. Göstəricini humanitar və sosial-siyasi elmlər üzrə «Azərbaycan Dövlət Universiteti alimlərinin elmi əsərləri» adlanan nəşrində xüsusi olaraq «Pedaqogika kafedrası» adlanan bölmə



verilmişdir. Bu bölmə üzrə verilmiş elmi əsərlərin biblioqrafik təsviri pedaqoji işçilərin sorğularının ödənilməsinə kömək edir.

1981-ci ildə «Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu əməkdaşlarının nəşr olunmuş mühüm əsərləri (1931-1981)» adlı biblioqrafik göstərici mühüm əhəmiyyət kəsb edir. Göstərici institut nəşrləri haqqında hər cür məlumatı özündə əks etdirmişdir. Göstəriciyə daxil edilmiş materiallar: «Pedaqogika, psixologiya və xüsusi metodikalar üzrə», «Dərsliklər və dərs vəsaiti», «Didaktik material və əyani vəsait» adlı bölmələr üzrə əlifba qaydasında düzülüb təsvir edilmişdir. Göstəricinin bölməlri üzrə verilmiş materiallar pedaqoji işçilərin biblioqrafik təminatı üçün əhəmiyyətlidir. Pedaqoji işçilərin biblioqrafik təminatında şəxsi biblioqrafik göstəricilərin də əhəmiyyəti çoxdur.

Başqa sahələrdə tanınmış şəxslərlə yanaşı görkəmli pedaqoqlar haqqında da xeyli şəxsi göstəricilər çap olunmuşdur. Prof. Ə.Dəmirçizadə haqqında çap olunmuş şəxsi göstərici bu sahədə mühüm əhəmiyyətə malikdir. Göstərici uzun müddət Akademiya kitabxanasında çalışmış M.Fərzəliyev tərəfindən tərtib edilmişdir. Dilçi alim Ə.Dəmirçizadə Azərbaycan dilinin tədqiqi sahəsində, həmçinin tədrisində tanınmış alim idi. Onun haqqında çap edilmiş göstəriciyə filoloji elmlər namizədi Əziz Əfəndizadə tərəfindən giriş yazılıb. Girişdə Ə.Dəmirçizadənin dilçilik elminin sahələri üzrə apardığı tədqiqatlar və həmin sahələrə aid çap etdirdiyi əsərlər haqqında oxuculara məlumat vermişdir.

Göstəricinin «Əsərlərinin biblioqrafiyası» adlanan bölməsində alimin 1936-1969-cu ilədək çap olunmuş 33 adda kitablarının o cümlədən dərsliklərinin, proqramlarının təsviri verilmişdir. Əsərləri nəşr tarixlərinə görə düzülmüşdür. Göstəricinin ikinci əsas bölməsi «Həyatı və yaradıcılığı haqqında ədəbiyyat» adlanır. Burada alimin pedaqoji fəaliyyəti haqqında xeyli miqdarda ədəbiyyatın təsviri verilib. Cəmi 44 məqalə toplanıb göstəriciyə daxil edilməklə alimin elmi fəaliyyətinə aid olan materiallar verilmişdir.

Pedaqogika və psixologiya üzrə biblioqrafik göstəricilərin çap etdirilməsində Respublika Elmi-Pedaqoji kitabxanasının fəaliyyəti də yüksək qiymətləndirilməlidir. Kitabxana «Azərbaycanın görkəmli maarif xadimləri» seriyası ilə respublikanın görkəmli pedaqoqları haqqında şəxsi göstəricilər çap etdirmişdir.

"Əhməd Seyidov" adlı biblioqrafik göstərici pedaqoji sahədə çap olunmuş şəxsi göstəricilərin ən maraqlı nümunəsi hesab olunur.

Pedaqoji elmlər doktoru, professor Hüseyn Əhmədov göstəricinin giriş hissəsində Ə.Seyidov haqqında yazmışdı: «Ə.Seyidov Azərbaycanda məktəb və pedaqoji fikir tariximizin tədqiqi sahəsində tam bir məktəb yaratmışdır. XII əsrin böyük mütəfəkkiri N.Gəncəvidən əsrimizin əvvəllərinə M.Ə.Sabir, F.Köçərliyə qədər xalqımızın bir çox pedaqoqlarının-maarifçilərinin pedaqoji fəaliyyətləri və görüşlərini çoxminli müəllimlərə-oxuculara çatdırılması hər kəsdən əvvəl Ə.Seyidovun unudulmaz xidmətlərindəndir». Göründüyü kimi Ə.Seyidov Azərbaycanda pedaqogika elminin çox böyük tədqiqatçısı kimi tanınmışdır. Göstərici alimin həyat və fəaliyyəti, əsərlərinin nəşri haqqında pedaqoji işçilərin sorğularının ödənilməsi üçün çox maraqlı vəsait hesab olunur. Göstəricinin əvvəlində «Tərtibçidən» başlığı ilə yazı çap edilib. Burada göstəricinin tərtibi metodikası, bölmələri, əsərlərin biblioqrafik qaydada sistemləşdirilmə prinsipləri, oxucu istiqaməti və s. yığcam şəkildə izah edilmişdir. Girişdən sonra «Ə.Seyidovun həyat və fəaliyyətinin əsas tarixləri» adlanan bölmə verilib. Bu, pedaqoji işçilərin sorğularının ödənilməsi üçün əhəmiyyətlidir.

Pedaqoji sahədə çalışanların bəziləri tədrislə, məruzə və çıxışlarla əlaqədar olaraq görkəmli pedaqoqların həyat və fəaliyyətinin müəyyən dövrlərinə aid tarixi faktları öyrənməli olurlar. Bu cəhətdən göstəricinin həmin bölməsi sorğulara cavab vermək üçün maraqlı mənbə hesab olunur. Bu bölmədə alimin həyat və fəaliyyətinin əsas tarixləri üzrə 1911-ci ildən 1977-ci ilədək olan tarixi faktlar burada ardıcıllıqla öz əksini tapa bilmişdir. Burada



verilmiş müəyyən tarixi faktları araşdırıb tapmaq üçün çoxlu mənbələrə baxmaq lazım gəlir. Oxucular və kitabxana işçiləri vaxt itirmədən göstəricinin bu bölməsindən istifadə etməklə lazım olan məlumatları asanlıqla müəyyənləşdirə bilər.

Pedaqoji sahədə çalışanlar üçün göstəriciyə prof. H.Əhmədov tərəfindən yazılmış giriş hissəsi də maraqlı yazılmışdır. Təxminən 12 səhifəlik girişdə müəllif alimin elmi-pedaqoji fəaliyyətini dövrlə, kokret faktlarla izah etmişdir. Giriş hissənin məzmunlu, əhatəli, tarixi faktlarla yazılması göstəricinin əhəmiyyətini artırır. Girişdən sonra alimin əsərlərinin biblioqrafik təsviri verilmişdir.

Göstəricinin «Əsərləri» adlanan hissəsində çap olunmuş kitabları təsvir edilmişdir. Kitabların təsvirindən çonra hər bir kitabın mündəricat hissəsi verilməklə onların əhatə etdiyi dövrlər, mövzuları, tədqiqatın istiqamətləri haqqındaxülasə verilmişdir. Göstərici izahlı hesab olunur. Burada alimin kitablarının bu qaydada təsvir edilməsi, onların məzmununun açılması oxucular üçün əhəmiyyətlidir. Kitablara verilmiş geniş annotasiya hər bir kitabın məzmunu ilə oxucuları tanış edir.

Göstəricinin ikinci bölməsi «Dövri mətbuatda, məcmuələrdə çap olunmuş əsərləri» adlanır. Müəllif çoxlu dövrü mətbuatı, biblioqrafik nəşrləri gözdən keçirməklə ayrı-ayrı dövri mətbuatda, məcmuələrdə çap olunmuş məqalələrini toplayıb göstəriciyə daxil etmişdir. Göstəricinin bu bölməsinə pedaqoqun cəmi 78 məqaləsi daxil edilmişdir.

Bu bölmədən bir daha məlum olur ki, Ə.Seyidovun dövri mətbuatda ilk məqaləsi 1926-cı ildə çap olunmuşdur. Göstəricinin ikinci hissəsində Ə.Seyidovun rus dilində olan əsərləri öz əksini tapa bilmişdir. Burada cəmi 28 məqaləsi təsvir edilmişdir. Göstəriciyə Ə.Seyidovun həyatı, elmi-pedaqoji fəaliyyəti haqqında olan materiallar da daxil edilməklə əlifba qaydasında düzülmüşdür. Göstəricidən məlum olur ki, Ə.Seyidovun rəhbərliyi ilə 38 dissertasiya yazılıb müdafiə olunmuşdur.

Göstəricidən istifadəni asanlaşdırmaq üçün alimin əsərlərinin əlifba göstəricisi verilmişdir.

Pedaqoji sahədə tanınmış görkəmli alimlərdən biri Hüseyn Əhmədovdur. Onun pedaqogikanın müxtəlif problemlərinə aid çoxlu məqalələri çap olunmuşdur. Alimin əsərləri ilə oxucuları tanış etmək, oxuculara az məlum olan əsərlərini üzə çıxarmaq məqsədilə Tusi adına Pedaqoji Universitetin alimlərindən F.Rüstəmov, H.Bayramov tərəfindən H.Əhmədovun əsərləri toplanıb 1990-cı ildə 112 səhifədən ibarət göstərici halında çap olunmuşdur. Göstərici 1951-1990-cı illəri əhatə edir. Alimin həyat və fəaliyyəti, əsərlərinin nəşri haqqında bu illərə aid məlumatları göstəricidən öyrənmək olur. Göstəriciyə onun kitabları, məqalələri ilə yanaşı, redaktoru olduğu kitablar, ümumittifaq və respublika elmi-praktiki konfranslardakı çıxışlarının qısaldılmış mətni, tezisləri də daxil edilmişdir.

Göstəriciyə H.Əhmədovun Azərbaycan dilində nəşr olunmuş əsərlərinin adları rus, gürcü dillərində nəşr olunmuş məqalələrinin adları ilə müvafiq qaydada Azərbaycan dilinə tərcümə edilib göstəriciyə daxil edilmişdir. Alimin əsərləri nəşr tarixlərinə görə düzülmüşdür. Tərtibçilər tərəfindən göstəricinin əvvəlində «Ömrün yadda qalan səhifələri» adlı giriş çap edilib. Burada alimin həyat və fəaliyyətinin istiqamətləri oçerk şəklində verilmişdir.

Göstəricinin «Həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri» adlı bölmə də oxucular üçün maraqlıdır. Göstəricinin əsas bölməsi «Əsərləri» adlanır. Bu bölməyə alimin 1955-1990-cı illərdə çap olunmuş əsərləri daxil edilmişdir. Əsərlər nəşr illərinə görə düzülmüşdür. Əsərlərin təsvirindən sonra annotasiya verilmişdir. Annotasiya hər bir əsərin məzmunu ilə oxucunu tanış edir. Azərbaycan dilində olan əsərlrə rus dilində, rus dilində olanlara isə Azərbaycan dilində annotasiya verilmişdir. Göstəricinin əsas bölmələrindən birini «Azərbaycan Sovet Ensiklopediyasında nəşr olunmuş məqalələr» adalnır. Burada alimin 45 adda məqaləsinin təsviri verilmişdir. «Qəzet məqalələri» adlanan bölməyə 1951-1989-cu illərdə çap olunmuş məqalələri verilmişdir. «Redaktə etdiyi əsərlər» adlanan bölməyə 36 adda kitabın təsviri verilib. «Dissertasiya işlərinə elmi rəhbərlik» adlanan bölmədə 27 dissertasiya işinin təsviri verilmişdir.



Oxucular üçün əhəmiyyətli olan bölmələrdən biri «Elmi-pedaqoji fəaliyyəti və əsərləri haqqında ədəbiyyat» adlanır. Bu bölməyə xeyli miqdarda ədəbiyyat daxil edilmişdir.

Elmi-pedaqoji kitabxananın «Azərbaycanın görkəmli maarif xadimləri» seriyası ilə çap etdirdiyi şəxsi göstəricilərdən biri də 1992-ci ildə çap olunmuş «Akademik Mehdi Mehdizadə» adlanır. Göstəricinin əvvəlində çap olunmuş «Görkəmli alim və maarif xadimi» adlı girişdə deyilir: «1920-ci ilin noyabrından doğma Daşkəsən kəndində qiraət komasının müdiri kimi müxtəlif mədəni tədbirlər həyata keçirməyə başlayır. Lakin Mehdi müəllim olmaq, millətin balalarına dərs demək, bilik öyrətmək arzusundan əl çəkə bilmir». Kənddə qiraət komasının müdiri vəzifəsindən akademik kimi yüksək elmi adı olan bu böyük maarif xadimi haqqında maraqlı biblioqrafik göstəricinin çap olunmasıböyük alimin zəngin pedaqoji irsinin pedaqoji sahədə çalışan oxucular arasında təbliğ olunması üçün mühüm əhəmiyyətə malikdir.

Göstərici «Bir neçə söz» başlığı ilə çap olunmuş yazı ilə başlayır. H.Musayevin yazmış olduğu bu yazıda göstəricinin əhəmiyyəti, M.Mehdizadənin həyatına aid mühüm məlumatları oxucuların nəzərinə çatdırmaqla alimin əsərlərinin ümumi xülasəsini vermişdir. Göstəricidə bölmə kimi verilmiş «Mehdi Mehdizadənin həyatı və elmi-pedaqoji fəaliyyətinin əsas tarixləri» adlı bölmə verilmişdir. Burada görkəmli pedaqoqun həyatı ilə əlaqədar olaraq 1919-1984-cü ilədək olan tarixlər ardıcıl olaraq öz əksini tapa bilmişdi. Göstəricinin geniş bir dövrü əhatə edən bu hissəsi M.Mehdizadənin həyatı və elmi-pedaqoji fəaliyyəti ilə əlaqədar olan bütün tarixi məlumatların öyrənilməsinə kömək edir.

Əjdər Ağayev tərəfindən göstərici üçün yazılmış «Görkəmli alim və maarif xadimi» adlı oçerk oxucular üçün maraqlıdır. Burada verilmiş faktlar, məlumatlaroxucu sorğularının ödənilməsinə kömək edir. Göstəricinin biblioqrafiya hissəsi alimin kitab halında çap olunmuş əsərlərinin biblioqrafik təsvirini özündə əks etdirən bölmə «Əsərləri» adlanır. Bu bölmədə onun 13 kitabının təsviri verilmişdir. Bu bölmənin ikinci yarım bölməsində M.Mehdizadənin rus dilində çap olunmuş 7 kitabının təsviri verilib. Göstəricidən öyrənirik ki, M.Mehdizadənin ingilis dilində kitabı çap edilmişdir.

Göstəricinin «Dövri mətbuatda çap olunmuş əsərləri» adlanan bölmənin də oxucular üçün əhəmiyyəti çoxdur. Alimin müxtəlif dövrün nəşrlərdə çap olunmuş 164 məqaləsinin təsviri verilmişdir. Göstəricinin bir yarım bölməsində M.Mehdizadənin rus dilində çap olunmuş 48, xarici dildə olan 4 məqaləsi təsvir edilmişdir. Göstəriciyə M.Mehdizadənin həyatı, elmi-pedaqoji fəaliyyəti haqqında olan materiallar da daxil edilmişdi. Bu da pedaqoji sahədə çalışan elmi işçilər, müəllimlər üçün maraqlıdır. Göstəricidən istifadəni asanlaşdırmaq üçün «Mehdizadənin əsərlərinin əlifba göstəricisi» adlı köməkçi aparat verilmişdir.



## 3.3. DİLÇİLİK ÜZRƏ İNFORMASİYA RESURSLARI

Sosial-siyasi informasiya resurslarının çox geniş sahələrindən biri də dilçiliyə dair resurslardır. Dilçilik elmi ayrı-ayrı tədqiqat müəssisələrində tədqiq edilib öyrənilir və geniş şəkildə tədris olunur. Dilçilik üzrə ədəbiyyatın nəşrilə əlaqədar olaraq bu sahədə tələblərin tərkibi də müxtəlitfdir. Dilçilik üzrə ədəbiyyatın nəşri və inkişafı da respublikamızın ən böyük aparıcı elmi müəssisələrindən biri Azərbaycan Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu hesab olunur. Bu institut Azərbaycanda dilçiliyin ayrı-ayrı sahələri üzrə tədris ədəbiyyatının elmi ədəbiyyatın və eləcə də məlumat nəşrinin müxtəlif lüğətlərin yaranmasında çox böyük elmi tədqiqat işləri aparmaqdadır. Dilçilik müstəqil bir fənn olmaqla müvafiq universitetlərin fakültələrində geniş şəkildə tədris olunur.

Dilçiliyin tədrisi tədris ədəbiyyatının yaradılmasına çox böyük təsir göstərmişdir. Müxtəlif xarici dillər – məsələn: alman, fransız, ingilis, türk, fars dilləri tədris edilmişdir. Azərbaycan dilinin tədrisi ildən-ilə təkmilləşmiş və müstəqillik şəraitində onun rolu çox artmışdır. Hal-hazırda Azərbaycan dili dövlət dili hesab olunur. Ona görə də respublikamızın müstəqilliyə qədəm qoyduğu dövrdə respublika hökuməti Azərbaycan dilinin inkişafına, ədəbiyyat nəşrinə artıq elmi müəssisələrdə Azərbaycan dilində danışığa xüsusi əhəmiyyət verir. Ona görə də Azərbaycan dilinin müstəqillik dövrünə kimi öyrənilməsində ədəbiyyatın çox böyük rolu var. Dilçilik üzrə ədəbiyyatın yaradılması Azərbaycan dilinin inkişaf etməsinə təsir göstərən amillərdən biridir. Dilçilik üzrə ədəbiyyatın nəşri genişləndikcə oxucu qruplarının tərkibi də dəyişmişdir. Dilçilik üzrə tələblərin sorğularına kömək məqsədilə dilçiliyin biblioqrafik nəşrlər sistemi yaradılmışdır. Bu sistem dilçilik üzrə ədəbiyyatı özündə əks etdirən biblioqrafik resurslar hesab olunur.

Dilçilik üzrə ədəbiyyatın biblioqrafik nəşrlər sistemində cari nəşrlər biblioqrafiyasının yaradılmasında AMEA MEK-in fəaliyyəti təqdirəlayiqldir. 1970-ci ildən sonra kitabxana Azərbaycanda ictimai elmlər üzrə ədəbiyyat nəşrinin biblioqrafiyasının yaradılmasına ardıcıl olaraq sosial-siyasi elmlər üzrə çap olunmuş nəşrlər haqqında resurslarıoxuculara çatdırır. «İctmai elmlər üzrə Azərbaycanda ədəbiyyatın nəşri» mövzusunda biblioqrafik göstəricinin illər üzrə nəşr olunması 1980-cı illərin axırlarına qədər davam etmişdir. Bu dövrdə sosial-siyasi elmlər üzrə ədəbiyyatın nəşri dilçilik üzrə dəədəbiyyat nəşrinin genişlənməsi və öyrənilməsi sahəsində biblioqrafik göstəricinin rolu get-gedə artmışdır.

Lakin keçmiş SSRİ-nin dağılmasından sonra ümumiyyətlə ədəbiyyat nəşri sahəsində maliyyə vəsaitinin çatışmaması bu biblioqrafik vəsaitlərin sonrakı illərdə çap olunmasına mənfi təsir göstərmişdir. Ona görə də cari nəşrlərin çap olunması dayandırılmışdır. Dilçilik üzrə ədəbiyyatın biblioqrafik göstəriciləri nəşrlər sistemində xüsusi yer tutur. Məsələn, Azərbaycan Ensiklopediyasının III cildində «dilçilik» bölməsi verilmişdir. Bu bölmə daxilindədilçilik sahəsində fəaliyyət göstərmiş alimlər haqqında, dilçilik institutu haqqında, dilçiliyə dair ədəbiyyat nəşri haqqında və s. yazılar çap olunmuş və bu yazılarda oxuculara lazım olan biblioqrafik xarakterli məlumatlar çatdırılmışdır. Ona görə də ensiklopediya oxucu sorğularının ödənilməsində mühüm əhəmiyyət kəsb edilir. Fundamental biblioqrafik resurslardan olan «Azərbaycan kitabı»nın II cildində «İctimai elmlər bütövlükdə» adlı bölmə verilmişdir. Bu bölmə daxilində sosial-siyasi elməlrin ayrı-ayrı sahələrilə yanaşı dilçilik üzrə də yarımbölmələr verilmişdir.

Bu bölmə daxilində 1920-1940-cı ilə qədər respublikada dilçiliyə dair çap olunmuş ədəbiyyat haqqında biblioqrafik məlumatları öyrənmək olur. Ümumi xarakterli biblioqrafik göstəricilərdən Azərbaycan EA nəşrlərinin biblioqrafiyası da mühüm biblioqrafik mənbə hesab olunur. Akademiyanın Nəsimi



adına dilçilik institutunun nəşrləri haqqında biblioqrfik məlumatları bu biblioqrafik göstəricidə verilmiş dilçilik bölməsindən öyrənmək olur. Bu mənbələrlə yanaşı dilçilik üzrə ədəbiyyatın elmi-köməkçi biblioqrafiyası sistem halında verilmişdir. Dilçilik üzrə ədəbiyyatın biblioqrafiyasının yaradılmasında dilçi alimlərimizin fəaliyyəti təqdirəlayiqdir. Məsələn, Akademiyanın dilçilik institutunda uzun müddət işləmiş prof. Şəmsəddin Sədiyevin biblioqrafik fəaliyyəti xüsusi yer tutur. Şəmsəddin Sədiyev Azərbaycan dilinin ən tanınmış tədqiqatçılarından olmuşdur. O apardığı tədqiqatların, ədəbiyyat axtarışı, dilçiliyə dair müxtəlif xarakterli biblioqrafik göstəricilərin, lüğətlərin yaranmasında çox böyük əmək sərf etmişdir.

Şəmsəddin Sədiyevin 1960-cı ildə çap etdirdiyi «Azərbaycan dilçiliyinin biblioqrafiyası» adlı biblioqrafik resurs 1920-ci ildən 1960-cı ilə qədər Azərbaycan dilçiliyinə aid ədəbiyyatın biblioqrafik mənbəyi hesab olunur. Ş.Sədiyev dilçiliyin ayrı-ayrı sahələri üzrə ədəbiyyatı qruplaşdırarkən dilçiliyə aid tələbatçılarınsorğularının ödənilməsi və bu məqsədlə biblioqrafik bölmələrin məntiqi ardıcıllıqla verilməsinə xüsusi diqqət yetirmişdir. Onun biblioqrafik göstəricisi Azərbaycan dilçilik tarixinin öyrənilməsində mühüm biblioqrafik mənbə hesab olunur.

Azərbaycanın dilçialimlərinin elmi fəaliyyəti haqqında biblioqrafik göstəricinin giriş hissəsində bəhs edilmişdir. Bu cəhətdən biblioqrafik göstəricinin giriş hissəsi oxucuların sorğularının ödənilməsində əhəmiyyətli elmi biblioqrafik xarakterli oçerk hesab olunur. Ş.Sədiyev biblioqrafik göstəricinin tərtibi metodikasını, ədəbiyyat sistemini, biblioqrafik təsvirlərinin verilməsini və s. kimi məsələləri metodikanın tələblərinə uyğun olaraq həyata keçirmişdir. Ş.Sədiyev biblioqrafik göstəricidən istifadəsini asanlaşdırmaq üçün yardımçı aparat tərtib etmişdir. Onun tərtib etdiyi yardımçı aparat biblioqrafik göstərici ilə əlaqədar hər bir biblioqrafik məlumatın öyrənilməsini asanlaşdırır. Məsələn, müəlliflərin adlar göstəricisi, qısaldılmış adlar göstəricisi, əsərlərin mövzu göstəricisi və s. kimi yaradıl-

mış göstəricilər alimin biblioqrafik təcrübəsi sahəsində aparılan biblioqrafik işlərinin nəticəsi hesab olunur.

O, Azərbaycan dilçiliyin aid ədəbiyyatın biblioqrafiyası sahəsində öz fəaliyyətini davam etdirməklə 1920-ci ildən 1980-ci ilə qədər olan dövr üzrə biblioqrafik əsərdə 4289 ədəbiyyatın təsvirini vermişdir. Ş.Sədiyevin bu sahədə olan fəaliyyəti biblioqrafik göstəricinin təkmilləşdirilməsi, təkrar nəşrinin meydana çıxmasına əyani sübutdur. «Azərbaycanın ictimai elmləri seriyası» ilə 1981-ci ildə Ş.Sədiyevin tərtib etdiyi (1981) «Dilçilik» adlı biblioqrafik əsər «Elm» nəşriyyatı tərəfindən çap olunmuşdur. Ş.Sədiyevin topladığı materiallar dilçiliyin ayrı-ayrı sahələri üzrə 44 bölmə üzrə sistemləşdirilib həyata keçirilmişdir. Biblioqrafik göstəricinin daxili quruluşu əsas bölmənin, yarımbölmələrin verilməsi dilçilik üzrə ədəbiyyatın məzmunu və oxucu istiqaməti ilə əlaqədardır.

Dilçilik üzrə ədəbiyyatı sistemləşdirərkən ali məktəbdə tədris olunan müxtəlif fənlər, məsələn, morfologiya, sintaksis. Əlifba, dil tarixi, tarixi qrammatika, Azərbaycan dilinin tarixi, ədəbiyyat, dil və s. kimi bölmələr verilməklə biblioqrafik göstəricidə xüsusi yer tutur. Ona görə də ədəbiyyatın qruplarını, biblioqrafiyalaşmasını həyata keçirərkən dilçilik elminin tədrisi və inkişafı baxımından hər bir bölmənin məntiqi ardıcıllığına xüsusi fikir verilir. Ona görə də Ş.Sədiyevin «Dilçilik» adlanan biblioqrafik göstəricisi elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir. «Dilçilik» adlı göstəricinin əvvəlki nəşrinin təkmilləşdirilmiş, təkrar nəşr olunduğuna görə ədəbiyyatın tam əhatə olunması biblioqrrafik göstəricidən aydın olur. Çünki biblioqrafik göstəricidə verilmiş 44 bölmə tələbələrin biblioqrafik təminatında xüsusi yer tutur. Biblioqrafik göstəricinin təkrar nəşrində də onun köməkçi aparatı da təkmilləşmişdir. Bu məqsədlə Ş.Sədiyev dilçilik üzrə elmi cəmiyyətlərin ədəbiyyat nəşri sahəsində fəaliyyətinin, respublika daxilində keçirilmiş elmi konfransları, eləcə də beynəlxalq elmi konfranslarda alimlər tərəfindən oxunan məruzələrin materialları ilə əlaqədar



oxucularakömək məqsədilə müxtəlif xarakterli yardımçı aparat vermişdir. Məsələn, "Qısaldılmış sözlərin göstəricisi biblioqrafik göstərici" daxilində verilmiş müxtəlif sözlərin mənasının aydınlaşdırılmasına köməklik göstərir.

Ş.Sədiyevin biblioqrafik fəaliyyətində lüğətlərin biblioqrafiyasının yaradılması da xüsusi yer tutur. Lüğətlər müxtəlif sözlərin lüğəti mənasının öyrənilməsinə köməklik göstərən mühüm nəşrlər hesab olunur. Ş.Sədiyev 1920-ci ildən sonra çap olunmuş müxtəlif xarakterli lüğətləri toplamağa başlamışdır. Lüğətlərdə çap məhsulları başqa mövzular kimi təkrar nəşr olunub yayılmışdır. Lüğətlərin yaradılmasında ayrı-ayrı şəxslərin, elmi-müəssisələrin fəaliyyəti daha geniş olmuşdur. Ş.Sədiyev lüğətləri toplamış və ilk dəfə olaraq 1978-ci ildə «Azərbaycan dilçiliyinin lüğətlərinin biblioqrafiyası» mövzusunda göstəriciləri çap olunmuşdur. Biblioqrafik göstəriciyə daxil edilmiş lüğətlər, Azərbaycan-rus, rus-Azərbaycan, Azərbaycan dilinin izahlı lüğəti dilçilik elminin inkişafına mühüm təsir edir. lüğətin nəşri tam həyata keçirilmişdir.

Ş.Sədiyev şəxsiyyətlərin biblioqrafik göstəricilərinin də yaradılmasında da öz fəaliyyətini davam etdirmişdir. Məsələn, respublikanın görkəmli dilçi alimi Əliheydər Orucov haqqında onun çap etdirdiyi şəxsi biblioqrafik göstərici elm üçün xüsusi əhəmiyyətə malikdir. Ş.Sədiyev dilçi alimə Orucovun dilçilik üzrə çox zəngin irsini toplamaqla çap etdirdiyi biblioqrafik göstəricidə onun əsərlərini, elmi məqalələrini müəyyən sistem şəklinə salmışdır. Əsərləri biblioqrafik gösəricidə nəşr tarixinə görə sistemləşdirilmişdir. Ə.Orucovun elmi məqalələri xüsusi bölmə daxilində verilmişdir. Ə.Orucov respublikada dilçilik üzrə elmi kadrların hazırlanmasıda fəaliyyət göstərmişdir. Onun dissertantlara rəhbərliyi ilə əlaqədar göstəricidə bölmələr verilmişdir.

Əliheydər Orucov haqqında yazılan əsərlər də biblioqrafik göstəricidə verilmişdir. Dilçilik üzrə ədəbiyyatın biblioqrafiyasının yaradılmasında BDU-nun kitabxanası da müəyyən işlər görmüşdür. Məsələn, üniversitet kitabxanası tərəfindən 1982-ci ildə

«Azərbaycan Dövlət Universitetinin alimlərinin elmi əsərləri» mövcud göstəricinin «Humanitarvə ictimai elmlər seriyası» BDU filologiya fakültəsinin müvafiq kafedrası tərəfindən dilçiliyə aid çap olunmuş tədris ədəbiyyatı, elmi ədəbiyyat öz əksini tapmışdır. Ona görə də biblioqrafik göstərici universitetin dilçi alimlərinin elmi fəaliyyətinin öyrənilməsində xüsusi əhəmiyyətə malikdir. Dilçilik üzrə şəxsi biblioqrafik göstəricilərdən biri də Akademiyanın keçmiş dilçi alimi M.Şirəliyevə aid olan göstəricidir. Bu göstəricini Akademiya kitabxanasının işçisi M.Babayeva tərtib etmişdir. Göstəriciyə M.Rəhimov tərəfindən oçerk yazılmışdır. M.Şirəliyevin Azərbaycan və rus dilində çap olunmuş əsərləri biblioqrafik göstəricidə öz əksini tapmışdır.



## 3.4. DÖVLƏT BİBLİOQRAFİYA ORQANLARINDA SOSİAL-SİYASİ İNFORMASİYA RESURSLARININ ƏKS OLUNMASI

Azərbaycan Dövlət Kitab Palatası 1925-ci ildə yaradılmışdır. Palata 1926-cı ildən dövlət biblioqrafiya orqanları olan "Kitab salnaməsi", 1938-ci ildən "Jurnal məqalələri salnaməsi", 1938-ci ildən "Qəzet məqalələri salnaməsi" çap etdirmişdir. Ümumi milli biblioqrafiyanın ixtisaslaşmış mərkəzi kimi fəaliyyət göstərən Kitab Palatası iki şöbəyə (Dövlət biblioqrafiyası və Məlumat biblioqrafiyası), üç filiala (mətbuat statistikası, elmi-texniki informasiya və nəzarət filialları) və bir bölməyə (Kitab salnaməsi bölməsi) malik idi. Palatanın ümumi quruluşu əsasında onun çap əsərləri üzərində apardığı biblioqrafik iş prosesinin məntiqi ardıcıllığını belə təsəvvür etmək olar. Respublika ərazisində çap əsərləri axınından nəzarət nüsxələri palataya daxil olur, nəzarət filialı tərəfindən yoxlanılır, sonra isə üzərində biblioqrafiyalaşdırma işi aparılması üçün dövlət biblioqrafiyası və məlumat biblioqrafiya şöbələrinə, mətbuatın statistikası filialına, kitab salnaməsi bölməsinə göndərilir və biblioqrafiyalaşdırma işi başa çatdırıldıqdan sonra Azərbaycan mətbuatı arxivinə göndərilirdi.

1960-cı ildən etibarən dövlət biblioqrafiyası orqanları olan «Kitab salnaməsi», «Jurnal məqalələri salnaməsi», «Qəzet məqalələri salnaməsi» birləşdirilərək «Azərbaycan mətbuat salnaməsi» adı ilə çap olunur. Bir ayda bir dəfə çıxan bu əsaslı və etibarlı cari biblioqrafik jurnalın tirajı da getdikcə artırdı. «Azərbaycan mətbuat salnaməsi»nin əhatəlik etibarilə təkmilləşdirilməsi Azərbaycan çap əsərləri haqqında cari biblioqrafik informasiya verilməsinin sistemliliyinə müsbət təsir göstərir və onun informasiya potensialının artmasına səbəb olur. «Azərbaycan mətbuat salnaməsi» Azərbaycan və rus dillərində buraxılırdı. Məlumdur ki, palata mətbuat haqqında statistik məlumat da ha-

zırlayırdı. 1964-cü ildən o, bu məlumatı «Azərbaycan mətbuat salnaməsi»nin 12-ci nömrəsində dərc edirdi. Beləliklə, cari ilin axırıncı nömrəsi vasitəsilə respublikanın keçən ilki çap əsərləri haqqında statistik məlumat almaq mümkün olurdu. Statistik məlumatda (kitablar, dövri və ardı davam edən nəşrlər) dillər üzrə, ictimai istqamətlərinə, məzmunlarına, nəşriyyatlara, dövri mətbuat, həm də nəşr olunduğu tarixlərə görə qruplaşdırılırdı. 1973-cü ildən etibarən statistik məlumat «Birillik Azərbaycan kitabiyyatı»nda dərc olunur. Statistik məlumat vasitəsilə 22-24 suala cavab tapmaq mümkün idi. 1964-cü ildən «Azərbaycan mətbuat salnaməsi»nin 12-ci nömrəsində cari ilin dövri və ardı davam edən nəşrlərinin biblioqrafik təsviri verilir və bunu dövri mətbuatımız haqqında illik biblioqrafik informasiya kimi qiymətləndirmək olar. «İllik» iki hissədən ibarət idi. Birinci hissədə jurnallar, ikincisində isə qəzetlər əks olunurdu. «Jurnallar» adlanan hissədə elmi xəbərlər, elmi əsərlər, bülletenlər və referativ məlumatlar da əhatə olunurdu. «Qəzetlər» hissəsində mərkəzi, rayon, həm də idarə və müəssisə qəzetləri əks olunurdu. Onların da biblioqrafik təsvirləri mükəmməl xarakter daşıyırdı və bununla oxucular onların xüsusiyyətləri, nəşr dövriyyəsi, tirajları, qiymətləri haqqında məlumat ala bilərdilər.

«Kitab salnaməsi»ndə sosial-siyasi, iqtisadi, elmi-təbii, texniki sahədə elmi monoqrafik nəşrlər, kütləvi kitabçalar, təcrübi əsasnamələr, məlumat nəşrləri, dərsliklər, rəsmi sənəd xarakterli mövzu məcmuələri, bədii əsərlər, lüğətlər, ensiklopediyalar, elmi konfrans materialları və başqa əsərlər əhatə olunurdu.

Əhatə olunan materialların biblioqrafik təsvirləri müvafiq qaydalara, 1976-cı ildən sonra isə biblioqrafik təsvirlə əlaqədar standartlara (1976, 1984) əsaslanırdı. Qeyd etmək lazımdır ki, dövlət biblioqrafiyası orqanlarında, o cümlədən «Azərbaycan mətbuat salnaməsi»ndə həm məcburi, həm də fakültətiv ünsürlər göstərilirdi.

Biblioqrafik təsvirlərin qruplaşdırılmasında 1977-ci ilə qədər bilavasitə dövlət biblioqrafiyası orqanları üçün nəzərdə tutulan təsnifat sxemi əsas götürülmüşdür. Bu təsnifat 31 şöbədən ibarət idi. 1978-ci ildən etibarən «SSRİ-də kitab nəşri üçün ədəbiyyatın vahid təsnifat sxemi» əsas götürülürdü. Həmin təsnifat sxemi 50 şöbədən ibarətdir. Bu sxem 1986-cı ildə bəzi dəyişikliklərlə təkrar çap olunmuşdur. Ümumiyyətlə, bu təsnifat sxemi professor Z.Əliyevin elmi-tədqiqatlarında qeyd etdiyi kimi əvvəllər qüvvədə olan, dövlət biblioqrafiyası orqanlarında, nəşriyyatlarda və kitab ticarətində tətbiq olunan «Dövlət biblioqrafiyası orqanlarında ədəbiyyatın təsnifləşdirilməsi» (1971), «Birləşmiş mövzu planlaşdırılması və əlaqələndirilməsi üçün müvəqqəti ədəbiyyat təsnifatı» (1974) və «Kitab ticarəti şəbəkəsində ədəbiyyatın vahid təsnifat sxemi» (1973) əvəzinə yaradılmışdır. Yəni üç sahənin təsnifatı eyniləşdirilmişdir.

Təsnifatın 1986-cı il nəşrində bir qədər də təkmilləşdirmə aparılıb, onun nəşrə hazırlanması zamanı «Kitabxana-biblioqrafiya təsnifatı»nın (KBT), «Universal onluq təsnifatı»n (UOT) sahəvi buraxılışları nəzərə alınmışdır. Həmin nəşrdə 50 bölmədən ibarət olan əsas sıra 12 istiqamətli mövzuda qruplaşdırılmışdır. Məsələn, sosial-siyasi ədəbiyyat 1-13; Təbii-elmi ədəbiyyat 14-19; texniki ədəbiyyat 20-36 və s.; təsnifat sxemi bölmələrdən, alt bölmələrdən, rubrikalardan, alt rubrikalardan və daha kiçik bölgülərdən ibarətdir. Ənənəvi əl işi üçün nəzərdə tutulan indeksləşdirmə 10 rəqəmli maşın koduna uyğunlaşdırılıb. Əvvəlinci iki rəqəm bölmə, 3-4-cü rəqəm alt bölmə, 5-6-cı rəqəm rubrika, 7-8-ci rəqəm alt rubrika, 9-10-cu rəqəm daha kiçik bölgü üçün nəzərdə tutulur. «Azərbaycan mətbuat salnaməsi»nin hər bir sayının axırında yardımçı aparat verilirdi. Həmin aparat «Kitab salnaməsi»ndə «Fərdi müəlliflərin əlifba göstəricisi»ndən, «Sərlövhələrin əlifba göstəricisi»ndən, «Jurnal məqalələri salnaməsi»ndə «Müəlliflərin və tərkibi qeydə alınmış jurnalların əlifba siyahısı»ndan, «Qəzet məqalələri salnaməsi»ndə «Müəlliflərin və tərkibi əks olunmuş qəzetlərin əlifba siyahısı»ndan ibarət idi. Yardımçı aparat salnamələrin informasiya verimi potensialını xeyli artırırdı. Məsələn, «Jurnal

məqalələri salnaməsi»ndəki yardımçı aparatla məlum olur ki, orada Azərbaycan dilində 22, rus dilində 24 adda jurnalın, «Qəzet məqaələri salnaməsi»ndə isə 40 addan çox qəzetin tərkibi açılır və onlarda dərc olunan mühüm məqalələr haqqında cari biblioqrafik informasiya verilir. «Azərbaycan mətbuat salnaməsi»ndə rübdə bir dəfə «Azərbaycan SSRİ mətbuatında» adlı əlavə bölmə verilirdi.

Kitab Palatasının ən mühüm nəşrlərindən biri «Birillik Azərbaycan kitabiyyatı»dır. Ardı davam edən mükəmməl biblioqraifk nəşr kimi diqqəti cəlb edən bu vəsait 1960-cı ildən ardıcıl çap olunurdu. Onun vəzifəsi il ərzində respublikamızın ərazisində çap olunan bütün kitablar haqqında biblioqrafik informasiya vermək idi. «Kitab salnaməsi»ndən fərqli olaraq burada Azərbaycan və rus dillərində çap olunmuş kitablar bir yerdə verilirdi. Lakin əvvəl Azərbaycan, sonra rus dilində olan kitabların biblioqrafik təsviri müvafiq bölmədə və ya rubrikada öz əksini tapırdı. Biblioqrafik təsvirlərin qruplaşdırılmasında eyni təsnifat sxemi tətbiq olunurdu. Onun yardımçı aparatı müəlliflərin əlifba göstəricisindən ibarət idi.



## 3.5. "AZƏRBAYCAN KİTABI" GÖSTƏRİCİLƏRİNDƏ SOSİAL-SİYASİ İNFORMASİYA RESURSUNUN ƏKS OLUNMASI

1959-cu ildə Azərbaycan SSR Mədəniyyət Nazirliyi «Azərbaycan kitabı» göstəricisi haqqında əsasnamə təsdiq edir və bu əsasnaməyə görə Azərbaycan kitabının ümumi retrospektiv göstəricisi 3 cilddə nəzərdə tutulur. Birinci cildə 1920-ci ilə qədər nəşr olunan kitablar daxil edilməli, ikinci cild 1920-1940-cı illəri, üçüncü cild isə 1940-1960-cı illəri əhatə etməli idi. Sonra isə hər beşillik üçün yerli çap məhsullarının qeydini əks etdirən əlavə buraxılışların çap olunması nəzərdə tutulurdu. 1963-cü ildə Ə.Y.Əliyev tərəfindən tərtib olunmuş «Azərbaycan kitabı»nın birinci cildi çapdan çıxdı və bu göstəriciyə müqəddiməni professor Ə.Mirəhmədov yazmışdır. Repertuar tipli milli retrospektiv göstəricilərin keyfiyyət meyarından biri onların dolğunluğudur.

Bu biblioqrafik göstərici çapdan çıxandan sonra mətbuatda yüksək qiymətləndirilmişdir. 1780-1920-ci illərdə çap olunmuş 1329 adda kitab haqqında məlumat verən bu göstəricinin tərtibində iki meyar əsas götürülmüşdür:

1. Azərbaycanlı müəlliflərin əsərləri. Bu halda onların yaşadıqları yerdən, hansı dildə yazdıqlarından və harada nəşr olunmasından asılı olmayaraq bütün əsərləri göstəriciyə daxil edilmişdir.

2. Dil əlaməti, yəni müəlliflərin milliyətindən, əsərlərinin nəşr yerindən asılı olmayaraq, Azərbaycan dilində olan bütün kitablar.

Göstəriciyə Əziz Mirəhmədov tərəfindən Azərbaycan kitabının tarixi icmalını əks etdirən geniş müqəddimə verilmişdir. Bundan sonra vəsaitə daxil edilmiş materialların biblioqrafik təsvirləri xronoloji qaydada düzülmüş, nəşr ili məlum olmayan əsərlər isə ayrıca qruplaşdırılmışdır. Belə düzülüş Azərbaycan kitabının nəşr tarixini, onun keçdiyi inkişaf yolunu izləməyə imkan verir.

Vəsaitin ən diqqətəlayiq cəhətlərindən biri ona zəngin yardımçı göstəricilərin tərtib olunmasıdır. «Azərbaycan kitabı»nın I cildində 10 adda köməkçi göstərici tərtib olunmuşdur.

Bu göstəricilər vasitəsilə inqilabdan əvvəl kitabların mövzu dairəsini, müəyyən müəllifin əsərlərinin nəşrini, bir əsərin müxtəlif nəşrlərini, mütərcim və təbdil edənləri, naşirləri, Azərbaycan kitabının dil və coğrafi sərhədlərini, onların hansı kitabxanalarda yerləşdiyini və digər məlumatları asanlıqla müəyyənləşdirmək olar. Bunlar vəsaitin axtarış imkanlarını genişləndirmiş, onun səmərəliliyini yüksəltmişdir.

Yeri gəlmişkən sosial-siyasi elmlərdən olan tarixə dair bə-lə mənbələrin sayı Azərbaycan kitabı göstəricisində 98 addadır.

İkinci belə biblioqrafik göstərici 1982-ci ildə çapdan çıxmışdır. Biblioqrafik göstəricidə 1920-1940-cı illərdə çapdan çıxmış Azərbaycan kitabları daxil edilmişdir. Hələ də bu biblioqrafik göstərici bir kitabdan ibarətdir. I kitabda ancaq humanitar elmlərə aid kitablar öz əksini tapmışdır.

Retrospektiv göstəricidə sosial-siyasi mövzulu kitablar, ədəbi əsərlər və həmçinin tarix, pedaqogika, maarif, dilçilik, ədəbiyyatşünaslıq, incəsənət idman, mətbuat, kitabxanaçılıq və biblioqrafiya sahələrinə aid kitabların biblioqrafik təsviri verilmişdir.

Göstəricinin oxucu dairəsini genişləndirmək məqsədilə təsvirlərdə əlavə olaraq kitabın müəllifinin və sərlövhəsinin rus dilinə də tərcümə edilməsi vəsaitin müsbət keyfiyyətlərindəndir.

1920-1940-cı illəri əhatə edən ««Azərbaycan kitabı»nın ümumi retrospektiv göstəricisi» 3 hissədən ibarətdir – müqəddimə, sənədlərin biblioqrafik göstəricisi və yardımçı göstəricilər. «Azərbaycan kitabı»nın II cildinin I kitabı dövlət biblioqrafiya orqanlarında tətbiq edilən təsnifat prinsipi əsasında təsnifləşdirilmişdir.

Qeyd etdiyimiz kimi 1920-1940-cı illərin kitablarını əks etdirən Azərbaycan kitabının II cildinin birinci kitabında sistemli qruplaşma əsas götürülmüşdür və bu da onun əhəmiyyətli cəhəti kimi qeyd olunmalıdır.



1920-1940-cı illəri əhatə edən Azərbaycan kitabının ümumi retrospektiv göstəricisində ədəbiyyatın ayrı-ayrı elmlər üzrə qruplaşdırılması bu biblioqrafik göstəricidən istifadəni xeyli asanlaşdırır. Lakin bu biblioqrafik göstəricidə səhvlərdən uzaq deyildir. Biblioqrafik göstəricidə ən nöqsanlı cəhətlərdən biri burada bütün ədəbiyyatın biblioqrafik təsvirinin verilməməsidir.

Ümumiyyətlə, köməkçi göstərici dedikdə biblioqrafik vəsaitin çap əsərləri haqqında ayrı-ayrı məlumatları müvafiq biblioqrafik yazılara isnad etməklə vəsaitin əsas mətndəkindən fərqli aspektdə əks etdirən hissəsi kimi başa düşülür. 1920-1940-cı illəri əhatə edən Azərbaycan kitabının ümumi retrospektiv göstəricisində köməkçi göstəricilərin 2 növü verilmişdir:

1. Fərdi müəlliflərin əlifba göstəricisi.
2. Müəllifsiz kitabların əlifba göstəricisi.

«Azərbaycan kitabı» göstəricisinin 2-ci cildinin bu kitabı da biblioqrafik informasiyanın kommunikativ funksiyasının yerinə yetirilməsinin konkret vasitələrindən biridir. Bununla belə axtarış funksiyası imkanlarına da malikdir. Bu «Fərdi müəlliflərin əlifba göstəricisi», «Müəllifsiz kitabların əlifba göstəricisi» vasitəsilə əldə edilir. Lakin, bu yalnız göstəricinin əsas mətni üzrə axtarışa yardım edir.

"Azərbaycan kitabı" fundamental biblioqrafik göstəricisinin 3-cü cildində 1941-1950-ci illərdə Azərbaycan ərazisində bütün elm sahələrinə dair çap olunan, eyni zamanda keçmiş Sovetlər birliyinin ərazisində digər müəlliflər tərəfindən Azərbaycan haqqında yazdıqları kitab və kitabçalar öz əksini tapmışdır. Göstəricidə ümumilikdə 4897 ədəbiyyatın biblioqrafik təsviri verilmiş və materiallar şöbələr üzrə universal onluq təsnifat əsasında ayrı-ayrı elm sahələrinə uyğun olaraq tərtib olunmuşdur. Tərtibçilər: L.Talıbova, B.Orucova, V.Məmmədova, N.Hüseynova, G.Hüseynovadır. Baş redaktor, ön söz və müqəddimənin müəllifi professor, Əməkdar mədəniyyət işçisi K.M.Tahirov, Redaktorlar: Z.Qulamova, L.Bağırovadır.

Sosial-siyasi informasiya resurslarına aid mənbələr aşağıdakı şöbələrdə verilmişdir: 1. Fəlsəfə elmləri. Psixologiya; 3. İctimai elmlər; 33. İqtisadiyyat. İqtisadi elmlər; 34. Hüquq. Hüquqşünaslıq.

9. Coğrafiya. Tarix sonda "Müəlliflərin əlifba göstəricisi" və "Sərlövhə üzrə təsvir olunmuş materialların əlifba göstəricisi" adlı köməkçi göstəricilər verilmişdir ki,bu da onun axtarış imkanlarını daha da artırmış olur.



# IV FƏSİL

## 4.1. "HEYDƏR ƏLİYEV: BİBLİOQRAFİK MƏLUMAT KİTABI" ƏN MÜHÜM İNFORMASIYA RESURSU KİMİ

Azərbaycan Respublikasının memarı və qurucusu olan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin yeni nəslin tərbiyəsində göstərdiyi misilsiz xidmətlərini yaddaşlarda daimi yaşatmaq, Azərbaycan gəncliyinə verdiyi dəyərli tövsiyələrini təbliğ etməkdə «Heydər Əliyev: biblioqrafik məlumat kitabı»nın rolu çox böyükdür. Nəşr olunmuş kitablardan biri və demək olar ki, birincisi – müasir Azərbaycan Respublikasının memarı və qurucusu olan Ümummilli Liderimiz Heydər Əlirza oğlu Əliyevin 80 illik yubileyi münasibətilə yüksək poliqrafik səviyyədə çap olunmuş biblioqrafik məlumat kitabıdır.

Bakı Dövlət Universiteti Elmi Şurasının qərarı ilə ilk dəfə olaraq «Dünyanın görkəmli dövlət xadimləri» seriyasından olan bu kitab müstəqil Azərbaycan dövlətçiliyinin inkişafında və möhkəmləndirilməsində misilsiz rolu olan Heydər Əliyev irsinin biblioqrafiyalaşdırılması sahəsində atılan ilk addımdır. 434 səhifələik Azərbaycan dilində 446 səhifəlik rus dilində, 455 səhifəlik ingilis dilində çap olunmuş bu sanballı biblioqrafik əsər BDU-nun rektoru, akademik Abel Məhərrəmovun rəhbərliyi və ümumi redaktəsi ilə nəşr edilmişdir. Kitabın tərtibçi-müəllifləri əməkdar elm xadimi, Bakı Dövlət Universitetinin fəxri professoru Abuzər Xələfov və biblioqrafiyaşünaslıq kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Solmaz Sadıqovadır. Qeyd etmək lazımdır ki, kitab haqqında müxtəlif dövri mətbuat səhifələrində bu qiymətli vəsaitin əhəmiyyətindən bəhs edən yazılar dərc olunmuşdur: Azərbaycan qəzeti, 2003, 9 noyabr; Yeni Azərbaycan qəzeti, 2003, 8 may; Respublika qəzeti, 2003, 13 iyun; Bakı Universiteti qəzeti, 2003, 14 iyun; 2003, 19 dekabr; İki sahil qəzeti, 2003, 9 may və s. Akademik, BDU-nun rektoru

Abel Məhərrəmovun kitaba yazdığı «Azərbaycan intibahının böyük memarı» adlı ön sözdə Heydər Əliyev şəxsiyyəti haqqında obyektiv fikirlər söyləmiş, əsrin təxminən üçdən birini əhatə edən Heydər Əliyev erasını çox yüksək qiymətləndirmişdir.

«Heydər Əliyev: Biblioqrafik məlumat kitabı» universal xarakterli biblioqrafik informasiya mənbələri silsiləsinə aiddir. Yəni kitab biblioqrafik informasiya ilə yanaşı, elmi-publisistik informasiyanı da özündə birləşdirir və bu da onun informasiya potensialını gücləndirir.

«Azərbaycan intibahının böyük memarı» adlı «Ön söz»ün müəllifi akademik A.Məhərrəmovun qeyd etdiyi kimi, "Möhtərəm prezidentimiz haqqında diqqətinizə çatdırılan bu biblioqrafik məlumat kitabı digər analoji nümunələrdən kəskin surətdə fərqlənir. Hər hansı yazıçı, alim, incəsənət xadimindən yazılan biblioqrafiyalardan həmin sahə ilə bilavasitə bağlı olan insanlar istifadə edirlər. Heydər Əliyev haqqında olan bu məlumat kitabı isə hamının istifadə edəcəyi bir topludur. Çünki möhtərəm prezidentimizin ömür yolu və yaradıcılığı həyatın bütün sferalarını əhatə edir və o, zaman-zaman ədəbiyyatdan ədəbiyyatçı qədər, elmdən alim qədər, sənətdən sənətşünas qədər xəbərdar olan, həm də cəmiyyətin inkişafında roluna görə bu sənət bilicilərindən xeyli irəlidə olan şəxsiyyətdir. Odur ki, bu əsər hamının, bütün oxucuların, xüsusən də gənclərin stolüstü kitabına çevriləcək və bundan sonra neçə-neçə nəsillər Heydər Əliyevin zəngin irsindən bəhrələnəcəkdir". 4 hissə və 8 bölmədə qruplaşdırılmış mənbələr xronoloji ardıcıllıqla düzülmüşdür. Tərtibçi-müəlliflərin araşdırmaları nəticəsində məlum olmuşdur ki, 1969-2003-cü illər ərzində Heydər Əliyevin 209 adda kitabı nəşr edilmişdir. Onlardan 118-i Azərbaycan, 83-ü rus, qalanları isə müxtəlif xarici dillərdədir. Müstəqillik dövründə Azərbaycan dilində çap olunmuş 50 adda kitabın 16-nı çoxcildli əsərlər təşkil edir. «Heydər Əliyev şəxsiyyəti» adlanan birinci hissədə Azərbaycan prezidentinin həyat və fəaliyyətinin qısa salnaməsi verilmişdir. Bu müdrik insanın siyasət, iqtisadiyyat, elm, təhsil, mədəniyyət, incəsənət, ədəbiyyat, həmçinin, ayrı-ayrı görkəmli şəxsiyyətlər haqqında söylədiyi fikirləri özündə əks etdirən «Heydər Əliyevin fikir dünyasından seçmələr» bölməsində öz əksini tapmışdır. Biblioqrafik məlumat kitabının ikinci hissəsi «Heydər Əliyevin kitab şəklində nəşr edilmiş əsərləri» adlanır. Sovetlər birliyi dövründə «Azərbaycanın tərəqqisi və inkişafına yönəlmiş siyasət (1969-1990-cı illər)» bölməsində verilmiş kitabları izlədikdə məlum olur ki, hələ o dövrdə, 1977-ci il avqustun 27-də Heydər Əliyev Bakının ali məktəb tələbələrinin nümayəndələri ilə Moskvanın, Leninqradın və digər şəhərlərin ali məktəblərində oxuyan azərbaycanlılarla respublikanın fəalları ilə görüşündə nitq söyləmişdir. 1978-ci il mayın 18-də Azərbaycan müəllimlərinin VI qurultayındakı nitqi; 1979-cu il aprelin 25-də «Fəal həyat mövqeyinin formalaşdırılması: Mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri: Ümumittifaq elmi-praktik konfransda məruzə»; 1979-cu il iyulun 17-də «İdeoloji işi və siyasi tərbiyə işini daha da yaxşılaşdırmaq haqqında»; «Vicdanımızın normaları ilə»; 1980-ci il mayın 28-də Azərbaycan ali məktəblərinin işini partiyanın yüksək tələbləri səviyyəsinə qaldıraq: Ali məktəb işçilərinin respublika müşavirəsində nitqi; Xalqların dostluğu ədəbiyyatların dostluğudur; Yazıçıların ümumittifaq yaradıcılıq konfransında məruzə; 1981-ci il sentyabrın 3-də «Gənclərin birlik, dostluq və əməkdaşlığının möhkəmləndirilməsi, sülh və sosial tərəqqi uğrunda» «Gənclər, inkişaf və sülh» mövzusunda Beynəlxalq gənclər konfransında nitq söyləmişdir. Hələ o dövrdə «Qoy ədalət zəfər çalsın» sərlövhəli kitabı daha çox diqqəti cəlb edir. «Gənclərin əmək, əxlaq və ideya siyasi tərbiyəsini hər vasitə ilə gücləndirməli» və s. belə mənbələri daha da artırmaq olar.

«Müstəqillik yollarında (1991-2003-cü illər)» adlanan bölmədə Heydər Əliyevin Azərbaycan, rus və xarici dillərdə nəşr edilmiş kitablarının, əsərlərinin və çoxcildliklərin biblioqrafik təsviri xronoloji ardıcıllıqla öz əksini tapmışdır. Əvvəlcə 10 cildlik əsərlərin («Müstəqilliyimiz əbədidir»), sonra 4 cildlik («Müstəqillik yollarında»), nəhayət, 2 cildlik («Müstəqillik yollarında») əsərlərin biblioqrafik təsviri verilməklə, ayrı-ayrı

cildlərin məzmununun açılmasına xüsusi diqqət yetirilmişdir. Bu isə kitabın əhəmiyyətini bir daha artırır. «Müstəqilliyimiz əbədidir» adlı 10 cildlikdə böyük tarixi şəxsiyyət, dünya şöhrətli siyasi xadim, müdrik xalq rəhbəri Heydər Əliyevin 1993-cü ilin iyunundan sonrakı siyasi fəaliyyətinin salnaməsi olan bu çoxcildlikdə Azərbaycanda son illərdə baş vermiş ictimai-siyasi proseslər, mürəkkəb, çoxşaxəli hadisələr, milli dövlət quruculuğunun ayrı-ayrı mərhələləri və əsasları, bu işdə mövcud ziddiyyətlər və problemlər, daxili və xarici siyasətinin başlıca istiqamətləri dərindən təhlil edilir və bu dövr tarixi-siyasi baxımdan tam obyektivlik və həqiqət meyarları ilə qiymətləndirilir. Məsələn, YUNİSEF təşkilatında uşaqların həyatı, müdafiəsi və inkişafına dair BMT Bəyannaməsinin imzalanması mərasimində çıxış (27 sentyabr 1994-cü il); Tələbə qəbulu respublikanın həyatında mühüm hadisədir (Ali və orta ixtisas məktəblərinə qəbulla əlaqədar Prezident aparatında keçirilmiş müşavirədə giriş və yekun sözü - 2 avqust 1994-cü il), Mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq; Təhsilin inkişafın da dövlət qayğısı, Müstəqilliyimizi qoruyub saxlamaq üçün xalqımızın milli və mənəvi birliyini təmin etməliyik, Dövlət dili milli-mənəvi sərvətimizdir və s.

Ulu öndərin ayrı-ayrılıqda çap olunmuş əsərlərini nəzərdən keçirdikdə gənclərimizin mənəvi-əxlaqi və vətənpərvərlik tərbiyəsi ilə əlaqədar «Allahın yolunda hamımız bir olaq» (1993), «Azərbaycan xalqının hünəri əbədi yaşayacaqdır» (1995), «Müstəqil Azərbaycan Respublikası Gənclərinin I Forumunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin nitqi» (1996), «Azərbaycan prezidentinin gənclərlə görüşü (1 fevral 1997-ci il)» (1997), «Biz öz yurdumuza qayıdacağıq: Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Xocalı, Kəlbəcər, Şuşa, Laçın, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları ictimaiyyəti nümayəndələri ilə görüşlərinin materialları» (1997), «Azərbaycanlıların soyqırımı haqqında» (1998), «Dünya azərbaycanlılarına» (1998), «Dinimiz xalqımızın milli-mənəvi sərvətidir» (1999), «Ədəbiyyatın yüksək borcu və amalı» (1999), «Yeni Azərbaycan Partiyasının hər bir üzvü dövlətimizin, Azərbaycan prezidentinin siyasətinin həyata keçirilməsində mübariz insan, mübariz əsgər olmalıdır» (1999), «Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında» (2001), «Yeni Müstəqil Azərbaycan uğrunda!» (2001), «Azərbaycançılıq – birliyimizin əsasıdır» (2002) və s. diqqətimizi cəlb edir.

Biblioqrafik məlumat kitabının «Heydər Əliyev haqqında ədəbiyyat» adlanan III hissəsində 8 yarımbölmənin verilməsi onun dəyərini daha da artırır. Bu bölmələr: «Böyük həyat yolundan səhifələr», «Heydər Əliyev Azərbaycan dövlətçiliyinin memarıdır», «Azərbaycan sosial-iqtisadi inkişafında Heydər Əliyev mərhələsi», «Heydər Əliyev və Azərbaycan Respublikasının neft strategiyası», «Heydər Əliyev irsində Azərbaycan dili və ədəbiyyatı məsələləri», «Heydər Əliyev və Azərbaycanda elm, təhsil, mədəniyyət və incəsənətin inkişafı», «Azərbaycan ədəbiyyatında Heydər Əliyev surəti», «Heydər Əliyev beynəlxalq aləmdə» adlanır ki, bu da gənclərimizin mənəvi-əxlaqi və vətənpərvərlik tərbiyəsində, Heydər Əliyev irsinin öyrənilməsində əhəmiyyətini artırır.

Biblioqrafik məlumat kitabının IV hissəsində "Yardımçı göstəricilər" verilmişdir.Burada "Heydər Əliyevin əsərlərinin əlifba göstəricisi" və "Müəlliflərin əlifba göstəricisi" biblioqrafik məlumat kiabının axtarış imkanlarını daha da artırmış olur. 544 mənbəni özündə birləşdirən məlumat kitabında «Dünyanın və Azərbaycanın görkəmli siyasətçiləri, elm və mədəniyyət xadimlərinin Heydər Əliyev haqqında fikirləri»nin də verilməsi diqqətəlayiqdir.Kitab müstəqil Azərbaycan dövlətçiliyinin inkişafında və möhkəmləndirilməsində misilsiz rolu olan Heydər Əliyev irsinin biblioqrafiyalaşdırılması sahəsində atılan ilk addımdır. Həmçinin «Heydər Əliyev – 80» biblioqrafik məlumat kitabı və onun Azərbaycan, rus və ingilis dillərində elektron diski hazırlanmışdır.

## 4.2. "HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ELMİ" ADLI İNFORMASİYA RESURSU HAQQINDA

Ümummilli liderimiz Heydər Əliyevin irsi öyrənilir və təbliğ edilir, gələcək nəsillərə ötürülür. Ulu öndərimiz Heydər Əliyevin zəngin və hərtərəfli siyasi irsini özündə cəmləşdirən kitabların, biblioqrafik vəsaitlərin hazırlanması böyük əhəmiyyət kəsb edir.«XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkəmizdə elmin, təhsilin sürətlə inkişaf etməsidir» ümummilli liderimizin müdrik kəlamı ilə başlayan "Heydər Əliyev və Azərbaycan elmi" adlı biblioqrafik göstərici 2010-cu ildə ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin 40 illiyinə həsr olunmuşdur. "Şərq-Qərb" mətbəəsində çapdan çıxmış kitab Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə çap olunmuşdur.

Biblioqrafik göstəricidə ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan elminin inkişafı sahəsindəki çoxşaxəli fəaliyyətini əhatə edən materiallar əks olunmuşdur. Bu biblioqrafik göstəricinin məqsədi Azərbaycan elminin inkişafı sahəsində ümummilli liderin imzaladığı rəsmi sənədlər, elm xadimlərinə verdiyi fəxri adlar və mükafatlar, Azərbaycanın və dünyanın elm xadimlərinin Heydər Əliyev irsinə verdiyi qiymət, Azərbaycan elminin beynəlxalq əlaqələri, Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının "Heydər Əliyev irsinin təbliği" şöbəsinin fonduna daxil olan sənəd və informasiya resursları haqqında oxuculara məlumat verməkdir. Biblioqrafik göstərici Heydər Əliyevin zəngin irsini tədqiq edən və Azərbaycan elminin tərəqqisində onun xidmətlərini öyrənən mütəxəssislər üçün nəzərdə tutulmuşdur.

Biblioqrafik göstəricinin tərtibçi-müəllifi filologiya elmləri doktoru Aybəniz Əliyeva-Kəngərlidir. Biblioqrafik göstəricinin elmi redaktoru Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfovdur.



424 səhifəlik biblioqrafik göstəricidə 1522 adda mənbənin biblioqrafik təsviri verilmişdir. Biblioqrafik göstəricinin eyni zamanda, elektron variantı da hazırlanmışdır. Biblioqrafik göstəricinin əvvəlində "Tərtibçi-müəllifdən" başlıqlı yazıda vəsaitin quruluşu haqqında geniş məlumat verilir. "Heydər Əliyev və Azərbaycanda elmin inkişafı" bölməsinin "Heydər Əliyev elm və elm xadimləri haqqında" sərlövhəli yarımbölməsində Heydər Əliyevin elm adamları haqqında fikirləri öz əksini tapmışdır.

"Görkəmli elm xadimləri Heydər Əliyev haqqında" adlı bölmənin "Fikirlərdən seçmələr" yarımbölməsində 66 nəfər görkəmli şəxsiyyətlərin fikirləri verilmişdir. Yarımbölmədə ilk olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ümummilli lider haqqında fikri verilmişdir: «Azərbaycan tarixinin taleyüklü hadisələrlə dolu otuz ildən artıq bir dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövr ərzində Heydər Əliyev Azərbaycan dövlətini və millətini zamanın ən çətin sınaqlarından çıxararaq ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir».

«Heydər Əliyev: Azərbaycan dövlətçiliyi və elmi» bölməsinin «Ümummilli lider Heydər Əliyevin əsərləri» yarımbölməsində 46 adda Azərbaycan və 1 adda rus dilində olan əsərlər verilmişdir. «Elmin inkişafı sahəsində dövlət siyasəti» adlanan bölmədə «Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərman və sərəncamları» yarımbölməsi Azərbaycan və rus dillərində öz əksini tapmışdır.

«Heydər Əliyevin Azərbaycan elminin tərəqqisi ilə bağlı nitq və çıxışları» bölməsində 22 adda Azərbaycan dilində, 9 adda rus dilində sənədin təsviri verilib. «Heydər Əliyevin elm xadimlərinə verdiyi mükafatlar» yarımbölməsində 18 adda Azərbaycan, 19 adda rus dilində olan sənədin təsviri verilib. «Heydər Əliyev və Azərbaycan elminin beynəlxalq əlaqələri» bölməsində 19 adda Azərbaycan dilində, 1 adda rus dilində mənbənin biblio-

qrafik təsviri öz əksini tapmışdır. «Görkəmli elm xadimləri Heydər Əliyev haqqında» adlı bölmənin «Məcmuə, jurnal və qəzet materialları» yarımbölməsində 125 adda Azərbaycan dilində, 7 adda rus dilində, 1 adda ingilis dilində məlumatlar yerləşdirilmişdir. «Heydər Əliyev siyasətinin layiqli davamçısı» bölməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elm sahəsindəki sərəncamları» yarımbölməsində 82 adda Azərbaycan dilində, 72 adda rus dilində rəsmi sənədin biblioqrafik təsvirinin verilməsi sahə mütəxəssisləri üçün çox əhəmiyyətlidir.

«Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin kitabları» yarımbölməsində Azərbaycan dilində 9 adda, rus dilində 1 adda kitabı, «Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə həsr olunmuş kitablar» yarımbölməsində 60 adda Azərbaycan dilində, 4 adda rus dilində kitabların təsviri öz əksini tapmışdır.

«Heydər Əliyev irsinin tədqiqi» bölməsinin «Kitabları» yarımbölməsində 281 adda Azərbaycan dilində kitabın təsviri verilmişdir. 2 adda türk dilində, 22 adda rus dilində, 12 adda digər dillərdə ədəbiyyatlar verilmişdir. «Heydər Əliyev haqqında məcmuə, jurnal və qəzet materialları» yarımbölməsində 583 adda Azərbaycan dilində, 1 adda türk dilində, 74 adda rus dilində, 6 adda ingilis dilində dövri nəşrlərdə öz əksini tapmış material verilmişdir. «Dissertasiya və avtoreferatlar» yarımbölməsində 7 adda namizədlik və doktorluq dissertasiyası haqqında məlumat verilmişdir. «Elektron resurslar və multimediya» yarımbölməsində 9 adda mənbənin təsviri öz əksini tapmışdır.

6 bölmə, 16 yarımbölmədən ibarət olan biblioqrafik göstəricidən istifadəni asanlaşdırmaq üçün "Müəlliflərin əlifba göstəricisi" Azərbaycan, türk, rus, ingilis və fransız dillərində verilmişdir. Biblioqrafik göstəricidə materiallar əlifba prinsipi üzrə düzülmüşdür. Hər bir bölmə və yarımbölmədə də bu prinsipə əməl olunmuşdur. Biblioqrafik vəsait ümummilli liderimiz Heydər Əliyevin zəngin irsini tədqiq edən və Azərbaycan elminin tərəqqisində ulu öndərin xidmətlərini öyrənən mütəxəssislər üçün əvəzolunmaz informasiya mənbəyidir.



## 4.3. "AZƏRBAYCAN BİBLİOQRAFİYASININ BİBLİOQRAFİYASI" GÖSTƏRİCİSİNDƏ SOSİAL-SİYASİ İNFORMASİYA RESURSLARININ ƏKS OLUNMASI

Sənədlər və informasiya tələbatçıları arasında bəşəriyyətin topladığı möhtəşəm sənəd yığımından daha mütərəqqi və səmərəli istifadə olunmasına təsir göstərən vasitələrdən biri də biblioqrafiyadır. Elmin, texnikanın, mədəniyyətin daha da inkişafı biblioqrafik fəaliyyətin də qarşısında yeni-yeni vəzifələr qoyur. Biblioqrafik fəaliyyətin nəticəsi isə biblioqrafik informasiyadır.

Professor Zöhrab Əliyevin "Ümumi biblioqrafiyaşünaslıq" adlı dərs vəsaitində biblioqrafiyanın içtimai istiqamətinə görə təsnifləşdirilməsi verilmişdir. Məlum olmuşdur ki, biblioqrafik vəsaitlərin vasitəsilə biblioqrafiyanın növ təsnifatı məsələsi yeni metodologiya ilə həll olunur:

1. Biblioqrafik informasiyanın axtarış və kommunikasiya funksiyalarını eyni dərəcədə həyata keçirən formal xarakterə malik ümumi biblioqrafiya;

2. Müəyyən xidmət sahəsinə, konkret məqsəd və oxucu istiqamətinə malik olan xüsusi biblioqrafiya;

3. Funksional məqsəd və xronoloji əlamətinə görə cari, retrospektiv və perspektiv biblioqrafiya;

4. Biblioqrafiyalaşdırmanın bilavasitə obyekti olan sənədlərin forma və məzmunu ilə əlaqədar olan universal və sahəvi biblioqrafiya;

5. Elmin, xalq təsərrüfatının və mədəniyyətin ən müxtəlif sahələrindən kompleks informasiya tələb edən və bəzən də problem-mövzu biblioqrafiyası adlandırılan kompleks biblioqrafiya;

6. Məzmun-ərazi, yəni məzmun-forma əlaməti əsas götürülən diyarşünaslıq və ölkəşünaslıq biblioqrafiyası;

7. Biblioqrafiyanın bir xüsusi növü də var ki, ona "biblioqrafiyanın biblioqrafiyası" adı verilir.

Professor Z.H. Əliyevin qeyd etdiyi kimi, biblioqrafiya sənəd-tələbatçı sistemində əlaqələndirici həlqə (vasitəçi) rolunu oynayır. Lakin biblioqrafik informasiya mənbələri yəni biblioqrafik vəsaitlər xeyli artdığına görə onların da axtarışı çətinləşir və deməli tələbatçıların sənədləşdirilmiş biblioqrafik informasiya mənbələri üzrə istiqamətləndirilmələrinə ehtiyac yaranır. "Sənəd-tələbatçı" sistemi mühitində biblioqrafik məhsulun müxtəlifliyi və həcmcə artması ilə əlaqədar olaraq "Biblioqrafik informasiya-tələbatçı" deyilən yeni xüsusi bir sistem yaranır. Bu sistemdə sənəd-tələbatçı sisteminə məxsus olan ziddiyyətlər kiçik miqyasda, müəyyən incəliklə təkrar olunur. İndi artıq "Bİ-T" sistemində axtarış, kommunikasiya və qiymətləndirmə funksiyalarını həyata keçirən xüsusi vasitəçiyə ehtiyac əmələ gəlir və bu sistemdə tələbatçılar əvvəlkilərdən ibarət olaraq qalır, ilkin sənədləri (biblioqrafiyalaşdırmanın bilavasitə obyektini) isə ikinci, yəni biblioqrafik sənədlər əvəz edir. Deməli biblioqrafiyanın biblioqrafiyası "vasitəçinin vasitəçisi" mənasını verir. Biblioqrafik vəsaitlər haqqında biblioqrafik informasiyanın həcmcə mürəkkəbləşməsi onun gələcəkdə hətta üçüncü və dördüncü pillələrinin meydana gəlməsinə səbəb ola bilər. Bunun dünya miqyasında yaranması ehtimalı daha çoxdur.

Biblioqrafik vəsaitlər haqqında biblioqrafik informasiya verən " Azərbaycan biblioqrafiyasının biblioqrafiyası (biblioqrafik vəsaitlərin göstərici)" adlı vəsait də bu ehtiyacdan yaranmışdır. Pedaqoji elmlər namizədi, dosent N.İsmayılovun müəllifi olduğu bu kitabın elmi redaktoru Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, professor Z.H.Əliyev, rəyçiləri, pedaqoji elmlər namizədi dosent Ə.T.Xələfov, pedaqoji elmlər namizədi, dosent R.Ə.Kazımovdur. Vəsaitin məlumat metodiki aparatından məlum olur ki, bu biblioqrafik informasiya mənbəyində ilk dəfə olaraq Azərbaycan Respublikasında meydana gələn əsas biblioqrafik vəsaitlər əhatə edilmişdir. Vəsaitdə bir əsrdən artıq dövrdə çap edilən mənbələr (Azərbaycan və rus dillərində) sahələr üzrə verilmişdir. Azərbaycan biblio-



qrafik ehtiyatının əsas hissəsini əhatə edən bu mənbə yalnız kitab formalı mənbələri özündə əks etdirir və kitabxanaçı-biblioqraflar, informasiya işçiləri, ali və orta ixtisas kitabxanaçılıq məktəblərinin müəllim və tələbələri, o cümlədən geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

"Tərtibçidən" başlıqlı yazıda qeyd olunur ki, Azərbaycanda biblioqrafik informasiya mənbələrinin yaradılması və istifadəsi zəngin və mürəkkəb inkişaf yolu keçmişdir. XX əsrin ikinci yarısından etibarən bu sahədə mühüm nailiyyətlər əldə edilmiş, milli mədəniyyətimizin bir sahəsi kimi biblioqrafik fəaliyyət, onun nəticəsi olan biblioqrafik ehtiyat bir sistem kimi formalaşmışdır. Biblioqrafik informasiya mənbələri formasına görə tarixi təkamül prosesindən keçmiş, Azərbaycan cəmiyyətinin informasiya tələbatının ödənilməsinin müstəqil atributlarından birinə çevrilmişdir. Biblioqrafik mənbələrin artması onlardan müasir informasiya-axtarış vasitələrində istifadə olunması problemi bu mənəvi sərvətin özünün biblioqrafik baxımdan məlumat kitabının yaradılmasını zəruri etmişdir.

Ölkəmizdə də ənənəvi biblioqrafik fəaliyyətin nəticəsi olan mənbələri əhatə edən məlumat kitabı Azərbaycan biblioqrafik məhsulunun repertuarının yaradılması sahəsində ilk təşəbbüsdür. Biblioqrafik vəsaitlərin göstəricisi kimi onun quruluşunda kompleks əlamətlər; müasir biblioqrafik məlumat sisteminin, Azərbaycan iqtisadiyyatının, elminin, texnikasının və infrastrukturunun modeli, real biblioqrafik informasiya tələbatı, onun məzmunu və quruluşu nəzərə alınmışdır. Belə ki, Azərbaycan dilində "Ümumi biblioqrafik məlumat", "Xüsusi biblioqrafik" mənbələr verilmişdir.Xüsusi biblioqrafik mənbələr 10 yarımbölmədə verilmişdir. Sosial-siyasi ədəbiyyatın informasiya resursları ayrıca "İçtimai elmlər bütövlükdə" bölməsində verilmişdir. Analitik biblioqrafik mənbələr ayrıca verilmişdir. Ümumiyyətlə biblioqrafik məlumat kitabının əsas mətni təxminən 130 illik bir dövr ərzində ölkəmizdə biblioqrafik fəaliyyətin ən mühüm nailiyyətlərini əks etdirir. Vəsaitdən çoxcəhətli

axtarış məqsədilə səmərəli istifadə etmək, biblioqrafik fəaliyyətin kəmiyyətini və təkamülü prosesini izləmək və ayrı-ayrı informasiya mərkəzlərinin bu sahədə əldə etdiyi nailiyyətləri konkret olaraq ümumiləşdirmək məqsədilə "Xronoloji göstərici," "Biblioqrafik vəsaitləri tərtib edən, nəşr edən idarə, müəssisə və fərdi şəxslərin göstəricisi," "Fərdi müəlliflər və müxtəlif təşkilatlar," "Azərbaycan Respublikasının biblioqrafik resursları statistik rəqəmlərdə" sərlövhəli yardımçı aparat vəsaitin dəyərini artırır və axtarış imkanlarına istiqamət verir. Bunun üçün də informasiya texnologiyası, bütövlükdə informasiya işini avtomatlaşdırmaq, kompüterləşdirmək, yüksək texnologiyaya malik informasiya mərkəzləri yaratmaqla buna nail olmaq mümkündür.



# V FƏSİL

## 5.1. RUSİYADA İQTİSADİ İNFORMASİYA RESURSLARININ XÜSUSİYYƏTLƏRİ

Aparıcı ölkələr maddi resurs iqtisadiyyatından informasiya iqtisadiyyatına, elmi cəmiyyətə keçidi həyata keçirirlər. Yeni iqtisadiyyatın əsas əlaməti: informasiya intellektual aktiv kimi bahalı və spesifik məhsula çevrilir, sərbəst əhalinin böyük hissəsi isə sözün geniş mənasında informasiya biznesi sahəsində çalışır.

İqtisadiyyat elminin müasir strukturunda bunları ayırd edirlər: iqtisadi nəzəriyyə, tarix və statistika, makroiqtisadiyyat, mikroiqtisadiyyat, xüsusi iqtisadi elmlər, regional iqtisadiyyat. Sənədlərə əsaslanan fəaliyyət prosesində servis fəaliyyəti ilə bağlı tematik istiqamətlər daha fəal şəkildə inkişaf edir – marketinq, qiymətli kağızlar bazarı, maliyyə, kreditin təqdim olunması. Mikroiqtisadiyyatın problemlərinin payına kitab nəşrlərinin təxminən 60%-i düşür. Gündəlik olaraq "OZON" elektron mağazasında "Rusiyanın və xarici ölkələrin iqtisadiyyatı" mövzusunda 100-150 yeni nəşr satışa çıxarılır.

İqtisadiyyat sahəsində informasiya resurslarının təsvir olunması zamanı növ əmələ gətirən anlayışlar, məsələn "işgüzar informasiya", "maliyyə informasiyası", "birja informasiyası", "fond informasiyası", "marketinq informasiyası" tətbiq olunur. Bu anlayışlar qarşılıqlı şəkildə məzmun etibarilə gizlin saxlansa da, lakin iqtisadçılar, kommersiya və büdcə təşkilatlarının rəhbərləri, kütləvi kitabxanalar tərəfindən geniş şəkildə istifadə olunur.

İqtisadi informasiyanın istehlakçıları demək olar ki, bütün demoqrafik qruplar tərəfindən təqdim olunmuşdur. Kütləvi kitabxanada iqtisadi ədəbiyyatın oxucuları arasında – məktəblilər, tələbələr, təqaüdçülər, eləcə də kiçik və orta biznesin sahibkarları, mütəxəssislər var. Onlar üçün normativ-hüquqi, tədris, arayış, xəbər, eləcə də işgüzar, o cümlədən də konyukturalı in-

formasiya daha vacibdir. Əksər hallarda marketinq tədqiqatları, ayrı-ayrı müəssisələrin fəaliyyəti, onların iqtisadi göstəriciləri haqqında nəşrlərə dair tələbata tez-tez rast gəlinir.

Kiçik və orta formalı rəhbərlərin informasiya tələbatları satışın daxili bazarları, malın konkret tədarükçüləri, təsərrüfat qanunvericiliyi haqqında informasiya ilə əlaqədardır. Onlar fəaliyyət profillərinə əsasən istənilən növlü ədəbiyyatı oxumağa hazır olub, şəbəkə informasiyasının resurslarından fəal şəkildə istifadə edir, lakin profilli bazar haqqında ictimai səpkili informasiyaya üstünlük verirlər.

Milli kitab nəşrlərinin illik axınının həcmi hal-hazırda 23 mindən artıq təşkil etməklə azalma tendensiyasına malikdir (təxminən 7%). Sənədlər əsasında inkişafın növbəti xüsusiyyətləri qeydə alınır.

- Arayış səpkili ədəbiyyatın axını stabilləşdirilir. İqtisadi arayışların qaydaya salınan dairəsi çap və elektron nəşrlərinin geniş toplumuna, o cümlədən də hər həftə mütəmadi şəkildə çap olunan seriya şəklində arayış-jurnallara çevrilmişdir. Ünvanlı və əmtəə-firma arayışlarının sistemi Şəbəkədə nəşr olunur və yerləşdirilir. Rusiya regionlarının iqtisadi profillər haqqında arayışlar seriyası, analitik reytinqə malik olan arayışlar, biznes-tezauruslar işıq üzü görür. Şəbəkə ensiklopediyası ilə yanaşı, sərbəst şəkildə tərtib olunan iqtisadi ensiklopediya yaradılır.
- Janr tərkibinə görə müxtəlif olan kitab nəşrlərinin demək olar ki, üçdə biri tədris ədəbiyyatına olan tələbatı və yüksək payı təşkil edir. "Soraq kitabçaları", "Praktik məşğələlər kursu", "İqtisadi fənlər üzrə rəhbərlik", mənimsənilməsi alqoritmləri", testlərin və vəziyyətlərin sorğu kitabçaları işıq üzü görür. Kompüter ilə tədris sistemləri, audio və multimedia tədris vəsaitləri yaradılır. Tədris prosesində tədqiq olunan nəşrlər təkrar çap olunur. Dərs vəsaitlərində informasiyanın yüksək dərəcədə təkrarlanması baş verir. Külli miqdarda tərcümə olunmuş ədəbiyyata rast gəlinir. Dərs vəsaitləri mövzularına görə daha çox diferensiasiya olunur. Xüsusi nəşrlər lizinqə, investisiyalara, kreditlərin təqdim olunmasına və digər məsələlərə həsr olunur.



- Ümumilikdə birja, bank, işgüzar həyatın dinamizmi və rabitə vasitələrinin inkişafı ölkədə və dünyada iqtisadi həyat haqqında operativ informasiya mənbələrinin, birja informasiyasının sistemlərinin meydana çıxmasına gətirib çıxarmışdır. Real vaxt və ya ona yaxın rejimdə xəbər lentləri təqdim olunur.
- Kommersiya reklam məlumatlarının mikro axını prays -vərəqələri, ümumi cədvəlləri, kataloqları, reklam prospektlərini, qısa qəzet, elektron məlumatlarını, məqalələrdə gizlin reklamı ilə təqdim olunur. Preyskurantlar və qiymət cədvəlləri operativ mütəmadi nəşrlər kimi işıq üzü görərək, gündəlik qaydada yenilənməklə ixtisaslaşdırılmış saytlarda yerləşdirilir.
- İcmal proqnoz-analitik səpkili materialların payı və əhəmiyyəti artmışdır. Bazarların analitik icmalları, şirkətlərin hər il dərc olunan hesabatları, iqtisadi obyektlərin reytinqlərini şərh edən cədvəllər daha çox tələb olunur.
- Əldə olunan multimediya məhsullarının həcminin artımı müşahidə olunur. Çap və kütləvi kommunikasiyalar ilə bağlı Federal agentliyin məlumatlarına əsasən Rusiyada internet-resursların istifadəçilərinin ümumi sayından 39%-ni elektron kitablar təşkil etməklə, onlardan 19% məlumatlar bazasına və arxivlərinə çıxış əldə edir. Rusiyalıların media istehlakının strukturunda qəzetlər hal-hazırda 2% kitablar – 1,9% - i, jurnallar isə - 1,2% təşkil edir.
- İqtisadi obyektlər haqqında informasiyanın kompleksli şəkildə təqdim olunması cəhdi müşahidə olunur. İdarəetmə panelləri işlənib hazırlanır, nəşrlərdən, şirkətlərin hesabatlarından, statistik mənbələrdən, icmallardan, bazarın marketinq tədqiqatlarının nəticələrindən, eləcə də, xəbər məlumatlarının irimiqyaslı axınından ibarət olan irimiqyaslı informasiya bazaları yaradılır. Bir proqram daxilində iqtisadiyyatın tammətnli, ədəbiyyat və proqnoz-analitik resursları akkumulyasiya olunur.

• Biznes-proseslər hər ay məlumatların müxtəlif mənşəli massivlərini yaradır. Bu səbəblərdən iqtisadiyyatda informasiya resurslarına faktoqrafikliyin, fraqmentarlığın və dağınıqlığın yüksək dərəcəsi, mənbələrin əsas kütləsinin sürətlə köhnəlməsi templəri xasdır. Elmi nəşrlər üçün köhnəlmənin yarımdövrü 3,1 ilə kimi azalmışdır. Faydalı informasiyanın dublyajı, fraqmentarlığı və dağınıqlığı biblioqrafdan aparıcı müəlliflərin, kollektivlərin biliklərini, mövzu ilə bağlı əvvəlki nəşrləri, iqtisadi informasiyanın yayılmasının yeni mənbələrini, formalarını və kanallarını tələb edir.

Sənədli tammətnli və faktoqrafik resurslar. İnformasiya resursları bütün fəaliyyət sahələrində yaradılır və istifadə olunur. Elmi müəssisələr və ali məktəb müəssisələrindən başqa, professional əhəmiyyətli informasiya mənbələri yaradılır:

• İdarə orqanları (Normativ, Hesabi-planlı, nəzəri-analitik informasiya);

• Qəzet və jurnal redaksiyaları (Biznes xəbərləri, faktiki, nəzəri-analitik informasiya); • İnformasiya xidmətləri və kitabxanalar (biblioqrafik, faktiki, nəzəri-analitik informasiya);

• Şirkətlər, banklar, birjalar, ticarət və başqa firmalar (Maliyyə hesabı, kredit, reklam informasiyası);

• Assosiasiyalar, ittifaqlar, müstəqil araşdırma mərkəzləri. Nəşriyyatlar və nəşr təşkilatları. Ölkədə iqtisadi ədəbiyyat naşirlərinin sayı nəşriyyat evləri, informasiya agentlikleri və internet nəşrlərinin hesabına artır. Ali məktəblərin nəşriyyat bölmələri və yerli (regional) nəşriyyatlar fəaliyyətə başlamışlar. İxtisaslaşdırılmış nəşriyyatlar – «Экономика», «Финансы и статистика», «Международные отношения» – elmi monoqrafiyalar, qanunverici aktların məcmusu, təlim ədəbiyyatı, sahibkarlar üçün praktiki müavinətlər nəşr olunur. Onlar nəşrlərinin yüksək keyfiyyətini qoruyub saxlamağa müvəffəq oldular.

«Экономика» nəşriyyatı 1921-ci ildən fəaliyyət göstərir; ensiklopediyalar, kataloqlar, elmi ədəbiyyatlar və iqtisadi nəzəriyyə, maliyyə, menecment və marketinq üzrə kitablar çap edirir; Məşhur rus iqtisadiyyatçılarının işləri, REA (Rusiya Elmlər Akademiyası) qabaqcıl institutlarının kitabları dərc edilir; «Экономическая энциклопедия регионов России» seriyası və «Горизонты экономики» jurnalı nəşr edilir; İqtisadi ədəbiyyat internet marketinqinə və özünün elektron nəşriyyatına malikdir. İqtisadi kitabların böyük hissəsini elektron formatda təklif edir. Statistik sektor materiallarının, ciddi informasiya və tərcümə ədəbiyyatının buraxılışlarını təmin edən «Финансы и статистика» dövlət nəşriyyatı iqtisadi ədəbiyyatın inkişafına töhfə vermişdir. İqtisadi sahədə elmi ədəbiyyatın axını «Наука» və «Академиздатцентр РАН» böyük universitetlərin universal nəşriyyatları tərəfindən yerinə yetirilir.



1990-cı illərdə yaradılmış onlarla ixtisaslaşdırılmış və universal universitet səmərəli şəkildə işləyir. «ИНФРА-М» nəşriyyat evi, «Приор», «Дело» və «Академический проект» nəşriyyatları normativ-hüquqi, təlim və professional ədəbiyyatın sənədli axınını yaradır. Xüsusilə, «ИНФРА-М» mikro və makro iqtisadiyyat sahəsində fundamental dərslikləri dərc edir, «Научная мысль» və «Словари...» seriyalarında terminoloji lüğətlər və başqa informasiya vəsaitləri buraxırlar. «ИНФРА-М» elmi nəşriyyat mərkəzi tərəfindən, kitab və məqalələrin elektron versiyasını özündə cəmləşdirən «ZNANİUM.COM» tam-mətnli elektron kitabxana sistemi yaradılmış və istifadə edilmişdir. Müvəffəqiyyətli elm və təhsil fəaliyyətinə kömək edən istifadə statistikasının yığımı, hər səhifəlik surətçıxartma xidmət və başqa servislərin köməyi ilə axtarış və virtual "kitab rəflərinin" formalaşmasıyla sənədlərin seçimi sistemləri həyata keçirilmişdir. Müxtəlif sahəli müəssisələr qarşısında irimiqyaslı istifadəçi auditoriyası olan dar tematik sahəli təşkilatlar öz mövqelərini qoruyub saxladılar. «Учет» nəşriyyat evi hesabat, vergi siyasəti və mühasibət hesabları ilə bağlı ədəbiyyatın nəşrində ixtisaslaşıb. Əmək mühafizəsi üzrə standartların və normativlərin, ticarət və gömrük işi sahəsində qanunvericilik toplusunun nəşri nəşriyyat standartlarını təmin edir, «Приор»

və «Ось-89», biznes informasiyası agentliyi olan «Бизнес-карта»-nın əsas profili – firma məhsullarının çoxcildli kataloqudur. Hər il agentlik Rusiya və MDB ölkələri və həmçinin, xarici ölkələrdə də biznes kataloqlarının 450 maddəsini dərc edir.

«Неизвестная Россия» Regional statistik kitabçaları seriyası, proqnoz-analitik yeni tədqiqatların nəticəsində informativ oldu. Belə ki, proqnozlu araşdırmalar nəticəsində çoxcildli «Бизнес-портрет» nəşri yeni və informativ oldu. Regional biznes-kataloqların mikroaxınını formalaşdıran yerli nəşriyyatlar öz işlərini intensivləşdirdilər. Mikroiqtisadiyyatın bütün sahələriylə bağlı biznes-ədəbiyyat buraxan nəşriyyatların sayı çox idi: Marketinq, reklam, idarə, maliyyə, bank işi, mühasibat, birja ticarəti və biznesin ayrı-ayrı sahələri. Onların arasında «Альпина Бизнес Букс», «Аспект-пресс» nəşriyyatları, «Дело и сервис», «Книжный мир», «Олимп-бизнес», «Питер» «Смысл» «Стокгольмская школа экономики» nəşriyyat qrupları var. Onlar aktual mövzulu, o cümlədən biznes tarixi, müəssisələrin brendinq problemi və marketinq araşdırmaları haqqında da professional, tədris və məşhur-elmi ədəbiyyat dərc edirdilər. Son zamanlar təlim ədəbiyyatında "özünü inkişaf" janrı məşhurdur. Xüsusilə, «Самоучитель по рекламе» kitabı dəfələrlə «Интел-синтез» biznes məktəbi tərəfindən yenidən dərc edilmişdir. Xüsusi qrupu dövri nəşrlərin dərcində ixtisaslaşmış nəşr evləri və agentliklər təmsil edirlər – «Главбух», «Эксперт-РА» və «Qrebennikovun nəşr evi» və başqaları. Bir neçə nəşr təşkilatları bilərəkdən Ali Attestasiya Komissiyasının (AAK) siyahısına daxil olan elmi jurnalların seriyasını formalaşdırmışdır, çünki bu nəşrlərin keyfiyyətini kəskin artırır. Jurnalların sitatlaşması izlənilir.

«Креативная экономика» nəşriyyatı AAK-ın siyahısından 7 jurnalı dərc edir. Nəşrin layiq olduğu səviyyəni təmin etmək üçün nəşriyyatda intellektual-kreativ resursların idarəsi üzrə elmi məktəb iş görür, başqa müəssisələrlə - innovasiya və yaradıcılıq iqtisadiyyatının problemləri üzrə beynəlxalq elmi-



analitik Mərkəzi və informasiya və kommunikasiya menecmenti məktəbi ilə yaxın əməkdaşlıq yaradılır. Bu, nəşriyyat praktikasında yeni hadisədir, hansı ki, iqtisadiyyatda elmi kitab nəşri sistemini bütövlüklə genişləndirir. Məhsulların arasına Moskva, Sankt-Peterburq, Saratov, Tümen, Voronej, Rostov, İrkutsk, Kazan və başqa şəhərlərin iqtisadi ali məktəblərinin və universitetlərinin nəşriyyat mərkəzləri aiddir. Onların hər biri iqtisadiyyat sahəsində 15-dən 200-ə kimi tədris vəsaiti dərc edirlər. Bu proses əhəmiyyətli dərəcədə ali təhsil müəssisələrinin yenidən qurulması və akkreditasiyası ilə stimullaşdırılır.

İqtisadiyyat sahəsində kitab nəşrinin əsas üstünlüyü təcridi məsuldarlıqlı nəşriyyatların daxil olduğu irihəcmli diqqətsizlik zonasıdır. Hal-hazırda Rusiyada 5700-ə yaxın nəşriyyat qeydə alınıb. Onların hər birində iqtisadi mövzulu nəşrlər dərc edilə bilər. Nəşriyyatların böyük hissəsi müəyyən oxucu auditoriyasının fikirlərini təmin edən seriyaların və çoxcildli nəşrlərin çapını davam etdirmək istəyirlər. «Экономическая школа» eyni adlı universitetin strukturlu bölməsinin nəşriyyatıdır. Tədris, kataloq və elmi ədəbiyyatdan başqa həmçinin «Экономическая школа» jurnalını və kitabların məşhur seriyaları («Экономическая школа», «Классики экономической науки», «Этическая экономия» «Веки экономической мысли») dərc edilir. "Yaradıcıların və nəşriyyatçıların" bir adda yerləşməsi xarakterik bir tendensiyadır: Getdikcə daha çox təşkilat serverlərdə mənalı iqtisadi informasiyalar paylaşır və öz jurnal, bülleten, kataloqlarını ictimailəşdirirlər. Hərfi mənada belə bir birləşməni böyük olmayan «Мани, Иванов и Фербер» nəşriyyatı həyata keçirmişdir. Çox xeyirli biznes kitablarının yazıçıları olan marketoloq-praktiklər tərəfindən yaradılmışdır. Müxtəlif informasiya kanalları ilə raqabət və müflislik təhlükəsinə görə kitab naşirləri öz məhsul və servislərinin müxtəlifliklərini genişləndirməyə çalışırlar. Nümunə olaraq, biznes ədəbiyyatı nəşriyyatı «Альпина Паблишерз» demək olar. Onlar iqtisadiyyat, menecment, özünün inkişaf, maliyyə, bank işi və dəyərli kağız-

lara aid kitabların çapından başqa, həmçinin, audiokitablar, videokurslar və elektron kitablar da istehsal edirlər. Biznes mövzulu çətin məqalələrin ingilis dilindən tərcüməsi, tədbirlərin reklamı, həmçinin sifarişlə kitabların çoxaldılması xidmətlərini göstərirlər. ABŞ nəşriyyatları pul ekvivalentində elektron kitab nəşrinin perspektivliyini göstərirlər. Kağız üzərindəki nəşrdən qazanılan hər bir dolları onlar elektron kitablardan gələn gəlir hesabına 7 dollarla qarşılanır. Ona görə də milli iqtisadi ədəbiyyatın əsas naşirləri lazım gəldikdə iqtisadi kitabların çapını, həmçinin kitabların elektron formatda satışını təmin edirlər.

Dövri nəşrlər. Operativ informasiyanın verilənlər bazası. İqtisadiyyatda sektorlu, dar sektorlu, problem yönümlü və regional dövri çap nəşrlərin irimiqyaslı sistemi formalaşmışdır. Onlardan bir çoxunun tam elektron versiyası var. Elektron jurnallar, daimi mövzulu veb-saytlar və informasiya agentliklərinin operativ xəbər səhifəsi bu sistemi zənginləşdirir və artıq çap nəşrlərlə tələbə görə rəqabət aparırlar. Jurnallar. Çap nəşrləri keyfiyyətlərini qoruyub saxlayırlar. Elmi araşdırmaların nəticələri AAK-ın yüksək indeksli sitatla baxılmış siyahısında olan jurnalları təqdim edir: «Вопросы экономики», «Российский экономический журнал», «Экономическое возрождение России», «Экономическое развитие современной России», «Российский журнал менеджмента», «Проблемы прогнозирования» və başqaları. Produktiv və əhəmiyyətlilərin arasında oxucu auditoriyasının vərdiş etdiyi «Экономист», «Деньги и кредит», «Мировая экономика и международные отношения», «Хозяйство и право» jurnalları yerləşir. Mütəxəssislər üçün iqtisadiyyatın müxtəlif sektorlarına aid olan elmi-praktik jurnallar əhəmiyyətlidir. Onlara «Экономика здравоохранения», «Экономика сельского хозяйства России», «Экономика и учет в строительстве», «Экономика и учет в торговле», «Экономика и финансы» jurnalları aiddir.

Regional iqtisadiyyatın elmi və elmi-praktiki jurnalları baxılmış ümumrusiya jurnallarının özəyidir: «Регион: экономика и социология, «Регион: Системы, экономика, управления», «Региональная экономика: Теория и практика", "Региональные исследования», «Региональные проблемы преобразавания экономики» jurnalları bələlərindəndirlər. «Эко (Новосибирск)», «Сибирская финансовая школа», «Финансы в Сибире» regional nəşrlərə oxucular tərəfindən ehtiyac böyükdür. Regional axın «Известия Санкт-Петербургского университета экономики и финансов», «Вестник Иркутской экономической академии» və başqa universitet və ali məktəblərin elmi işləri ilə tamamlanır.

Fəal istifadə olunan nəşrlərin sırasına 1990-cı illərdə yaranmış «Рынок ценных бумаг», «Главбух», «Деньги», «Риск» jurnalları aiddirlər. Geniş populyarlığı «Эксперт», «Профиль», «Итоги» kimi həftəlik analitik-informasiya nəşrləri qazanmışdır. Jurnalların həftəlik buraxıldığına və məqalələrin kiçik həcminə görə bir çox jurnalın illik məhsuldarlığı ildə 500 məlumatı keçir. İqtisadi sahəyə aid olan dar-sektorlu və tematik problemli jurnallar böyük oxucu auditoriyasına malikdir. Kitabxanalar «Дело и сервис» nəşriyyat qrupunun ilk illərində çap etdikləri «Маркетинг», «Менеджмент», «Финансы» bazar-iqtisadiyyatı jurnallarına olan abunəni saxlayırlar. «Qrebennikovun nəşriyyat evi» fəal şəkildə dar hədəfli professional və praktiklər qrupu üçün olan jurnalların sayını artırırlar. O, marketinq sahəsində 13 jurnalın dərcini təmin edir.

Nəşriyyat təklif edilən yenilik və tövsiyələrin praktik tətbiqinə olan oriyentasiyaları və mövzuların dərin açılışını xarakterizə edir. Müəlliflər arasında yüksək səlahiyyətli alimlər və praktiklər var. «Маркетинг и маркетинговые исследования» jurnalı professional icmalların çox sayda mükafatlarına layiq görülmüşdür. «Финпресс» nəşriyyatının jurnalları öz mövqelərini saxlayırlar - «Менеджмент в России и за рубежом», «Маркетинг в России и за рубежом», «Финансовый менеджмент», həmçinin qısa-sahəvi «Управленческий учет», «Консультант бухгалтера», «Кадры преприятия», «Зара-

ботная плата» və başqaları. Dəqiq və etibarlı informasiyaya olan ehtiyac «Налоговая схема России», «Справочник бухгалтера», «Справочник главбуха», «Некоммерческие организации в России» kimi kataloq xarakterli jurnalların yaradılmasına gətirib çıxarmışdır.

Mikroiqtisadiyyatın tələb olunan sahələrində yeni nəsil jurnallar yaranır – «Маркетинг PRO», «Новый менеджмент», elektron «Маркетинг журнал 4p.ru» və başqaları. Onları yeniliklərə olan istiqamət, şəxsi forumların varlığı, sosial şəbəkələrdə fəal iştirak, əsas təkliflərin aydın seçimi – «6 идей месяца», «Креатив» rubrikaları – fərqləndirir. Redaksiyalar praktiklərlə görüşlər və təlim seminarları keçirir, həmçinin oxuculara öz anti-böhran planların nümayiş etdirirlər. Elektron jurnallar araşdırmaların materiallarını internetdə yerləşdirir, bazara olan analitik baxışı satışa qoyurlar. Kommersiya hüquqları, mühasibat hesabatı, audit, bank işi problemləri haqqında olan nəşrlər də geniş yayılmışdır.

Müxtəlif dövrilikli jurnallar dərc edilir: «Банки и финансы», «Банки: Мировой опыт», «Банкир», «Банковские технологии», «Банковские услугу», «Банковское дело в Москве». «Банковская газета» çap edilir. «Аналитический банковский журнал» yaranıb. Onun tapşırıqlarına maliyyə bazarındakı vəziyyətin qiymətləndirilməsi, bazardakı rəqabətin təhlili, ekspertlərin şərhləri, icmallar, iqtisadi sektorların portretləri, xüsusi investorlara məsləhətlər daxildir. Jurnalın əsas oxucu auditoriyası biznes sahibləri, maliyyə institutlarının, bankların, kompaniyaların top-menecerləri, şirkətlərin başçılarıdır. İqtisadi məqalələrin 1/3 hissəsi universal və çoxsahəli jurnallarda dərc olunub. İqtisadçılar üçün ən məhsuldar nəşrlər bunlardır: «Новое время» «Гуманитарные науки», «Проблемы прогнозирования», «Проблемы Дальнего Востока», «Человек и труд», «Регионология», «Стандарты и качество».

Rusiya bazarına ABŞ-ın brokerlər, investorlar üçün, bankların informasiya mühafizəsi problemləri, yeni texnologiyalarla bağlı olan dar-məqsədli jurnallar buraxılıb («Broker», «Global İnvestor», «BİS Journal», «Bank Technology News», «Bank Systems & Technology»). Qəzetlər. Ölkədə qəzetlərin iqtisadiyyatı üçün əsaslı sahələr formalaşdı. Qəzet tipli həftəliklər - «Деловой мир», «Финансовая газета», «Экономика и жизнь», «Экономическая газета», ümumi oxucu auditoriyasını qoruyub saxlayır, yüksək illik məhsuldarlığı xarakterizə edirlər. Lakin , onları təşkil edən məqalələr daha faktikidirlər, ona görə də həftəlik jurnallarla müqayisədə onlar daha tez köhnəlirlər. Orta hesabla onların 8%-nı reklam tutur. Günlük qəzetlərdən yüksək oxucu reytinqi olan nəşrləri əhəmiyyətlilərin sırasına salmaq lazımdır: «Коммерсант», «Ведемости», «Финансовые известие», «Деловой Петербург». «Коммерсант » qəzeti 1992-ci ildən həftədə 5 dəfə dərc edilir və geniş miqyasda milli və xarici abunəçilərə göndərilir. Onun məşhurluğu biznes həyatının aktual icmalına, faktiki məlumatların seçmələrinə, aparıcı iqtisadçıların konsultasiyaları və məsləhətləri hesabına qorunub saxlanılır. «Деловой Петербург» qəzeti sənaye və sığorta şirkətlərinin, siyasi investorların reytinqi, bank reytinqi paylaşılır. Bazara olan professional baxışa böyük diqqət ayrılır, kataloqlu səhifələr paylaşılır.

Dar sektorlu qəzetlərin əhatəsi daimi olaraq dəyişir. Hər həftə «Налоги и бизнес» qəzeti, hər ay isə «Рекламный мир» qəzeti sabitliklə yeni bölümlərini çıxarır. Son onillər arzində dövri nəşrlər sistemi başqa hiss olunan dəyişikliklərə də məruz qalmışdır: elektron versiyalar, xəbər yenilikləri, biznes xəbərlərinin xülasəsi, həm hazırki xəbərlər haqqında informasiyanı, həm də milli qəzetlərin elektron arxivlərini nümayiş etdirən ixtisaslaşmış serverlər peyda olublar. Kitabxanada sahəli yayınların axtarışında ən böyük problemi yalnız elektron formada çıxan dövri nəşrlər yaradır. «Роспечати» sisteminin köməyi ilə yalnız tək-tük nəşriyyatlar yayılırlar. Cari kitabxana informasiyasının sistemində elektron jurnallar analitik olaraq imzalan-

mırlar. Onları yalnız o jurnalların redaksiyalarının veb-saytlarından oxumaq olar.

Başqa nəşriyyatlar (əsasən də, həftəlik «Деловой мир» qəzeti) öz yayınlarının elektron kataloqlarına malikdirlər, çünki bu müəyyən materialların axtarışını asanlaşdırır. Xəbər lentləri. Cəmiyyətin iqtisadi həyatını cəldaxınlıdır, ona görə də xəbər, cari birja və biznes məlumatlarının böyüklüyü indiki zaman rejimində və ya ona yaxın olan birində doldurulur və istifadə olunur. Xəbər məlumatlarının axını informasiya agentlikləri (İA) tərəfindən formalaşdırılır. Rusiyada 10-dan çox agentlik və mediaholdinq işləyir. Əsas məhsul – Hadisələr haqında xəbər lentasını birləşdirən operativ xəbər mesajlarıdı. İqtisadi xəbərlərin əsas hissəsi «РИА Новости», «Интерфакс», «РосБизнесКонсалтинг», «ИТАР-ТАСС» agentliklərin xəbər lentalarındadır. İllüstrasiyaların funksional bacarıqları Интерфакс İA-nın (Operativ iqtisadi informasiyanın ilk qeyri-hökumət kanalı) əsas məhsuludur. Sitatlama indeksinə görə daimi ikinci yeri ümumi reytinqli «Медиолог» mediası tutur. Bu xəbər lentlərini formalaşdırır: «Финансово-экономические новости», «Новости фондового рынка», sektor lentləri (YEK-yanacaq-elektrik kompleksi, metallar, transportlar, telekommunikasiyalar, banklar). Xəbər lentlərinin ayrı hissələrinə pulsuz keçid təmin edir. «Интерфакс»-ın 18 veb-saytı arasına kitabxanaçının işini asanlaşdıran saytlar daxildirlər. «Система комплексного анализа новостей» (СКАН) xəbər məlumatlarının analizi və mediamonitorinq üçün nəzərdə tutulub. Verilən sorğuya görə internetdə müxtəlif portallar və agentliklər tərəfindən yerləşdirilmiş xəbər mesajları axtarışını yaradır, onları köçürmə həcminə və yayınlanma tarxinə görə düzür.

Şəxslərin və təşkilatların qeydlərinin reytinqinə, mesajların mövzusuna və daxil olunmuş sorğunun mövzusuna aid olan mənbələri formalaşdırır. Müəyyən şirkətlərin arayışlarını təmin edən şirkət informasiyanın qorunduğu «СПАРК» və «D & B» verilənlər bazaları yaradılmışdır. Birləşmiş kredit bürosu şirkətlərin kredit reytinqlərini yayır. Sorğular və KİV-lərin reytinqləri. Öndə gedən dövri nəşrlərin iqtisadi materiallarının dayjest (Özət) və press-sorğuları, KİV-lərin reytinqləri cari biznes xəbərlərinə şəbəkəylə girişə icazəsi olan öz sahələrinə və xarici axtarışlarına uyğun təxmini bütün informasiya firmalarını yaradırlar. «Экономические новости» qəzeti, «Дайджест-Директор» jurnalı kimi-xüsusi dövri dayjest-nəşrlərdə yaradılırlar. Onlar biznes mətbuatının icmalını və hadisələrin ardıcıllığını paylaşırlar. İqtisadi jurnalistikada məqalələrin janrlarla zənginləşir: analitik icmallar və problemli məqalələrdən başqa, məhsullara olan topdansatış qiymətləri və birja ticarətinin cədvəlli müqayisəsi, firmaların illik məlumatları, reklam materialları və s. nəşr olunur. İnformasiya firmalarının saytlarında iqtisadi yayınların tematik seçmələri qoyulur. Xüsusilə, «The Dun & Bradstreet» (www.dnb.com) marketinqin ümumi sualları, strateji planlama və firmanın fəaliyyətinin iqtisadi analizləri ilə bağlı məqalələri paylaşırlar. Məlumatların rahat axtarışı üçün sistem təqdim olunmuşdur.

Ölkədə operativ birja, bank və başqa biznes məlumatlarının xüsusi bloku yaradılmışdır. Ona istifadəçilərə real vaxt rejimində və ya minimal informasiya fasitəsi ilə əlçatan olan informasiya mənbələri (data bazalar, bülletenlər, xəbər lentləri) daxildir. Kitabxanaçı-biblioqraf belə spesifik mənbələri bilməlidir, ona görə ki, onlar bütövlükdə milli iqtisadiyyatın inkişafına və əhəmiyyətli iqtisadi obyektlərin fəaliyyətini təmin edirlər.

## 5.2. SOSİAL-SİYASİ RESURSLARIN İNFORMASİYA TƏMİNATINDA MÜASİR TEXNOLOGİYALARIN TƏTBİQİ

Kompüter texnologiyasının sürətli inkişafı son illərdə yaradılmış informasiya axınının böyük əksəriyyətinin elektron resurs formasında təşəkkül tapmasına səbəb olmuşdur.

Durmadan artan və yeniləşən informasiyanın gur axını şəraitində cəmiyyətin idarə edilməsində dəqiq və operativ informasiyaya olan tələbat, maddi, mənəvi və intellektual sərvətlərdən beynəlxalq miqyasda birgə istifadə, informasiya mübadiləsinin az xərclə təmin edilməsi, informasiya xidmətlərinin təkmilləşdirilməsi və s. müasir tələblərə cavab verən avtomatlaşmış kitabxana informasiya idarəetmə sistemlərinin yaradılmasını zəruri etmişdir.

Bu gün qabaqcıl ölkələrin kitabxanalarında kompüter şəbəkə arxitekturası əsasında avtomatlaşmış kitabxana informasiya idarəetmə sistemləri, elektron kitabxanalar fəaliyyət göstərir. Qeyd etmək lazımdır ki, avtomatlaşmış kitabxana informasiya idarəetmə sistemləri ilk növbədə, sənədlərin təsnifləşdirilməsinin avtomatlaşdırılması, informasiya tələbatçısının sorğusunun cavabını vaxtında operativ çatdırılması ilə bərabər bir sıra kitabxana fəaliyyət sahələrinə aid işləri vaxt, kadr və maliyyə ehtiyatlarına qənaət etməklə yüksək səviyyədə yerinə yetirilməsini təmin edir. Müasir Avtomatlaşmış İnformasiya İdarəetmə Sistemləri beynəlxalq biblioqrafik format əsasında yaradılmış virtual informasiya bazasına, məsafədən asılı olmayaraq istifadəçi sorğusunu operativ surətdə yerinə yetirmək qabiliyyətinə, digər Avtomatlaşmış İnformasiya İdarəetmə Sistemlərində informasiya mübadiləsi etmək imkanına malikdirlər və əsas kitabxana proseslərinin avtomatlaşmış işçi yerlərini özündə birləşdirirlər.

Elektron resursların yaradılmasında yeni informasiya texnologiyasından istifadə olunması da əsas amillərdəndir. Çünki müasir dövrdə elektron sənədlər saxlanma müddətinə, avtomatlaşmış yaradılma üsullarına, operativ mübadilə və axtarış imkanlarına, asanlıqla bərpa olunmasına və səmərəliliyinə görə ənənəvi sənəd formalarından kəskin fərqlənirlər. Bu o deməkdir ki, kiçik həcmli, lakin çox böyük informasiya tutumlu maqnit informasiya daşıyıcılarında böyük bir kitabxana fondunun elektron sənəd formasında qorunub saxlanılması mümkündür. Elektron sənədlər xidmət üçün xüsusi şəraitin, çoxlu kadrların olması zərurətini aradan qaldırır, məsafədən asılı olmayaraq dünyanın istənilən nöqtəsinə göndərilə bilir.



Elektron sənədlər xüsusi proqram-redaktorlar vasitəsilə yaradılır. İnsanlar öz fikirlərini əsasən sözlə ifadə etdiklərindən sənədlərin böyük qismi mətn tipli olub, müvafiq mətn redaktorları vasitəsilə yaradılır. Aşağıdakı mətn redaktoru geniş yayılmışdır: Ms Word, Adobe Page Maner, Quark Xpress, Ventura Publisher və s. İnformasiya nizamlı struktura malik olduqda onun analizi asan olduğundan, elektron sənədlərin böyük qismi elektron cədvəllər şəklində yaradılır. Bunun üçün Ms Excel, Lotus 1-2-3 və s. proqramlar istifadə olunur. Məlum olur ki, 90-cı ildə www texnologiyasının yaradılması elektron-sənədlərin hipermedia formasında (bir sənəd daxilində informasiyanın bütün növlərindən-mətn, səs, qrafika, cədvəl, video və s. istifadə olunması) yaradılmasının əsasını qoyub. Müasir informasiya-kompüter şəbəkələri, o cümlədən İnternet, İntranet və müasir kitabxana-informasiya sistemlərinin informasiya bazasının böyük qismini hipermedia elektron sənədlər – Web səhifələr təşkil edir. Web səhifələr statik və dinamik formada hazırlanır. Statik səhifələrdən fərqli olaraq, dinamik səhifələr interaktiv əlaqəni təmin edir.

İNTERNET-in insan fəaliyyətinə böyük sürətlə nüfuz etməsinin əsas səbəbi onun insanların informasiya ehtiyaclarına operativ şəkildə ödəyə bilməsi və insanlar arasında elektron ünsiyyət yaratmaq imkanının olmasıdır. Məhz bu səbəbdən o, müasir kitabxana-informasiya fəaliyyətində əvəzedilməz vasitəyə çevrilmişdir. İNTERNET vasitəsilə kitabxanalar ilk növbədə öz biblioqrafik informasiya ehtiyatlarını ümumi istifadə

üçün beynəlxalq informasiya məkanına inteqrasiya edirlər və bununla onlar öz oxucu kontingentini sürətlə genişləndirərək, coğrafi uzaqlıqdan asılı olmayaraq On-Line rejimində oxuculara xidmət göstərirlər.

Bu xidmət uzaq məsafədə yerləşən oxucu sorğusunu qəbul edib, arayış formasında və ya oxucu tələbatına uyğun sənədin surətinin oxucuya çatdırılmasını, oxucuların kitabxananın elektron kataloqundan və elektron mətn tipli informasiya bazasından istifadəni nəzərdə tutur. O cümlədən nəşriyyatların kitab ticarəti ilə məşğul olan təşkilatların İNTERNET-dəki saytlarından nəşr olunan çap məhsulları haqqında məlumat əldə etmək və tələbata uyğun ədəbiyyatın On-Line sifarişini həyata keçirmək mümkündür.

Bu səbəbdən kompüter şəbəkələri müasir kitabxanaların texniki təminatının əsas tərkib hissəsidir. Məhz onun kitabxana proseslərinin avtomatlaşdırılmasına tətbiqi, hətta uzaq məsafədə yerləşən oxucunun sorğusunu operativ yerinə yetirilməsinə, yorucu və vaxt tələb edən kitabxana işçisinin əməyinin avtomatlaşdırılmasına, oxuculara xidmətin yüksək səviyyədə təşkilinə şərait yaratmışdır. Kompüter şəbəkələrinin iki tipi: lokal və qlobal şəbəkələri bir müəssisə daxilində fəaliyyət göstərir və informasiya mübadiləsinə, informasiya və perferiya avadanlıqlarından birgə istifadəyə şərait yaradır.

Müasir kitabxanalar yalnız kağız üzərində maddiləşmiş informasiya xəzinəsi deyil, həmçinin böyük həcmli elektron sənədlərin topladığı avtomatlaşmış informasiya mərkəzləridir.

Biblioqrafik fəaliyyətdə müasir biblioqrafik repertuarın yaradılması o cümlədən texnologiyaların tətbiqi probleminin əhəmiyyəti, aktuallığı müasir elmi-texniki tərəqqinin nailiyyətləri biblioqrafik praktikanın daxili tələbatı və avtomatlaşdırma və kompüterləşdirmənin tətbiqi üçün metodiki-nəzəri bünövrənin formalaşması ilə müəyyən olunur.

Müstəqilliyimizin möhkəmləndiyi, iqtisadi sahələrdə mühüm islahatların həyata keçirildiyi bazar iqtisadiyyatı şəraitində



müasir dövrün tələblərinə cavab verən elektron kataloqların yaradılması və dünya İnternet sisteminə qoşulması mühüm əhəmiyyət kəsb edir.

Müasir dövrdə kitabxanaların avtomatlaşdırılması, elektron kataloqların yaradılması, ümumiyyətlə, kataloqlaşdırma problemləri bütün dünya mütəxəssislərinin diqqət mərkəzinə çevrilmişdir. Belə ki, kompüter texnologiyasının inkişafı şəraitində informasiya mübadiləsinin həll edilməsi bilavasitə onlardan asılıdır.

Müasir dövrdə elektron kataloqların təşkili olduqca aktuallıq kəsb edir. Bu sahədə elektron kataloqlar informasiya sisteminin növ müxtəlifliyindən biri kimi kitabxanalararası avtomatlaşdırılmış əlaqələrin yaradılmasında və istifadə edilməsində mühüm rol oynayır. Belə ki, elektron kataloqların İnternetdə tətbiq edilməsi təkcə tələbatçı biblioqrafik informasiyanı istənilən vaxtda, istənilən yerdən almaqla kifayətlənmir, eyni zamanda müxtəlif kitabxanalarda mövcud olan külli miqdarda qiymətli resurslarla tanış olur.

Elektron kataloqlarda sənədlər haqqında məlumatın toplanması, hər hansı sənədə dair lazımi informasiyanın tələb olunan şəkildə tələbatçıya çatdırılması təmin edilir. Elektron kataloqlar dünya kitabxanalarının İnternet vasitəsilə yayılan əsas informasiya mənbəyidir. Elektron kataloq olmadan kitabxanada kompüter əsasında tətbiq edilən bütün işlərin xarakteri dar məna daşıyacaqdır.

Ölkədə kitabxana-biblioqrafiya və informasiya işlərinin beynəlxalq səviyyəyə uyğun olaraq standartlaşdırılmasının həyata keçirilməsi; Kitabxanaların və digər informasiya orqanlarının yeni texnologiya ilə təminatı; Yeni tipli kadrların hazırlanması sisteminin yaradılması; Respublika miqyasında kitabxana şəbəkələrinin yenidən qurulmasının vahid planının hazırlanması. Bu məqsədlə Azərbaycanda dövlət səviyyəsində kitabxanaların pasportlaşdırılmasının keçirilməsi; Respublika ərazisində mövcud ilkin və ikinci dərəcəli sənəd resursları bazasının yaradılması və s. mühüm əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


1."İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu" [Mətn] // Azərbaycan Respublikasının qanunvericilik toplusu.- 1998.- № 6.- S.1214-1222.

2. Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu [Mətn] //Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal.-Bakı,1999.-№1.-S.3-16.

3. Əliyev H. Müstəqilliyimiz əbədidir: C.1-46.- [Mətn] Bakı: Azərnəşr, 1997-2013.

4. Azərbaycan biblioqrafiyasının tarixi. Bakı, 2007-184 s.

5. Əliyev Z.H.Ümumi biblioqrafiyaşünaslıq:Dərs vəsati [Mətn]. - Bakı:BUN, 2001 - 142 s.

6. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Çoxcildliyin XXIX-XXXXII cildlərinin köməkçi göstəricisi: (Qeydlər, şəxsi və coğrafi adlar göstəricisi) [Mətn] Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2013.- 448 s.

7. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: (Çoxcildliyin I-IX cildlərinin köməkçi aparatı) [ Mətn] / M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2008.- 339 s.

8. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çoxcildliyin X-XXVIII cildlərinin köməkçi göstəricisi: (qeydlər, şəxsi və coğrafi adlar göstəriciləri) [Mətn]. -Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2010. -509 s.

9. Xələfov A.A. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin formalaşmasında Heydər Əliyev irsinin rolu [Mətn] // Azərbaycan.-2001.- 10 oktyabr.

10. Xələfov A.A.Azərbaycanın müstəqilliyinə və milli ideologiyasına qiymətli töhfə:Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin əsərlərinin nəşri haqqında [Mətn] // Bakı Universiteti Xəbərləri: Humanitar elmlər seriyası.-Bakı,1998.- №1.-S.128-138.





11. Xələfov A.A.Heydər Əliyev əsərlərinin nəşri və təbliği [Mətn] //Kitabxanaşünaslıq və biblioqrafiya. -Bakı: Bakı Universiteti Nəşriyyatı, 2002.- №1.-S.5-16.

12. Xələfov A.A., Qurbanov A.İ. Kitabxanaların kompyüterləşdirilməsinin əsasları: Dərslik [Mətn].-Bakı: BUN, 2007 -200 s.

13. İsmayılov N.İ. Azərbaycan biblioqrafiyasının biblioqrafiyası [Mətn].-Bakı :Mütərcim, 2003.-112s.

14. Nəriman Nərimanov əsərlərinin biblioqrafik göstəricisi [Mətn]/Tərt.ed.F.Bayramov - Bakı : Azərnəşr, 1972 - 102 s.

15. Sadıqova S.A. İqtisadiyyat elminə həsr olunmuş ümumi xarakterli biblioqrafik informasiya mənbələri [Mətn] // Kitabxanaşünaslıq və biblioqrafiya. - Bakı: BUN, 2010. - №1.- S.98-106.

16. Sadıqova S.A. Azərbaycan milli kitabı və onun biblioqrafiyasının təşəkkülü və formalaşması [Mətn] // Dil və ədəbiyyat: beynəlxalq elmi-nəzəri jurnal. - 2010. - №4. - S. 347-352.

17. Sadıqova S.A. Azərbaycan ümumi retrospektiv biblioqrafiyasının tarixi inkişafı və təkmilləşdirilməsi yolları [Mətn]//Tarix və onun problemləri: nəzəri, elmi, metodik jurnal. – Bakı : BUN, 2010. - №2. - S.182-188.

18. Sadıqova S.A. Fəlsəfə elminə həsr olunmuş biblioqrafik informasiya mənbələri [Mətn] // Kitabxanaşünaslıq və biblioqrafiya. - 2009. - №2. - S. 106-120.

19. Sadıqova S.A.Heydər Əliyev: Biblioqrafik məlumat kitabı/ Red. və ön sözün müəllifi A.M.Məhərrəmov [Mətn] .- Bakı: BUN, 2003. - 434 s.(A.Xələfovla birlikdə).

20. Sadıqova S.A. Milli biblioqrafiya biblioqrafik resursun tərkib hissəsi kimi [Mətn] // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal. – Bakı : BUN, 2000. - №2. - S. 94-103.

21. Sadıqova S.A. Tarix elminə həsr olunmuş mövzu xarakterli biblioqrafik informasiya mənbələri [Mətn] // Azərbay-

can Dillər Universitetinin Elmi Xəbərləri. - B., 2010. - №2. - S. 413-420.

22. Sadıqova S.A. Ümummilli lider Heydər Əliyevə həsr olunmuş biblioqrafik informasiya nəşrləri [Mətn] // Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri, təcrübi jurnal. - 2011. - №1. - S. 66-77.

23. Sadıqova S.A. Biblioqrafik məhsulun repertuarının yaradılması sahəsində ilk təşəbbüs [Mətn] // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal. - 2004. - №2. - S. 105-109.

24. Sadıqova S.A.Sosial-siyasi elmlərin biblioqrafik informasiya təminatında "Heydər Əliyev və Azərbaycan elmi" adlı biblioqrafik göstərici mühüm mənbədir [Mətn] // Kitabxanaşünaslıq və biblioqrafiya. - 2010. - №2.- S.138-143.

25. Архипова М.К. Ретроспективная библиография по общественным наукам как информационная система: [Текст].- Труды ЛГИК.- Л., 1977.- Т.34.- с.5-52.

26. Библиографическая работа в библиотеке: организация и методика: Учебник [Текст].- Москва: Книжная Палата, 1990, 256 s.

27. Виноградов В.А. Общественные науки и информации [Текст].- Москва: Наука, 1978.- 263 с.

28. Вопросы теории и методики исторической библиографии [Текст] .- Москва, 1973.- с. 219.

29. Ильичева Л.С. Организация библиографии общественно-политической литературы [Текст]- Москва, 1983-с.32.

30. Ильичева Л.С., Сахаров Н.И., Архипова М.К. Библиография общественно-политической литературы: учебник [Текст].- Москва : Книжная Палата, 1968.- 263с.

31. Коршунов О.П. Библиографоведение: Учебник [Текст]/ О.П.Коршунов, Н.К.Леликова, Т.Ф.Лиховид; под общ. ред. О.П.Коршунова. – Санкт-Петербург: Профессия, 2014. – 288 с.



32. Матлина С.Г. Пропаганда общественно- политической литературы в массовых библиотеках [Текст].- Москва: Книга, 1980.- 88с.

33. Садыгова С.А.Библиографические источники, посвященные Азербайджанским книгам [Текст] // Поиск: серия гуманитарных наук / Научное приложение Международного научного-педагогического журнала «Высшая школа Казахстана», 2011, №2, С.303-308.

34. Садыгова С.А. Библиографические источники, посвященные Азербайджанским книгам, как основа национального библиографического репертуара [Текст] // Объединенный научный журнал. Москва, 2009.-№8 (226) С.65-69.

35. Садыгова С.А.Библиографические источники, посвященные азербайджанским книгам [Текст] // Журнал научных публикаций аспирантов и докторантов. Курск, 2010, №12 (54), С.94-97.

36. Садыгова С.А. Гейдар Алиев: Библиографический справочник / Ред. и автор вступ. слова А.М.Магеррамов [Текст].-Б.: Издательство Бакинского Государственного Университета, 2003, 446 с. (Вместе с А.А.Халафовым)

37. Садыгова С.А. Основоположник национальной науки библиотековедения, библиографоведения [Текст] // Повседневная жизнь и общестенное сознание в России XIX–XXI вв.: сб. Материалов междун. науч. конф. / Под общ. ред. В.Н.Скворцова, отв. Ред. В.А.Веременко. – Спб.: ЛГУ им. А.С.Пушкина, 2012. – С.314-318.

38. Справочник библиографа, 4-е изд., испр. и доп. науч. ред. Г.Ф.Гордукалова, Г.В. Михеева [Текст]. - Москва:Профессия, 2014.- 768 с.

39. Черемысина Н.М. Руководство чтением в библиографической справке общественно-политической тематики [Текст] // Сов. библиография.- 1980.-№ 1.- с.19-56.

40. Sadigova S.A. Heydar Aliyev: Bibliographic reference book / Editor and preface A.Maharramov [Text]. -

Baku: Baku University Press, 2003. - 455 p. (Togeather with A.Khalafov)

41. Sadıqova S.A. Primary resources on socio-political subjects as an object of bibliographyzation [Texт] // Azərbaycan Milli Kitabxanasının Elmi Əsərləri: bur.7.- Bakı, 2015.-S. 177-181 (ingilis dilində)

42. Sadigova S.A. Information resources on the works of prominent political and public figures of Azerbaijan [Texт] // Librarianship and bibliography.- 2016. - №1.-S.71-78 (ingilis dilində).

43 www.azertag.com

44. www.azerbaijan.az

45. www.az-muallimi.com

46. www.azerbaijan-news.

47. www.elm.az

48. www.elibrary.az

49. www.e-qanun.az

50. www.muallim.edu.az

51. www.president.az

52. www.preslib.az

53. www.anl.az

54. www.mek.az/az/



# MÜNDƏRİCAT

**GİRİŞ** .......... **2**

*I FƏSİL*

*1.1. SOSİAL-SİYASİ İNFORMASİYA RESURSLARI BİBLİOQRAFİYALAŞDIRMA OBYEKTİ KİMİ* .......... *7*

*1.2. SOSİAL-SİYASİ İNFORMASİYA RESURSLARI ÜZRƏ TƏLƏBATÇILAR* .... *12*

*1.3. SOSİAL-SİYASİ İNFORMASİYA RESURSLARININ YARANMASI VƏ İNKİŞAFI* .......... *15*

*1.4. SOSİAL-SİYASİ İNFORMASİYA RESURSLARI ÜZRƏ İLKİN MƏNBƏLƏR* .......... *19*

*1.5. AZƏRBAYCANIN GÖRKƏMLİ SİYASİ VƏ DÖVLƏT XADİMLƏRİNİN ƏSƏRLƏRİNƏ DAİR İNFORMASİYA RESURSLARI* .......... *24*

*II FƏSİL*

*2.1. FƏLSƏFƏYƏ DAİR İNFORMASİYA RESURSLARININ ÜMUMİ XARAKTERLİ BİBLİOQRAFİK MƏNBƏLƏRDƏ ƏKS OLUNMASI* .......... *30*

*2.2. FƏLSƏFƏYƏ DAİR ŞƏXSİ BİBLİOQRAFİK İNFORMASİYA RESURSLARI* .......... *32*

*2.3. TARİX ELMİNƏ HƏSR OLUNMUŞ MÖVZU XARAKTERLİ BİBLİOQRAFİK İNFORMASİYA RESURSLARI* .......... *34*

*2.4. TARİXƏ DAİR ŞƏXSİ BİBLİOQRAFİK İNFORMASİYA RESURSLARI* .......... *40*

*2.5. İQTİSADİYYAT ELMİNƏ HƏSR OLUNMUŞ ÜMUMİ XARAKTERLİ BİBLİOQRAFİK İNFORMASİYA MƏNBƏLƏRİ* .......... *47*

*2.6. İQTİSADİYYAT ÜZRƏ ŞƏXSİ BİBLİOQRAFİK İNFORMASİYA RESURSLARI* .......... *56*

*III FƏSİL*

*3.1. DÖVLƏT VƏ HÜQUQA DAİR İNFORMASİYA RESURSLARI ................ 58*

*3.2. PEDAQOGİKA VƏ PSİXOLOGİYA ÜZRƏ İNFORMASİYA RESURSLARI ................ 64*

*3.3. DİLÇİLİK ÜZRƏ İNFORMASİYA RESURSLARI ................ 75*

*3.4. DÖVLƏT BİBLİOQRAFİYA ORQANLARINDA SOSİAL-SİYASİ İNFORMASİYA RESURSLARININ ƏKS OLUNMASI ................ 81*

*3.5. "AZƏRBAYCAN KİTABI" GÖSTƏRİCİLƏRİNDƏ SOSİAL-SİYASİ İNFORMASİYA RESURSUNUN ƏKS OLUNMASI ................ 85*

*IV FƏSİL*

*4.1. "HEYDƏR ƏLİYEV: BİBLİOQRAFİK MƏLUMAT KİTABI" ƏN MÜHÜM İNFORMASİYA RESURSU KİMİ ................ 89*

*4.2. "HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ELMİ" ADLI İNFORMASİYA RESURSU HAQQINDA ................ 94*

*4.3. "AZƏRBAYCAN BİBLİOQRAFİYASININ BİBLİOQRAFİYASI" GÖSTƏRİCİSİNDƏ SOSİAL-SİYASİ İNFORMASİYA RESURSLARININ ƏKS OLUNMASI ................ 97*

*V FƏSİL*

*5.1. RUSİYADA İQTİSADİ İNFORMASİYA RESURSLARININ XÜSUSİYYƏTLƏRİ ................ 101*

*5.2. SOSİAL-SİYASİ RESURSLARIN İNFORMASİYA TƏMİNATINDA MÜASİR TEXNOLOGİYALARIN TƏTBİQİ ................ 114*

**ƏDƏBİYYAT ................ 118**



**Redaktor: Ayşən Sadıqlı**

**SOLMAZ SADIQOVA**

**SOSİAL-SİYASİ İNFORMASİYA RESURSLARI**

**Bakı – Mütərcim – 2016**

Çapa imzalanıb:12.12.2016.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 7,87 ç.v. Tiraj: 200. Sifariş № 278.
Qiyməti müqavilə ilə.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44; (055) 715 63 99
*e-mail: mutarjim@mail.ru*
www.mutercim.az